5	127	HP		01.01.2018	5000							900	700		5900	1750	315	2065	1750	360	2110	1500	270	1770	2000	360	2360	
6	128		Veysəlioğlu	05.02.2018	6000							1080	840		7080	2100	378	2478	2100	432	2532	1800	324	2124	2400	432	2832	
7	129	CISCO		01.01.2018	1000							180	140		1180	350	63	413	350	72	422	300	54	354	400	72	472	
Yekun					22000							3960	3080	—	25960	7700	1386	9086	7700	1584	9284	6600	1188	7788	8800	1584	10384	

Mal və xid. üzrə m. hesabatı | Kr. və dr. üzrə müqavilə hesab. | Products_shablon | Services_shablon

Şək. 13. Kreditor və debitorlar üzrə müqavilə hesabatı

3. PUL VƏSAİTLƏRİ KOMPONENTI

*Sənədin bu bölməsində **Sinam Müəssisə Resurslarının İdarə Edilməsi (SERP)** sisteminin proqram kompleksinə aid olan olan **Pul vəsaitləri** komponentinin təyinatı, onun funksional imkanlarının təsviri verilmişdir. Bölmə müəssisə və təşkilatların pul vəsaitlərinin hərəkətini əks etdirən bank, xəzinə və avans əməliyyatları və maliyyə sifarişlərinə dair sənədləşmə işlərini yerinə yetirən mühasibatlıq işçiləri üçün nəzərdə tutulmuşdur.*

3.1. Komponentin təyinatı

Hər bir müəssisənin pul vəsaitlərinin yerləşdirilməsi, müqavilələr üzrə ödənişlərin aparılması vacib maliyyə məsələlərindən biridir. **Pul vəsaitləri** komponentində bank, xəzinə və avans əməliyyatları əhatə olunur. Bu əməliyyatlar aşağıdakı alt komponentlər vasitəsilə yerinə yetirilir:

- Bank sənədləri
- Xəzinə sənədləri
- Avans sənədləri
- Ödəniş tapşırığı
- Maliyyə sifarişi
- Hesabatlar

3.2. Bank sənədləri

Bank sənədləri müəssisənin bank mədaxil və məxaric əməliyyatlarının sənədləşdirilməsini əks etdirir. Sistemdə **Bank sənədləri** alt komponenti vasitəsilə **Bank çıxarışı** və **Valyuta alınması** əməliyyatları yerinə yetirilir. Bu əməliyyatlar nəticəsində bank sənədlərinə dair cədvəl yaradılır (**Şək. 14**).

Bu cədvəldə bank mədaxili, bank məxarici və valyuta alınması sənədlərinə dair aşağıdakı məlumatlar əks olunur: Sənədin nömrəsi, Təşkilat, Sənədin növü, Sənədin tarixi, Hesab №, Debit (AZN), Debit (Xarici valyuta), Kredit (AZN), Kredit (Xarici Valyuta). Cədvəlin axırıncı sətrində aparılan bütün bank əməliyyatlarına uyğun Yekun debit və kredit dövriyyəsi göstərilir.

Proqram təminatında bank sənədlərinə dair aşağıdakı funksionallıqların yerinə yetirilməsi nəzərdə tutulur:

- **Bank çıxarışı – BANK ÇIXARIŞI** sənədinin yaradılması
- **Valyuta alınması – VALYUTA ALINMASI** sənədinin yaradılması
- **Silmək** – cədvəldə seçilmiş bank sənədinin silinməsi
- **Bərpa etmək** – silinmiş bank sənədlərinin bərpa edilməsi
- **Çap** – bank sənədinin çap edilməsi



Şək. 14. Bank sənədləri cədvəli

Həmçinin Bank sənədləri cədvəli üzərində aşağıdakı digər əməliyyatların yerinə yetirilməsi də təmin olunmuşdur:

Filter - bu əməliyyat vasitəsilə bank sənədlərinin rekvizitlərinə görə axtarış;

Sazlama - əməliyyatı cədvəlin qrafalarının ekrana çıxarılması və ya əksinə gizlədilməsi;

Tarixi seçmək - yaradılma tarixi müəyyən bir intervala düşən bank sənədlərinin ekrana çıxarılması;

- cədvəldə seçilmiş bank sənədinin nüsxəsinin yaradılması;

- cədvəldə seçilmiş bank sənədinin məlumatlarının silinməsi;

- bank sənədinin məzmununa baxış

- cədvəldə seçilmiş bank sənədi üzərində aparılan əməliyyatın ləğv edilməsi.

3.2.1. Bank çıxarışı sənədi

Bank əməliyyatlarını əks etdirən əsas sənəd **Bank çıxarışı** sənədidir. Bank çıxarışı sənədi həm bank mədaxili, həm də bank məxarici üçün yaradılır. Bu zaman uyğun olaraq Bank mədaxil (BMD) və Bank məxaric (BMX) sənədləri yaradılır. Eyni bir bank çıxarışı sənədində hər iki əməliyyatı – həm bank mədaxili, həm də bank məxaricini yerinə yetirmək olar. Bank çıxarışı sənədində aşağıdakı rekvizitlərın məlumatları əks olunur (**Şək. 15**):

- Sənədin nömrəsi
- Sənədin tarixi
- Təşkilat
- Bank hesabı
- Valyuta
- Alış məzənnəsi
- Satış məzənnəısi
- Kontragent
- Debet (AZN)
- Debet (Xarici valyuta)
- Debet (Məzənnə)
- Kredit (AZN)
- Kredit (Xarici valyuta)
- Kredit (Məzənnə)
- Müqavilə
- Büdcə
- İqtisadi təsnifat kodu
- Funksional təsnifat
- Büdcə proqramı
- Əlaqəli sənəd
- Ödənişin təyinatı

Bank çıxarışı sənədində həmçinin **Debet** və **Kredit** üzrə yekun dövriyyə, sənədin yaradıldığı tarixə olan saldo, aparılan bank əməliyyatından sonrakı saldo əks olunur. Həmçinin sənəddə aparılan bank əməliyyatını əks etdirən müxabirləşmələr də yaranır.

Pul vəsaitlərinə dair proqram təminatında **Bank məxaric** sənədini həm də **Ödəniş tapşırığı** komponenti vasitəsilə də avtomatik olaraq almaq olar.



Şək. 15. Bank çıxarışı sənədi

3.2.2. Valyuta alınması sənədi

Bank sənədləri komponentində aparılan əsas əməliyyatlardan biri də **Valyuta alınması (VA)** sənədinin yaradılmasıdır. Bu sənədə dair rekvizitlər aşağıdakı ekran formasında əks olunur (**Şək. 16**):



Şək. 16. Valyuta alınması sənədinin rekvizitləri

3.3. Xəzinə sənədləri

Xəzinə sənədləri müəssisənin xəzinəsindən keçən bütün maliyyə vəsaitlərinin hərəkətini, xəzinə mədaxil əməliyyatlarının və xəzinədən məxaric əməliyyatlarının sənədləşdirilməsini özündə əks etdirir.

Proqram təminatında bu əməliyyatların yerinə yetirilməsi **Xəzinə sənədləri** komponenti vasitəsilə yerinə yetirilir. Bu komponentin köməyi ilə aşağıdakı funksionallıqlar yerinə yetirilir:

- **Xəzinə əməliyyatları** – xəzinə mədaxili və məxarici sənədlərinin yaradılması və onların üzərində bəzi funksional əməliyyatların aparılması
- **Xəzinə hesabatı** - müəssisənin müəyyən tarix intervalında apardığı xəzinə əməliyyatlarını əks etdirən xəzinə hesabatının yaradılması;
- **Xəzinə kitabı -** seçilən tarix intervalında aparılan xəzinə əməliyyatlarının siyahısının alınması.

3.3.1. Xəzinə əməliyyatları

Proqram təminatında aparılan xəzinə əməliyyatlarına dair xəzinə sənədlərinin məlumatlarını əks etdirən cədvəl yaradılır. Bu cədvəldə xəzinə sənədlərinə dair aşağıdakı məlumatlar əks olunur: № (Sənədin nömrəsi), Blank №, Təşkilat, Sənədin növü, Tarix, Hesab №, Müştəri, Debet, Kredit, İqtisadi təsnifat kodu, Menecer, Büdcə, Qeyd (**Şək. 17**):

№	Blank №	Təşkilat	Sənədin növü	Tarix	Hesab №	Müştəri	Debet	Kredit	İqtisadi təsnifat kodu	Menecer	Büdcə	Qeyd	İstifadəçi
20		Test tabe təşkilat	XMD	20.09.2017	111.02	Xidmətlərin göstərilməsi üzrə qısamüddətli debitor borcları	12,345.00	0.00			Analitik maddə		AVRASIYA 1
19		Test tabe təşkilat	XMD	20.09.2017	111.02	Xidmətlərin göstərilməsi üzrə qısamüddətli debitor borcları	12,345.00	0.00			Analitik maddə		AVRASIYA 1
22	32	Test tabe təşkilat	XMD	29.10.2017	301.1-1	Pasha holding	700.00	0.00	Sair xərclər		Analitik maddə		AVRASIYA 1
23	51	Test tabe təşkilat	XMD	29.10.2017	301.2-2	ATLANT MMC	169.00	0.00	İdarənin xərcləri		Analitik maddə		AVRASIYA 1
7		Test tabe təşkilat	XMD	04.06.2018	103.02.01	Tikinti quraşdırma işləri	120.00	0.00	Mühafizə xərcləri		Analitik maddə		AVRASIYA 1
14		Test tabe təşkilat	XMD	14.11.2018	111.02.6	Abbaslı Elvin1 Firdovsi	1,000.00	0.00	Ştatda olan işçilərin əmək haqqı		Dövlət sifarişi		AVRASIYA 1
Yekun													7

Valyuta	Əvvələ qalıq	Debit	Kredit	Sona qalıq
AZN		26,679.00	500.00	26,179.00

Şək. 17. Xəzinə sənədləri cədvəli

Proqram təminatında xəzinə sənədlərinə dair cədvəl üzərində aşağıdakı əməliyyatların yerinə yetirilməsi təmin olunmuşdur:

- **Yeni mədaxi –** yeni xəzinə mədaxil sənədinin yaradılması
- **Yeni məxaric –** yeni xəzinə məxaric sənədinin yaradılması
- **Silmək – c**ədvəldə seçilmiş sənədin silinməsi
- **Bərpa etmək** – silinmiş sənədlərin bərpa edilməsi
- **Çap –** xəzinə sənədləri cədvəlinin çap edilməsi
- **Kitabın çapı –** xəzinə kitabının çap edilməsi
- **İxrac –** xəzinə sənədlərinə dair cədvəli Excel faylına ixrac edilməsi
- **Filter**- xəzinə sənədlərinin rekvizitləri üzrə axtarış
- **Sazlama** - cədvəlin qrafalarının ekrana çıxarılması və ya gizlədilməsi
- - xəzinə sənədinin nüsxəsinin yaradılması
- - xəzinə sənədlərinə edilmiş düzəlişlərin tarixinə baxış
- - xəzinə sənədinə baxış
- - xəzinə sənədi üzərində aparılan əməliyyatın geri çəkilməsi

Proqram təminatında qrup şəklində seçilmiş xəzinə sənədlərinin hamısında eynu vaxtda iqtisadi təsnifat kodunun (xərc maddəsinin) yeni kodla əvəz edilməsi üçün kütləvi əməliyyat funksionallığı işlənilmişdir.

3.3.1.1. Xəzinə mədaxil sənədi

Xəzinə sənədləri komponentinin köməyi ilə yaradılan yeni xəzinə mədaxil sənədinə nümunə aşağıdakı şəkildə təsvir olunmuşdur (**Şək. 18**):



Şək. 18. Xəzinə mədaxil sənədi

Proqram təminatında həmçinin yaradılan xəzinə mədaxili sənədinin çap formasının alınması təmin olunmuşdur (**Şək. 19**):



Şək. 19. Xəzinə mədaxil sənədinin çap forması

3.3.1.2. Xəzinə məxaric sənədi

Müəssiənin xəzinəsindən aparılan məxaric əməliyyatları Xəzinə məxaric sənədi vasitəsilə rəsmiləşdirilir. Aşağıdakı şəkildə ölkədaxili ezamiyyət xərcləri ilə əlaqədar yaradılan xəzinə məxaric sənədi təsvir olunmuşdur (**Şək. 20**):



Şək. 20. Xəzinə məxaric sənədi

Proqram təminatında İxrac əməliyyatı vasitəsilə xəzinə məxaric sənədlərinin Excel tipli fayla ixrac edilməsi və **Cap** əməliyyatı vasitəsilə onların çap formasının alınması təmin edilmişdir (**Şək. 21**).

Məxaric orderi

Tarix	Ay	2017 il
26	İyul	

	Müh. hesab Subhesab	Analitik uçot	Məbləğ	Təyinat şifri
	144.1		850	

Verilir Cəlilzadə Nərmin Əkbər

adı, soyadı, atasının adı

Əsas

Səkkiz yüz əlli manat 0 qəp

Əlavə

Rəhbər Baş mühasib

Aldım Səkkiz yüz əlli manat 0 qəp

26 İyul 2017 il İmza

Sənədin nömrəsi, verilən tarixi

Xəzinadar

Məxaric orderi

Tarix	Ay	2017 il
26	İyul	

	Müh. hesab Subhesab	Analitik uçot	Məbləğ	Təyinat şifri
	144.1		850	

Verilir Cəlilzadə Nərmin Əkbər

adı, soyadı, atasının adı

Əsas

Səkkiz yüz əlli manat 0 qəp

Əlavə

Rəhbər Baş mühasib

Aldım Səkkiz yüz əlli manat 0 qəp

26 İyul 2017 il İmza

Sənədin nömrəsi, verilən tarixi

Xəzinadar

Şək. 21. Xəzinə məxaric sənədinin çap forması

3.3.2. Xəzinə hesabatı

Xəzinə hesabatında müəssisənin seçilmiş tarix intervalında apardığı xəzinə əməliyyatlarına dair cədvəl alınır (**Şək. 22**):

Hesab	Tarix	Valyuta
Kassa	01.01.2017	AZN
	30.08.2017	

Hesabat

Büdcə	Sənəd			Kontraqent		Debit	Kredit	Qalıq	Qeydlər	Maddə	Büdcə Proqramı	Ödəniş tapşırığı	
	Növü	№	Tarix	Hesab	Adı							Nömrəsi	Tarixi
	XMD	4	02.04.2017	301.1-1	301.1-1 İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ	2,150.00		D 2150		225412 Avadanlığın alınması			
	XMD	6	17.05.2017	301.1-1	301.1-1 VİT MMC	600.00		D 2750		225412 Avadanlığın alınması			
	XMD	5	05.06.2017	301.1-1	301.1-1 VİT MMC	850.00		D 3600		225412 Avadanlığın alınması			
	XMX	3	26.07.2017	301.2-2	301.2-2 TEXSERVİS		100.00	D 3500		224100 Elektrik enerjisi haqqının ödənilməsi			
	XMX	2	26.07.2017	144.1	144.1 Cəlilzadə Nərmin Əkbər		850.00	D 2650		222100 Ölkədaxili ezamiyyətlər			
	XMX	5	19.08.2017	301.1-1	301.1-1 Abbasov Farid Musa		750.00	D 1900					
	XMX	4	19.08.2017	301.1-1	301.1-1 Abbasov Farid Musa		750.00	D 1150		225411 İnventarın alınması			
Dövriyyə						3,600.00	2,450.00						
Saldo			01.01.2017										
Saldo			30.08.2017			1,150.00							

Şək. 22. Xəzinə hesabatı

3.3.3. Xəzinə kitabı

Xəzinə kitabında müəssisədə seçilmiş qeydiyyat kitabı üzrə və seçilmiş tarix intervalında aparılan xəzinə əməliyyatları üzrə ciddi hesabat blanklarının nömrələri və debet hesabına uyğun məbləğlər əks olunur (**Şək. 23**).



Şək. 23. Xəzinə kitabı

3.4. Avans əməliyyatları

Avans sənədləri Pul vəsaitləri komponentinə daxil olan alt komponentlərdən biridir. Bu komponentin köməyi ilə avans ödənişlərinə dair məlumatların sistemə daxil edilməsi və uçotu təmin olunur. Yeni yaradılan avans sənədləri eyni adlı Avans sənədləri cədvəlində əks olunur (**Şək. 24**):

Şək. 24. Avans sənədləri cədvəli

Hər bir yeni avans sənədində aşağıdakı rekvizitlərin məlumatları əks olunur: Sistem nömrəsi, Sənədin nömrəsi, Sənədin tarixi, Sənədin növü, Təhtəlhesab, Hesab, Məbləğ,

Valyuta, Büdcə, İqtisadi təsnifat, Funksional təsnifat, Büdcə proqramı, Əlaqəli sənədin tarixi, Əlaqəli sənədin nömrəsi, Qeyd (**Şək. 25**).



Şək. 25. Yeni avans sənədi

Avans ödənişinə dair yaradılmış sənədi çap etmək zərurəti olarsa, proqramda bu funksionallıq təmin olunmuşdur. Aşağıdakı şəkildə yeni yradılmış avans sənədinin çap forması əks olunmuşdur (**Şək. 26**):

Avans 71

Şirkət Müəssisə

Şöbə Nəzarət idarəsi Vəzifə Peşə Mütəxəssis

A.A.S. Aliyev Səid Zəfər

Avans Hesabati № 1507

20 İyun 2017-ci il

Avans təyinati

Qaliq	Məbləğ
Artiq xərc	300
Alinib (kimdən) Məh. order №	
Cəmi alınıb	
Xərclənib	300
Qaliq	0.00
Artiq xərc	

Hesabat yoxlanmişdir
Təsdiq edilməyə 300.00

Mühasib

Bu məbləğdə hesabati təsdiq edirəm: Üç yüz AZN 00 qəpik

İmza

J/order

Debet

Hesabin №	Kart.	Məbləğ
122.9.10		300.00

Kredit

144.1		300.00
Cəmi		300.00

Mühasib

Sənədlərin siyahısı

Tarix	Kimə. Əsas. Sənəd.			Məbləğ	Debet	Kredit
		Məbləğ	Valyuta			
19.06.2017		300,00	AZN	300,00	122.9.10	144.1
	Cəmi			300,00		

Şək. 26. Avans sənədinin çap forması

3.5. Maliyyə sifarişi

Büdcə təşkilatları planlaşdırılan və təsdiq edilən smetaları daxilində hər ay müəssisənin büdcə xərclərinə maliyyələşmə üçün Dövlət Xəzinədarlıq Agentliyinə maliyyə sifarişi sənədini təqdim edirlər. **SERP** sistemində maliyyə sifarişləri üzrə əməliyyatların yerinə yetirilməsi **Maliyyə sifarişi** komponenti vasitəsilə yerinə yetirlir.

Maliyyə sifarişi sənədində seçilən büdcə, funksional təsnifat, iqtisadi təsnifat və büdcə proqramı üzrə maliyyələşmə üçün sifariş olunan məbləğlər ayrıca əks olunur.

Maliyyə sifarişi komponenti vasitəsilə aşağıdakı əməliyyatların yerinə yetirilməsi təmin olunmuşdur:

Yeni – yeni maliyyə sənədini yaratmaq üçün nəzərdə tutulmuşdur. Bu əməliyyat zamanı maliyyə sifarişi iki qayda ilə yaradıla bilər: Smetadan avtomatik qenerasiya etməklə və əllə daxiletmə yolu ilə.

İxrac- bu əməliyyat yaradılan maliyyə sifarişini ixrac etmək üçün nəzərdə tutulur. Bu zaman aşağıdakı ixrac formaları alınır: Məxaric (kitab), Məxaric (albom), Sifariş, Kapital qoyuluşu

Silmək - cədvəldə seçilmiş maliyyə sifarişlərinin silinməsi üçün istifadə olunur.

Maliyyələşmə- bu əməliyyat zamanı cədvəldə seçilmiş maliyyə sifarişinin təsdiq olunması, daha doğrusu, maliyyələşmə sənədinə uyğun bank mədaxil sənədinin avtomatik yaradılması icra olunur.

3.5.1. Yeni maliyyə sifarişi

Təşkilatın planlaşdırılan və təsdiq olunan büdcəsindən maliyyə sifarişinin avtomatik olaraq alınmasını təmin etmək üçün əvvəlcədən büdcənin aylar üzrə bölgüsü aparılmalıdır. Smetadan avtomatik olaraq alınan maliyyə sifarişinin məzmunu aşağıdakı şəkildə göstərilmişdir (**Şək. 27**):



Şək. 27. Maliyyə sifarişinin məzmunu

3.5.2. Maliyyə sifarişinin ixracı

Proqram təminatında maliyyə sifarişinin Məxaric (kitab) və Məxaric (albom) şəklində ixrac edilməsi təmin olunmuşdur. Aşağıda Məxaric (kitab) və Məxaric (albom) çıxış formalarına nümunələr təsvir olunmuşdur (**Şək. 28**), (**Şək. 29**):

FormaM_28072017 4-19-04 PM [Защищенный просмотр]

Kassa limitləri üzrə sifariş № 18

Baş kredit sərəncamçısı: İqtisadiyyat Nazirliyi

Baş Kredit Sərəncamçısının inzibatı kodu: 2090000

Gün: 1 Ay: may İl: 2017

Fond: 1

YXO-nun adı	XHK-nın adı	XHK-nın kodu	Funksional təsnifat	İqtisadi təsnifat	Büdcə programın kodu	Məbləğ (Manat)
1	2	3	4	5	6	7
12 saylı Xəzinədarlıq İdarəsi	Nazirlik	2081598	0113	121100		8 000.00
12 saylı Xəzinədarlıq İdarəsi	Nazirlik	2081598	0113	121200		1 000.00
12 saylı Xəzinədarlıq İdarəsi	Nazirlik	2081598	0113	211100		200 000.00
12 saylı Xəzinədarlıq İdarəsi	Nazirlik	2081598	0113	211200		100 000.00
12 saylı Xəzinədarlıq İdarəsi	Nazirlik	2081598	0113	221100		50 000.00
12 saylı Xəzinədarlıq İdarəsi	Nazirlik	2081598	0113	222100		20 000.00
12 saylı Xəzinədarlıq İdarəsi	Nazirlik	2081598	0113	222200		10 000.00
12 saylı Xəzinədarlıq İdarəsi	Nazirlik	2081598	0113	224100		4 000.00

Sheet2

Şək. 28. Məxaric (kitab)

FormaM_28072017 4-24-58 PM [Защищенный просмотр]

Kassa limitinin açılması üçün sifariş № 18

Baş kredit sərəncamçısı: İqtisadiyyat Nazirliyi

Baş Kredit Sərəncamçısının inzibatı kodu: 2090000

Gün: 1 Ay: may İl: 2017

Fond: 1

YXO-nun adı	XHK adı	XHK-nın kodu	Funksional təsnifat	Büdcə proqramının kodu	İqtisadi təsnifat	Məbləğ(Manat)
1	2	3	4	5	6	7
12 saylı Xəzinədarlıq İdarəsi	Nazirlik	2081598	0113 Mərkəzi icra hakimiyyəti orqanları		121100 İşəgötürənlərin əməyin ödənişi fonduna hesablanan sosial ayırmaları	8 000.00
12 saylı Xəzinədarlıq İdarəsi	Nazirlik	2081598	0113 Mərkəzi icra hakimiyyəti orqanları		121200 Muzdla işləyənlərin əmək haqlarından sosial ayırmalar	1 000.00

Лист1

Şək. 29. Məxaric (albom)

Maliyyə sifarişinin çap formasını almaq üçün Çap əməliyyatını yerinə yetirmək lazımdır. Nəticədə aşağıdakı çıxış forması alınır (**Şək. 30**)



Respublika büdcəsindən kredit açılışı üçün
SİFARİŞ

			Kodlar
		nömrəsi	**18**
Bölüşdürücü Nazirlik	Nazirlik		
	(adı)	kodu	**(XNK №)**
			may
			(ay)
		dövr	**2**
			(rüb)
			2017
			(İl)
Məbləğ	beş yüz altmış min manat 00 qəpik		**560,000.00**
	(məbləğ yazı ilə)		**(rəqəmlə)**

Təfsilat May ayı üçün sifariş

121100-	8 000.00	**121200-**	1 000.00	**211100-**	200 000.00
211200-	100 000.00	**221100-**	50 000.00	**222100-**	20 000.00
222200-	10 000.00	**224100-**	4 000.00	**224200-**	4 500.00
224300-	7 500.00	**225411-**	150 000.00	**225413-**	5 000.00

Şək. 30. Maliyyə sifarişinin çap forması

3.5.3. Maliyyələşmə

Dövlət Xəzinədarlıq Agentliyi tərəfindən sifariş təsdiq olunduqdan sonra proqram modulunda maliyyə sifarişi sənədinə əsasən maliyyələşmə əməliyyatı aparılmalıdır. Bu əməliyyatın yerinə yetirilməsi nəticəsində bu sifarişə uyğun yeni bank sənədi yaranır və yeni bank sənədinə dair mıəlumatlar **Bank sənədləri** komponentinin bank mədaxil sənədləri cədvəlinə avtomatik olaraq ötürülür. Həmçinin yeni yaradılan bank mədaxil sənədində **Əlaqəli sənəd** sütununda maliyyə sifarişinin nömrəsi əks olunur. Əyani nümunə olaraq hazırkı sənədin **3.5.1. Yeni maliyyə sifarişi**bəndində göstərilən maliyyə sifarişi üçün maliyyələşmə əməliyyatından sonra yaranan bank sənədi aşağıdakı şəkildə əks olunmuşdur (**Şək. 31**).



Sənədin nömrəsi: 1500023584 — Alış məzənnəsi: 1
Sənədin tarixi: 02.05.2017 — Satış məzənnəsi: 1
Təşkilat: Müəssisə
Bank hesabı: 103 Azərbaycan Beynəlxalq Bankı ASC S

Kontragent	Debet	Kredit	Müqavilə	Büdcə	İqtisadi təsnifat kodu	Funksional təsnifat	Büdcə proqramı	Əlaqəli sənəd	Ödənişin təyinatı	İstifadəçi
111.10 Digər qısamüddətli debitor borcları	8,000.00	0.00		Dövlət büdcəsi	121100 İşəgötürənlərin əməyin ödənişi fonduna hesablanan sosial ayırmaları	0113 Mərkəzi icra hakimiyyəti orqanları		20	May ayı üçün sifariş	TEST_TEQDIMAT
111.10 Digər qısamüddətli debitor borcları	1,000.00	0.00		Dövlət büdcəsi	121200 Muzdla işləyənlərin əmək haqlarından sosial ayırmalar	0113 Mərkəzi icra hakimiyyəti orqanları		20	May ayı üçün sifariş	TEST_TEQDIMAT
111.10 Digər qısamüddətli debitor borcları	200,000.00	0.00		Dövlət büdcəsi	211100 Ştatda olan işçilərin əmək haqqı	0113 Mərkəzi icra hakimiyyəti orqanları		20	May ayı üçün sifariş	TEST_TEQDIMAT
111.10 Digər qısamüddətli debitor borcları	100,000.00	0.00		Dövlət büdcəsi	211200 Ştatdan kənar işçilərin əmək haqqı	0113 Mərkəzi icra hakimiyyəti orqanları		20	May ayı üçün sifariş	TEST_TEQDIMAT
111.10 Digər qısamüddətli debitor borcları	50,000.00	0.00		Dövlət büdcəsi	221100 DƏFTƏRXANA VƏ TƏSƏRRÜFAT	0113 Mərkəzi icra hakimiyyəti orqanları		20	May ayı üçün sifariş	TEST_TEQDIMAT
		560,000.00		0.00						
Saldo - 02.05.2017		0		0.00						
Saldo - 02.05.2017		560,000.00		0						

Debet hesabı	Kredit hesabı	Məbləğ	Məbləğ (valyutada)	Qeyd

Şək. 31. Əlaqəli bank mədaxil sənədi

3.6. Ödəniş tapşırığı

Ödəniş tapşırığı Pul vəsaitləri komponentinə aid olan alt komponentlərdən biridir. Bu komponentin köməyi ilə Ödəniş tapşırığı sənədi yaradılır.

Ödəniş tapşırığı sənədi pul vəsaitinin müəssisənin bank hesabından mal və xidmət üçün müştərinin hesabına köçürmək məqsədilə banka təqdim olunur. Sistemdə ödəniş tapşırıqlarına dair yaradılan cədvəldə aşağıdakı məlumatlar əks olunur: № (Sənədin nömrəsi), Tarix, Büdcə, Hesabın kodu, Ödəyən bank, Alan müştəri, Alan bank, Məbləğ, ƏDV məbləği, Valyuta, Ödənişin təyinatı və əsas, İqtisadi təsnifat, BMX-nin №-si, Ödəniş tarixi, Qeyd (**Şək. 32**).



Şək. 32. Ödəniş tapşırıqları cədvəli

Ödəniş tapşırığı komponentində aşağıdakı əməliyyatların yerinə yetirilməsi təmin edilir:

Yeni - yeni ödəniş tapşırığını yaradılması;

Yeni xarici ödəniş– qeyri-rezidentlərə ödəniş edilən zaman Xaricə köçürməyə dair ərizə sənədinin yaradılması;

Ödənişi həyata keçir- ödəniş tapşırığının təsdiq olunması və bu ödəniş tapşırığına uyğun olan bank sənədinin avtomatik olaraq yaradılması. Bu əməliyyatdan sonra ödəniş tapşırığına baxış imkanından başqa bütün digər əməliyyatlar deaktiv olur.

Filter- ödəniş tapşırıqları cədvəlinin rekvizitlərinə görə filtrləmə yolu ilə axtarış;

İstifadəçi filteri - konkret istifadəçinin yaratdığı ödəniş tapşırıqlarına baxış;

Şablonu dəyiş – ödəniş tapşırığına uyğun olan xəzinədarlıq sənədlərinin (müqavilə, uzunmüddətli və qısamüddətli ödəliklər, qabaqcadan ödənişlər üzrə öhdəlik və sifariş sənədləri, mal alışı sənədi-MAS, Kassa xərclərinin sifarişi) şablonlarının dəyişdirilməsi.

- ödəniş tapşırığının nüsxəsinin çıxarılması;

- ödəniş tapşırığının silinməsi;

- ödəniş tapşırığına düzəliş edilməsi;

- ödəniş tapşırığının çap edilməsi;

- ödəniş tapşırığı üzərində aparılan əməliyyatın geri çağırılması.

Modulda Ödəniş tapşırığını WORD faylına ixrac etmək imkanı təmin olunmuşdur.

3.6.1. Yeni ödəniş tapşırığı

Yeni yaradılan ödəniş tapşırığına dair məlumatlar əsas üç hissəyə bölünür:

- Ödəniş tapşırığının əsas məlumatları (Sənədin nömrəsi, Sənədin tarixi, Ödəyən müştəri, Ödəyən bank, Alan müştəri, Alan bank, Müxbir bank, Müqavilə, Büdcə)
- Ödənişə dair əsas cədvəl (Bu cədvəldə aşağıdakı məlumatlar əks olunur: İqtisadi təsnifat, Məbləğ, Təsdiqedici sənədin nömrəsi, Adı, Tarixi, Ödənişin təyinatı
- Ödənişə dair əlavə informasiya və xəzinədarlığa dair göstəricilər (Fond, Dövlət Gəlir təsnifatı, Funksional təsnifat, Büdcə proqramının kodu)

Yeni ödəniş tapşırığına nümunə aşağıdakı şəkildə təsvir olunmuşdur (**Şək. 33**):



Şək. 33. Yeni ödəniş tapşırığı

3.6.2. Ödəniş tapşırığının çapı

İxrac əməliyyatı vasitəsilə ödəniş tapşırığını WORD faylına ixrac etmək olar (**Şək. 34**):

İxrac olunan ödəniş tapşırığının cap formasında **D2** bölməsinə **Fond** (1 Fond), **Funksional təsnifat** (0113), **İqtisadi təsnifat** (225411), **Məbləğ** (300.000), **XHK kodu** (2081598), **XHK Unikal kodu** (7118) ötürülür.

ÖDƏNİŞ TAPŞIRIĞI № 3
TARİX: 05 İyul 2017

A1. Ödəyən bank: Adı: Dövlət Xəzinədarlığı Agentliyi Kodu: 210005 VÖEN: 1401555071 M/H: AZ41NABZ01360100000000003944 S.W.İ.F.T. CTREAZ22	B1. Alan bank: Adı: -Dövlət Xəzinədarlığı Agentliyi(ƏDV) Kodu: 210027 VÖEN: 1401555071 M/H: AZ07NABZ01360100000000004944 S.W.İ.F.T. CTREAZ24
A2. Ödəyən müştəri Adı: Nazirlik H/H: AZ42CTRE00000000000004848201 VÖEN: 987654321	B2. Alan müştəri: Adı: N.A.E.C MMC H/H: AZ48CTRE00000000000000014001 VÖEN: 1402057301

C1. Valyuta növü : AZN

C2. Köçürülən məbləğ rəqəmlə: 300.00
Məbləğ yazı ilə: Üç yüz AZN 00 qəpik

D1. Ödənişin təyinatı və əsas:
Avadanlığın alınması

D2. Ödənişlə əlaqədar əlavə məlumat:

1 FOND - 0113
225412- 300.00
2081598 - 7118

D3. Büdcə təsnifatının kodu :

D4. Büdcə səviyyəsinin kodu : 1

Şək. 34. Ödəniş tapşırığının çap forması

Proqram təminatında növbəti mərhələdə yaradılmış ödəniş tapşırığını təsdiqləməsi əməliyyatı aparılır. Bunun üçün **Ödənişi həyata keçir** məntiqi əməliyyatı yerinə yetirilir Təsdiqlənmə əməliyyatından sonra yeni yaradılan ödəniş tapşırığına uyğun bank sənədi yaranır və ödəniş tapşırığı baxış əməliyyatından başqa digər əməliyyatlar üçün deaktiv olur.

Ödəniş tapşırıqlarının məlumatlarından istifadə etməklə müəssisənin Xəzinədarlığın İdarəedilməsi İnformasiya Sistemi (XİİS) ilə mübadiləsi üçün tələb olunan aşağıdakı sənədləri almaq olar:

- Qabaqcadan ödənişlər üzrə sifariş sənədi
- Qabaqcadan ödənişlər üzrə Qısamüddətli öhdəlik sənədi
- Qısamüddətli öhdəlik sənədi
- Mal-alışı sənədi (MAS)
- Kassa xərcləri

Bəzən təşkilatın təqdim etdiyi XİİS-lə mübadilə sənədlərinin şablonunu dəyişmək zərurəti yaranır. Bu əməliyyatı yerinə yetirmək üçün şablonun dəyişdirilməsi funksionallığı işlənilmişdir.

3.6.3. Hesabatlar

Pul vəsaitləri komponentində aşağıdakı hesabatların alınması təmin olunmuşdur:

- ✓ Bank üzrə hesabat
- ✓ Maddələr üzrə bank dövriyyəsi

Bank üzrə hesabat və Maddələr üzrə bank dövriyyəsi çıxış formalarına əyani nümunələr **Şək. 35**-də və **Şək. 36** -da göstərilmişdir.

Hesab															

Hesabat

Tarix	Valyuta
01.01.2018	AZN
01.07.2018	

Büdcə	Sənəd			Kontraqent		Debit	Kredit	Qalıq	Qeydlər	Maddə	Büdcə Proqramı	Ödəniş tapşırığı	
	Növü	№	Tarix	Hesab	Adı							Nömrəsi	Tarixi
0113 Aparatın saxlanılması	BMD	1500035251	18.01.2018	111.10	Digər qısamüddətli debitor borcları	4,707.00		D 4707		221100 DƏFTƏRXANA VƏ TƏSƏRRÜFAT XƏRCLƏRİ			
0113 Aparatın saxlanılması	BMD	1500034896	23.02.2018	111.10	Digər qısamüddətli debitor borcları	6,698.00		D 11405		221100 DƏFTƏRXANA VƏ TƏSƏRRÜFAT XƏRCLƏRİ			
0113 Aparatın saxlanılması	BMD	1500034900	12.03.2018	111.10	Digər qısamüddətli debitor borcları	8,250.00		D 19655		221100 DƏFTƏRXANA VƏ TƏSƏRRÜFAT XƏRCLƏRİ			
0113 Aparatın saxlanılması	BMD	1500034906	18.04.2018	111.10	Digər qısamüddətli debitor borcları	8,689.00		D 28344		221100 DƏFTƏRXANA VƏ TƏSƏRRÜFAT XƏRCLƏRİ			
0113 Aparatın saxlanılması	BMX	1500029885	07.05.2018	301.2-2	301.2-2 VİP AVİASİYA XİDMƏTLƏRİ ŞİRKƏTİ MMC		73.22	D 28270.78	ƏDV	221100 DƏFTƏRXANA VƏ TƏSƏRRÜFAT XƏRCLƏRİ		1322	01.05.2018
0113 Aparatın saxlanılması	BMX	1500029885	07.05.2018	301.2-2	301.2-2 VİP AVİASİYA XİDMƏTLƏRİ ŞİRKƏTİ MMC		406.78	D 27864		221100 DƏFTƏRXANA VƏ TƏSƏRRÜFAT XƏRCLƏRİ		1322	01.05.2018
0113 Aparatın saxlanılması	BMD	1500035020	18.05.2018	111.10	Digər qısamüddətli debitor borcları	8,087.00		D 35951		221100 DƏFTƏRXANA VƏ TƏSƏRRÜFAT XƏRCLƏRİ			
0113 Aparatın saxlanılması	BMD	1500034911	11.06.2018	111.10	Digər qısamüddətli debitor borcları	18,164.00		D 54115		221100 DƏFTƏRXANA VƏ TƏSƏRRÜFAT XƏRCLƏRİ			
0113 Aparatın saxlanılması	BMX	1500031172	14.06.2018	301.1-1	301.1-1 KUR-H MMC		36,430.00	D 17685		221100 DƏFTƏRXANA VƏ TƏSƏRRÜFAT XƏRCLƏRİ		1491	12.06.2018
Dövriyyə						54,595.00	36,910.00						
Saldo			01.01.2018										
Saldo			01.07.2018			17,685.00							

Şək. 35. Bank üzrə hesabat

İqtisadi təsnifat maddələri	Debet	Kredit	Qalıq
142340 Sair daxilolmalar	17,200.00	0.00	17,200.00
211100 Ştatda olan işçilərin əmək haqqı	6,450,638.00	5,353,262.96	1,097,375.04
211300 Əməyin ödənişi ilə bağlı sair pul ödənişləri	1,718,764.00	1,611,719.78	107,044.22
212100 Dövlet Sosial Müdafiə Fonduna ayırmalar	1,939,510.00	1,533,002.08	406,507.92
212200 İcbari dövlət sığortası	19,352.00	15,705.60	3,646.40
221100 DƏFTƏRXANA VƏ TƏSƏRRÜFAT XƏRCLƏRİ	182,888.00	135,347.70	47,540.30
221200 Mətbəə xərcləri	30,459,921.52	24,619,110.12	5,840,811.40
221310 İdarənin xərcləri	40,370.00	28,033.74	12,336.26
221320 Cari təmir	34,120.00	0.00	34,120.00
221330 Mühafizə xərcləri	234,910.00	216,787.88	18,122.12
222100 Ölkədaxili ezamiyyətlər	47,380.00	37,094.08	10,285.92
222200 Xarici ezamiyyətlər	321,120.00	293,406.36	27,713.64
223100 Yanacaq və sürtkü materiallarının alınması	128,046.00	95,375.60	32,670.40
223200 Digər nəqliyyat xidmətləri	37,350.00	31,592.00	5,758.00
224100 Elektrik enerjisi haqqının ödənilməsi	33,146.00	18,621.20	14,524.80
224300 Su haqqının ödənilməsi	7,706.00	2,200.00	5,506.00
224400 İSTİLİK ENERJİSİ (YANACAQ) HAQQININ ÖDƏNİLMƏSİ	3,972.00	1,980.00	1,992.00
224500 Kanalizasiya xidmətlərin haqqının ödənilməsi	7,706.00	2,200.00	5,506.00
224600 Digər kommunal xidmətləri haqqının ödənilməsi	8,392.00	5,488.00	2,904.00
224700 Kommunal və kommunikasiya xidmətləri ilə bağlı digər xərclər	2,408.00	178.00	2,230.00
224810 Ölkədaxili telefon danışıq haqlarının ödənilməsi	81,310.00	77,167.12	4,142.88
224820 Beynəlxalq telefon danışıq haqlarının ödənilməsi	7,224.00	2,175.92	5,048.08
224910 Poçt xidmətlərinin ödənilməsi	41,150.00	38,724.56	2,425.44
224920 "İnternet" xidməti haqqının ödənilməsi	77,858.00	68,967.70	8,890.30
225200 Yumşaq inventar,yataq ləvazimatları və xüsusi geyimlərin alınması	1,400.00	1,400.00	0.00
225411 İnventarın alınması	60,000.00	56,050.00	3,950.00
225412 Avadanlığın alınması	103,174.00	70,926.00	32,248.00
225413 Digər alışlar və xidmətlər	92,124.00	80,955.12	11,168.88
226200 Abadlaşdırma xidmətlərin haqqının ödənilməsi	932,632.62	932,632.62	0.00
251200 MALİYYƏ TƏŞKİLATLARI ÜZRƏ ÖDƏNİŞLƏR	560,000.00	234,003.04	325,996.96
264200 DİGƏR ÖDƏNİŞLƏR	1,787,253.60	857,273.60	929,980.00
272190 İŞSİZLƏRİN HAZIRLIĞI VƏ İXTİSASININ ARTIRILMASI İLƏ BAĞLI TRANSFERTLƏR	44,070.00	33,907.48	10,162.52
274300 İş qabiliyyətini müvəqqəti itirməyə görə verilən müavinətlər	45,838.00	36,733.60	9,104.40
274830 DİGƏR MÜAVİNƏT VƏ TRANSFERTLƏR	37,136.00	30,384.00	6,752.00
281400 İCARƏ VƏ MUZDLU XİDMƏTLƏR	541,996.00	470,261.14	71,734.86
282100 Sair xərclər	21,250,636.18	18,373,806.76	2,876,829.42
282300 Bank xərcləri	34,032.00	24,902.84	9,129.16
311132 DİGƏR TİKİLİLƏRİN İNŞASI	215,100,458.98	214,580,007.32	520,451.66
311220 Digər maşın və avadanlıqlar	56,198.00	0.00	56,198.00
314400 İstehsalatda istifadə olunmayan qeyri-maddi aktivlər	98,400.00	45,944.02	52,455.98
Cəmi	282,647,790.90	270,017,327.94	12,630,462.96

Şək. 36. Maddələr üzə bank dövriyyəsi

4. MAL-MATERİAL UÇOTU KOMPONENTI

*Sənədin bu bölməsində **Sinam Müəssisə Resurslarının İdarə Edilməsi (SERP)** sisteminin proqram kompleksinə aid olan olan **Mal- material uçotu** komponentinin təyinatı, onun funksional imkanlarının təsviri verilmişdir.*

Bölmə müəssisə və təşkilatlarda maddi dəyərlərin (mal-materialın) uçotunu və hərəkətini əks etdirən sənədləşmə işlərini yerinə yetirən mühasibatlıq işçiləri üçün nəzərdə tutulmuşdur.

4.1. Komponentin təyinatı

Mal-material uçotu komponenti müəssisə və təşkilatlarda mal və materialların əldə edilməsi və onların realizə olunması və satışı ilə bağlı uçot aparılır. Bu komponentin köməyi ilə müəssisənin mal-material ehtiyatlarının qeydiyyatı müxtəlif valyutalar üzrə aparılır. Bu komponentin tərkibinə aşağıdakı 2 alt komponent daxil edilmişdir:

- **Mədaxil qaiməsi**
- **Məxaric qaiməsi**

4.2. Mədaxil qaimələri

Mədaxil qaiməsi sənədi mal və materialların müəssisə balansına mədaxilini əks etdirən sənəddir. Proqram təminatında mal və materialların mədaxil edilməsi zamanı mədaxil qaiməsi sənədinin elektron forması yaradılır. Yaradılnan mədaxil qaimələrinə dair məlumatlar mədaxil qaimələri cədvəlində saxlanılır (**Şək. 37**):



Şək. 37. Mədaxil qaimələri cədvəli

Mədaxil qaimələri cədvəlinin sütunlarında mal-materiallara dair aşağıdakı məlumatlar əks elunur: Sənədin №, Sistem № , Tarix, Hesab №, Tədarükçü, Məbləğ, ƏDV, Ödənişin növü, Şöbə, İstifadəçi, Qeyd, Alış məqsədi, Əməliyyat növü, Sənəd növü

Cədvəlin axırıncı sətrində cədvəldəki mədaxil qaimələrinin yekun sayı, bütün qaimələr üzrə **Məbləğ** və **ƏDV** məlumatlarının yekun cəmi göstərilir.

Mədaxil qaimələri komponentində aşağıdakı əməliyyatlar yerinə yetirilir:

- Yeni mədaxil qaiməsinin yaradılması;
- Mədaxil olunan mal-materialın istismara verilməsi;
- Mədaxil qaimələrinin rekvizitləri üzrə filterləmə əməliyyatı;
- Mədaxil qaimələri cədvəlinin sazlanması;
- Mədaxil qaiməsinin silinməsi;
- Silinmiş mədaxil qaimələrinin bərpası
- Mədaxil qaiməsinə edilmiş düzəliş əməliyyatlarının tarixinə baxış;
- Mədaxil qaiməsinin nüsxəsinin yaradılması.

Mədaxil qaiməsi komponentində Kontragentlər, Valyutalar, Valyuta məzənnəsi, Cavabdehlər, Mal-qiymətli əşyalar, Əsas vəsaitlər və s. soraqçalardan istifadə olunur.

4.2.1. Yeni mədaxil qaiməsi

Hər bir yeni yaradılan mədaxil qaiməsində əsas məlumatlar və 2 cədvəldə- **Mallar** və **Xərclər** cədvəllərində yerləşən məlumatlar əks olunur.

Mədaxil qaiməsinə dair əsas məlumatlara aşağıdakılar aiddir: Sistem nömrəsi, Sənədin nömrəsi, Sənədin tarixi, Təsdiqedici sənədin növü, Əməliyyat növü, Valyuta, Məzənnə, ƏDV, ƏDV daxil, Əlavə, Ümumi xərc, Yol vergisi, Təhvil aldı, Büdcə, Ödənişin növü, Alış məqsədi, Tədarükçü, Müqavilə, Şöbə, Qeyd.

Mallar cədvəlində alınan mallara dair məlumatlar, **Xərclər** cədvəlində isə mal-materialın alınması zamanı istifadə olunan və malın maya dəyərini artıran xərclərə dair məlumatlar əks olunur (**Şək. 38**), (**Şək. 39**). Proqram təminatında işlənilmiş funksionallıq vasitəsilə xərclər

mütənasib olaraq malların maya dəyərinə əlavə olunur, malların yeni qiymətləri və lazım gələrsə, valyutada qiyməti hesablanır və cədvəldə əks olunur.

Mədaxil qaiməsi sənədində həmçinin mal-materialın alışı və xərclərə dair müxabirləşmələr də ayrıca əks olunur.

Hesab №	Malın adı	Qutu	Qutuda miq.	Qut. qiy.	Miqdar	Vahid	Xalis qiymət	Qiymət	Ümumi xərc	Qiymət(USD)	Yol vergisi	ƏDV	Məbləğ	Yekun	Avans Məbləğ	Seriya nömrəsi	Saxlama müddəti	İqtisadi təsnifat kodu	Funksional təsnifat	Büdcə proqramı
231.3.6.6-1	NIVA	0.00	0.00	0.00	3	ədəd	10000	11800	0.00000000	37453.83510	0	5400	35400.000000000	35400.000000000				225411 İnventarın alınması	0113 Mərkəzi icra hakimiyyəti orqanları	
231.3.6.6-1	QAZ-33	0.00	0.00	0.00	4	ədəd	8000	9440	0.00000000	29962.46860	0	5760	37760.000000000	37760.000000000				225411 İnventarın alınması	0113 Mərkəzi icra hakimiyyəti orqanları	

Yazıların sayı	Qaimə üzrə məbləğ	ƏDV	Cəmi (maya dəyərinə görə)	Yekun	Yekun(USD)
2	62000.00000 AZN	11160.00000	73160.00000	73160.00000	2322097.37827

Əlavə etmək | S/N əlavə et | Bar-kod

Debet	Kredit	Məbləğ	Məbləğ valyutada	Qeyd
122.6 Aktivlərin dəyərin artıran xərclər	301.2 Xidmət göstərənlər	120.00000	120.00000	
231.3.6.6 Minik avtomobilləri	122.6 Aktivlərin dəyərin artıran xərclər	120.00000	120.00000	
231.3.6.6 Minik avtomobilləri	301.1 Malsatanlar	73160.00000	73160.00000	

Şək. 38. Mallar cədvəli

Mallar | Xərclər

Yeni

Adı	Kontragent	Məbləğ	ƏDV	ƏDV daxil	Yekun	Attach file
Daşınma	ATLANT MMC	120.00	18	☑	120	
Aktivin dəyərini artıran xərclər	ATLANT MMC	250.00	18	☐	295	

Şək. 39. Xərclər cədvəli

Məlumatların bazada saxlanması əməliyyatından sonra hər bir mala uyğun Məbləğ, ƏDV və Yekun məbləğ sütunları da proqram tərəfindən avtomatik olaraq hesablanır.

Mallara dair cədvəlin məlumatlarına əsasən sonda qaimə üçün yekun nəticələr: Qaimə üzrə məbləğ, Cəmi ƏDV, Cəmi (maya dəyərinə görə), Yekun və Yekun (USD) avtomatik olaraq hesablanır.

Mədaxil qaiməsi komponentində həmçinin mədaxil qaiməsinə daxil olan hər bir mal üzrə **Məhsulun hərəkəti** hesabatının, İxrac əməliyyatı vasitəsilə **QAİMƏ-FAKTURA** (**Forma № 2Q**) sənədinin çap formasının alınması təmin edilmişdir (**Şək. 40**), (**Şək. 41**).

hesabı
NIVA üzrə hesabatı

Büdcə Yeni budce
Bölmə Anbar

Başlanma Tarixi 01.01.2018
Son Tarix 20.11.2018

Sənəd		Məxaric	Mədaxil	Miqdar (Mədaxil)	Miqdar (Məxaric)	1 ədədin maya dəyəri (AZN)	Vahidin Qiyməti (Manatla)	Təchizatçı Qiyməti	Mədaxil tarixi
Tarix	№								
22.06.2018	Mədaxil qaiməsi/2000284542/999	301.1-1 Kainat MMC	Anbar	3.00		11,800.0000	11,800.0000	10,000.0000	22.06.2018
22.06.2018	ƏV Partiya ilə uçotu/987454/999	Anbar	İnsan resursları		3.00	11,800.0000	11,800.0000	11,800.0000	22.06.2018
				3.00	3.00				

01.01.2018-20.11.2018

Sənədin növü	Kimdən	Kimə	Miqdar	Məbləğ
Mədaxil qaiməsi	Kainat MMC	Anbar	3.00	35,400.00
ƏV Partiya ilə uçotu	Anbar	İnsan resursları	3.00	35,400.00

Şək. 40. Məhsulun hərəkəti hesabatı

Forma № 2Q

Test tabe təşkilat
VÖEN: 1234567890
QAİMƏ-FAKTURA

22.06.2018 Seriya № 999

Kimdən Kainat MMC(1900111461)
(vəzifəsi, soyadı, adı, atasının adı, mədaxil və məxaric sənədləri üzrə başqa lazımi göstəriciləri)

Kimə Məhərrəmova Nuriyyə Nizami Anbar
(vəzifəsi, soyadı, adı, atasının adı, mədaxil və məxaric sənədləri üzrə başqa lazımi göstəriciləri)

Sıra Nəsi	Qiymətlilərin adı və ölçüləri	Ölçü vahidi	Miqdarı	Vahidinin qiyməti (manatla)	Məbləği (manatla)	Sair qeydlər
1	NIVA	ədəd	3	11 800	35 400	
2	QAZ-33	ədəd	4	9 440	37 760	
	Cəmi:			73160.00000		
	Aksiz %					
	ƏDV %			11160.00000		
	Yekunu:			73160.00000		

yetmiş üç min bir yüz altmış manat 00 qəpik
(yekun məbləğ yazı ilə)

Məbləğində qiymətliləri:

Təhvil verdim
(soyadı, a., a.a.) (imza və tarix)

Təhvil aldım
(soyadı, a., a.a.) (imza və tarix)

Лист1

Şək. 41. QAİMƏ-FAKTURA

4.2.2. İdxal şablonları vasitəsilə mədaxil

SERP sistemində anbara və ya hər hansı bölməyə mal-materialın mədaxil olunması üçün digər bir funksionallıq da işlənilmişdir. Belə ki, anbara və ya hər hansı bölməyə mal-materialı yükləmək üçün əvvəlcədən hazırlanmış şablona uyğun olaraq yaradılmış Excel fayllarından istifadə etmək imkanı da vardır.

SERP sistemində mal-materialın mədaxili üçün aşağıdakı şablonlar işlənilmişdir:

- ✓ Anbarda olan mal-materialın idxalı – Anbarda mal qalığı
- ✓ İstismarda olan material ehtiyatlarının idxalı- İstismarda olan material ehtiyatları

Aşağıda mal-materialların mədaxili üçün hazırlanmış şablon fayllarına nümunələr göstərilmişdir (**Şək. 42**), (**Şək. 43**):

<u>Anbarda mal qalığı:</u>

1	Anbarın ID-si	Malın hesabı	Mal qrupu	Malın adı	Vahid	Miqdar	Maya dəyəri	Büdcə İD	Büdcə proqramının	Funksional təsnifatın	İqtisadi təsnifatın kodu
2	50056224	231.5	Torpaq, tikili və avadanlıq – Anbar	Komputer	ədəd	1	2000	3231		0451	221100
3	50056224	121.2	Dəftərxana ləvazimatı	Binder Clips 15mm	ədəd	5	0,04	3231		0451	221100
4											

Лист1 Лист2 Лист3

Şək. 42. Anbarda mal qalığı şablonu

<u>İstismarda olan material ehtiyatları:</u>

1	Sənədin tarixi	Ilkin qalıq hesabı	Anbarın ID-si	Malın hesabı	Mal qrupu	Malın adı	Vahid	Miqdar	Maya dəyəri	Maddi məhsul şəxs Tabel N-si	Büdcə İD	Büdcə proqramının kodu	Funksional təsnifatın kodu	İqtisadi təsnifatın kodu
2	13.08.2017	0	50056224	121.2	Dəftərxana ləvazimatı	Arxiv qovluğu A4 4sm	ədəd	1	1	112233	3231		0113	221100
3	13.08.2017	0	50056224	121.2	Dəftərxana ləvazimatı	Arxiv qovluğu A4 8sm	ədəd	1	1	112233	3231		0113	221100
4	13.08.2017	0	50056224	121.2	Dəftərxana ləvazimatı	Binder Clips 15mm	ədəd	1	1	112233	3231		0113	221100
5	13.08.2017	0	50056224	121.2	Dəftərxana ləvazimatı	Binder Clips 19mm	ədəd	1	1	112233	3231		0113	221100
6														

Лист1

Şək. 43. İstismarda olan material ehtiyatları şablonu

Mal-materialın idxalı şablonları vasitəsiə mədaxil əməliyyatı SERP sisteminin **Baş Kitab** komponentinə daxil olan **Məlumatların idxalı** alt komponenti vasitəsilə yerinə yetirilir.

4.3. Məxaric qaimələri

Mal-material uçotu zamanı istifadə olunan əsas sənədlərdən biri də **Məxaric qaiməsi**dir. Məxaric qaiməsi mal və materialların müəssisə balansından məxaricinin əks olunması üçün nəzərdə tutulmuşdur.

Məxaric qaimələri komponentində mal-materialların müəssisədən məxaric olunmasını rəsmiləşdirmək üçün məxaric qaiməsi yaradılır və məxaric qaimələrinə dair cədvəldə saxlanılır. Cədvəldə məxaric qaimələrinə dair aşağıdakı məlumatlar əks olunur (**Şək. 44**):

Şək. 44. Məxaric qaimələri pəncərəsi

- № (Sənədin nömrəsi nəzərdə tutulur)
- Təşkilat
- Tarix
- Hesab №
- Müştəri
- Məbləğ
- Tədarükçü
- ƏDV
- Ödənişin növü
- İstifadəçi
- Qeyd

Cədvəlin axırıncı sətrində cədvəldəki məxaric qaimələrinin cəmi sayı, bütün qaimələr üzrə yekun **Məbləğ** və **ƏDV** üzrə yekun cəmi göstərilir.

Məxaric qaimələri mədaxil qaimələrinə analoji olduğundan məxaric qaimələri üzərində aparılan əməliyyatları geniş şərh etməyə ehtiyac yoxdur.

4.3.1. Yeni məxaric qaiməsi

Yeni yaradılan məxaric qaiməsində əsas məlumatlar və məxaric olunan mal-materiallara dair cədvəl əks olunur (**Şək. 45**).

Mədaxil qaiməsinə dair əsas məlumatlara aşağıdakılar aid edilir: Sistem nömrəsi, Sənədin nömrəsi, Blankın nömrəsi, Sənədin tarixi, Xidmət sənədinin nömrəsi, Valyuta, Məzənnə,

ƏDV, ƏDV daxil, Əlavə, Ödənişin növü, Təhvil verdi, Menecer, Ekspeditor, Büdcə, Tədarükçü, Müştəri, Müqavilə, Qeyd.

Məxaric qaiməsi sənədində məxaric olunan mallara dair cədvəldə aşağıdakı məlumatlar əks olunur: Hesab № , Malın kodu, Malın adı, Maya dəyəri, Miqdar, Vahidi, Satış qiyməti, ƏDV-li (-siz) məbləğ, ƏDV, Məbləğ, Yekun məbləğ, Saxlama müddəti, İnventar nömrəsi, Seriya nömrəsi, Dəyəri, İqtisadi təsnifat kodu.



Şək. 45. Yeni məxaric qaiməsi

Məxaric qaiməsi komponentində məxaric qaiməsinə daxil olan hər bir mal üzrə **Məhsulun hərəkəti** hesabatının alınması təmin olunmuşdur (**Şək. 46**):



Şək. 46. Məxaric olunan məhsulun hərəkəti

Həmçinin Cap əməliyyatı vasitəsilə məxaric qaiməsinin çap formasını almaq olar (**Şək. 47**):



01 Avgust 17

İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ(
1402057301)

1	Defterxana jurnalı 100 vereq	eded	20	2.00	40.00
2	Fayl	eded	10	2.00	20.00
3	Lampa neon	eded	10	4.00	40.00
4	Lampa spot	eded	30	3.00	90.00

190.00

18

34.20

224.20

Iki yüz iyirmi dörd

20

Şək. 47. Məxaric qaiməsinin çap forması

İxrac əməliyyatı vasitəsilə məxaric qaiməsini ixrac etmək, yaddaşda saxlamaq və çapa vermək mümkündür (**Şək. 48**).



Çap etmək Saxlamaq Səhifə 1 - 1 75% Bir səhifə

Nazirlik
VÖEN:987654321
QAIMƏ FAKTURA №-16
01 Avgust 2017 il

Kimdən Anbar
Kimə İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ(1402057301)

Sira №	Mal və Materialların adı	Ölçü vahidi	Miqdarı	Qiymət	Məbləğ	Qeyd
1	Fayl	ədəd	10	2.00	20.00	
2	Dəftərxana jurnalı 100 vərəq	ədəd	20	2.00	40.00	
3	Lampa spot	ədəd	30	3.00	90.00	
4	Lampa neon	ədəd	10	4.00	40.00	
	Cəmi				190.00	

bir yüz doxsan manat 0 qəp
(yekun məbləğ,yazı ilə)

Maliyyə müdiri _____ (İmza və tarix)

Baş mühasib _____ (İmza və tarix)

Anbar müdiri _____ (İmza və tarix)

Təhvil verdim _____ (İmza və tarix)

Təhvil aldım _____ (İmza və tarix)

Şək. 48. Məxaric qaiməsinin ixracı

4.4. Mal-material uçotuna dair hesabatlar

Hesabatlar alt komponenti **Mal-material uçotu** komponentinin əsas tərkib hissələrindən biri olmaqla mal və material üzərində aparılan əməliyyatlari: mədaxili, daxili yerdəyişmə, silinmə, material qalıqları, anbar qalığı, cavabdehlər barədə hesabatların alınmasını təmin edir. Bu hesabatlar **SERP** sisteminin digər komponentləri vasitəsilə mal-materiallar üzərində aparılan əməliyyatlara dair sənədlərin məlumatları əsasında yaradılır.

Hesabatlar modulunda aşağıdakı hesabatların alınması təmin olunur:

- Anbar qalığı
- Cavabdehlər
- Mədaxil hesabatı
- Malların dövriyyəsi
- Daxili yerdəyişmə
- Silinmə hesabatı
- Material qalıqları

4.4.1. Anbar qalığı hesabatı

Anbar qalığı hesabatında seçilmiş tarix intervalında müəssisədə və ya onun seçilmiş struktur bölməsində seçilmiş hesab qrupuna aid olan malların siyahısı əks olunur (**Şək. 49**):

Müəssisə ÜZRƏ 121.2 hesabında
QALIĞI

Qalıq tarixi: 03.08.2017 | Valyuta: AZN

Hesabın №	Malın kodu	Malın Adı	Büdcə	İqtisadi təsnifat	Ölçü vahidi	Miqdar	1 ədədin maya dəyəri	Məbləğ
121.2	218588	Blaknot	Dövlət büdcəsi	221100	ədəd	2.00	8.26000	16.52000
121.2	218586	Blaknot	Dövlət büdcəsi	221100	ədəd	2.00	9.90000	19.80000
121.2	218592	Net	Dövlət büdcəsi	221100	ədəd	60.00	0.30000	18.00000
121.2	218595	Stepler	Dövlət büdcəsi	221100	ədəd	41.00	0.50000	20.50000
121.2	218595	Stepler	Dövlət büdcəsi	221100	ədəd	20.00	5.00000	100.00000
121.2	218597	Qayçı	Dövlət büdcəsi	221100	ədəd	9.00	0.75000	6.75000
121.2	218600	Fayl	Dövlət büdcəsi	221100	ədəd	6.00	0.35000	2.10000
121.2	218611	Qovluq (dəmirli)	Dövlət büdcəsi	221100	ədəd	4.00	0.70000	2.80000
121.2	218612	Dəftərxana jurnalı 100 vərəq	Dövlət büdcəsi	221100	ədəd	80.00	1.00000	80.00000
121.2	218613	Dəftərxana kitabı 80 vərəq	Dövlət büdcəsi	221100	ədəd	200.00	2.00000	400.00000
121.2	218614	Skoç	Dövlət büdcəsi	221100	ədəd	5.00	0.22000	1.10000
121.2	218615	Ağardıcı	Dövlət büdcəsi	221100	ədəd	32.00	0.60000	19.20000
121.2	218615	Ağardıcı	Dövlət büdcəsi	221100	ədəd	80.00	3.00000	240.00000
121.2	218616	kley	Dövlət büdcəsi	221100	ədəd	8.00	0.20000	1.60000
121.2	218617	Qələm	Dövlət büdcəsi	221100	ədəd	60.00	3.00000	180.00000
121.2	218741	təmizlik seti	Dövlət büdcəsi	221100	ədəd	36.00	12.00000	432.00000
121.2	218742	Saplı yer süpürgə	Dövlət büdcəsi	221100	ədəd	7.00	4.50000	31.50000
121.2	218743	Şpot lampa	Dövlət büdcəsi	221100	ədəd	483.00	2.80000	1352.40000
121.2	218744	Razetka	Dövlət büdcəsi	221100	ədəd	78.00	2.50000	195.00000
121.2	218745	Elektrik acarı	Dövlət büdcəsi	221100	ədəd	50.00	2.50000	125.00000
121.2	218746	Camaşıryuyan toz	Dövlət büdcəsi	221100	ədəd	60.00	3.60000	216.00000
121.2	218747	Əvəzləşmə kartı	Dövlət büdcəsi	221100	ədəd	100.00	0.80000	80.00000
121.2	218750	Ambulator xəstənin tibbi kartası	Dövlət büdcəsi	221100	ədəd	400.00	0.48000	192.00000
121.2	218752	Tualet şotka 4-N-li	Dövlət büdcəsi	221100	ədəd	2.00	4.50000	9.00000

Mərkəzi Aparat ÜZRƏ 121.2 hesabında
QALIĞI

Qalıq tarixi: 03.08.2017 | Valyuta: AZN

Hesabın №	Malın kodu	Malın Adı	Büdcə	İqtisadi təsnifat	Ölçü vahidi	Miqdar	1 ədədin maya dəyəri	Məbləğ
121.2	218588	Blaknot	Dövlət büdcəsi	221100	ədəd	2.00	8.26000	16.52000
121.2	218586	Blaknot	Dövlət büdcəsi	221100	ədəd	2.00	9.90000	19.80000
121.2	218592	Net	Dövlət büdcəsi	221100	ədəd	60.00	0.30000	18.00000
121.2	218595	Stepler	Dövlət büdcəsi	221100	ədəd	41.00	0.50000	20.50000
121.2	218595	Stepler	Dövlət büdcəsi	221100	ədəd	20.00	5.00000	100.00000
121.2	218597	Qayçı	Dövlət büdcəsi	221100	ədəd	9.00	0.75000	6.75000
121.2	218600	Fayl	Dövlət büdcəsi	221100	ədəd	6.00	0.35000	2.10000
121.2	218611	Qovluq (dəmirli)	Dövlət büdcəsi	221100	ədəd	4.00	0.70000	2.80000
121.2	218612	Dəftərxana jurnalı 100 vərəq	Dövlət büdcəsi	221100	ədəd	80.00	1.00000	80.00000
121.2	218613	Dəftərxana kitabı 80 vərəq	Dövlət büdcəsi	221100	ədəd	200.00	2.00000	400.00000
121.2	218614	Skoç	Dövlət büdcəsi	221100	ədəd	5.00	0.22000	1.10000
121.2	218615	Ağardıcı	Dövlət büdcəsi	221100	ədəd	32.00	0.60000	19.20000
121.2	218615	Ağardıcı	Dövlət büdcəsi	221100	ədəd	80.00	3.00000	240.00000
121.2	218616	kley	Dövlət büdcəsi	221100	ədəd	8.00	0.20000	1.60000
121.2	218617	Qələm	Dövlət büdcəsi	221100	ədəd	60.00	3.00000	180.00000
121.2	218741	təmizlik seti	Dövlət büdcəsi	221100	ədəd	36.00	12.00000	432.00000
121.2	218742	Saplı yer süpürgə	Dövlət büdcəsi	221100	ədəd	7.00	4.50000	31.50000
121.2	218743	Şpot lampa	Dövlət büdcəsi	221100	ədəd	483.00	2.80000	1352.40000
121.2	218744	Razetka	Dövlət büdcəsi	221100	ədəd	78.00	2.50000	195.00000
121.2	218745	Elektrik acarı	Dövlət büdcəsi	221100	ədəd	50.00	2.50000	125.00000
121.2	218746	Camaşıryuyan toz	Dövlət büdcəsi	221100	ədəd	60.00	3.60000	216.00000
121.2	218747	Əvəzləşmə kartı	Dövlət büdcəsi	221100	ədəd	100.00	0.80000	80.00000
121.2	218750	Ambulator xəstənin tibbi kartası	Dövlət büdcəsi	221100	ədəd	400.00	0.48000	192.00000
121.2	218752	Tualet şotka 4-N-li	Dövlət büdcəsi	221100	ədəd	2.00	4.50000	9.00000

Şək. 49. Müəssisə və şöbə üçün Anbar qalığı hesabatı

4.4.2. Cavabdehlər hesabatı

Cavabdehlər hesabatında seçilmiş tarix intervalında müəssisədə və ya seçilmiş struktur bölməsində seçilmiş hesab qrupuna aid olan mallar və cavabdehlər barədə cədvəl əks olunur (**Şək. 50**):



Şək. 50. Cavabdehlər hesabatı

İxrac əməliyyatı vasitəsilə **Cavabdehlər** hesabatını Excel faylına ixrac etmək mümkündür (**Şək. 51**):



03.08.2017 tarixə Müəssisə strukturu üzrə

Cavabdehlər

Mədaxil tarixi	İstismar tarixi	Bölmə	Cavabdeh	Hesab	Mal qrupu	Malın kodu	Malın adı	Miqdar	Vahid	Maya qiyməti	Məbləğ	Büdcə	Maddə
12.31.2015		Təsərrüfat xidməti	Məmmədov Nazir Feyruz	121,2-03	\Təsərrüfat malları	218 750,00	Ambulator xəstənin tibbi kartası	400,00	ədəd	0,48	192,00	Dövlət büdcəsi	221100 DƏFTƏRXANA VƏ TƏSƏRRÜFAT XƏRCLƏRİ
12.31.2015		Təsərrüfat xidməti	Məmmədov Nazir Feyruz	121,2-03	\Təsərrüfat malları	218 754,00	Boşqab dayaz 4-N-li	6,00	ədəd	1,20	7,20	Dövlət büdcəsi	221100 DƏFTƏRXANA VƏ TƏSƏRRÜFAT XƏRCLƏRİ
12.31.2015		Təsərrüfat xidməti	Məmmədov Nazir Feyruz	121,2-03	\Təsərrüfat malları	218 753,00	Boşqab dərin 4-N-li	61,00	ədəd	1,38	84,18	Dövlət büdcəsi	221100 DƏFTƏRXANA VƏ TƏSƏRRÜFAT XƏRCLƏRİ
12.31.2015		Təsərrüfat xidməti	Məmmədov Nazir Feyruz	121,2-03	\Təsərrüfat malları	218 746,00	Camaşıryuyan toz	60,00	ədəd	3,60	216,00	Dövlət büdcəsi	221100 DƏFTƏRXANA VƏ TƏSƏRRÜFAT XƏRCLƏRİ
12.31.2015		Təsərrüfat xidməti	Məmmədov Nazir Feyruz	121,2-03	\Təsərrüfat malları	218 745,00	Elektrik acarı	50,00	ədəd	2,50	125,00	Dövlət büdcəsi	221100 DƏFTƏRXANA VƏ TƏSƏRRÜFAT XƏRCLƏRİ
12.31.2015		Təsərrüfat xidməti	Məmmədov Nazir Feyruz	121,2-03	\Təsərrüfat malları	218 744,00	Razetka	78,00	ədəd	2,50	195,00	Dövlət büdcəsi	221100 DƏFTƏRXANA VƏ TƏSƏRRÜFAT XƏRCLƏRİ
12.31.2015		Təsərrüfat xidməti	Məmmədov Nazir Feyruz	121,2-03	\Təsərrüfat malları	218 742,00	Saplı yer süpürgə	7,00	ədəd	4,50	31,50	Dövlət büdcəsi	221100 DƏFTƏRXANA VƏ TƏSƏRRÜFAT XƏRCLƏRİ
12.31.2015		Təsərrüfat xidməti	Məmmədov Nazir Feyruz	121,2-03	\Təsərrüfat malları	218 752,00	Tualet şotka 4-N-li	2,00	ədəd	4,50	9,00	Dövlət büdcəsi	221100 DƏFTƏRXANA VƏ TƏSƏRRÜFAT XƏRCLƏRİ
12.31.2015		Təsərrüfat xidməti	Məmmədov Nazir Feyruz	121,2-03	\Təsərrüfat malları	218 741,00	təmizlik seti	36,00	ədəd	12,00	432,00	Dövlət büdcəsi	221100 DƏFTƏRXANA VƏ TƏSƏRRÜFAT XƏRCLƏRİ
12.31.2015		Təsərrüfat xidməti	Məmmədov Nazir Feyruz	121,2-03	\Təsərrüfat malları	218 743,00	Şpot lampa	483,00	ədəd	2,80	1 352,40	Dövlət büdcəsi	221100 DƏFTƏRXANA VƏ TƏSƏRRÜFAT XƏRCLƏRİ

Şək. 51. Cavabdehlər hesabatının Excel faylına ixracı

4.4.3. Mədaxil hesabatı

Mədaxil hesabatında seçilmiş tarix intervalında mədaxil olunan və qoyulan seçimlərə cavab verən malların siyahısı əks olunur (**Şək. 52**):



Şək. 52. Mədaxil hesabatı

4.4.4. Malların dövriyyəsi hesabatı

Malların dövriyyəsi hesabatında müəyyən tarix intervalında müəssisədə və ya hər hansı şöbədə seçilmiş mal qrupuna aid olan malların dövriyyəsini əks etdirən cədvəl alınır (**Şək. 53**).

"Müəssisə" MÜHASİBATLIĞI Müəssisə ÜZRƏ 121.2 Materiallar
DÖVRIYYƏSİ

Valyuta: AZN
Başlanma Tarixi: 01.01.2017
Son Tarix: 03.08.2017

Hesab: 121.2 Materiallar
Bölmə: Müəssisə
Mal: Lampa neon
Cavabdeh:

Hesab №	Malın kodu	Malın adı	Vahid	Maya dəyəri	Qalıq		Mədaxil				Məxaric						Qalıq	
2	CISCO Telefon IP PHON 7945G UNIFIED 79	ədəd	100,00000			01.09.2016		1.00	100,00000					1.00	100,00000
3	CISCO Telefon IP PHON 7945G UNIFIED 79	ədəd	206,74286			04.08.2017		5.00	1,033,71430	05.08.2017		3.00	620,22858	2.00	413,48572
4	CISCO Telefon IP PHON 7945G UNIFIED 79	ədəd	320,00000	2.00	640,00000									2.00	640,00000
5	Telefon CLIP-850	ədəd	140,00000			09.08.2017		1.00	140,00000					1.00	140,00000

Şək. 94. Aktivlər üzrə uçot kitabı

5.7.8. İnventarizasiya

Inventarizasiya hesabatını almaq üçün ilk növbədə inventarizasiya üzrə komissiya üzvləri və komissiyanın sədrinə dair məlumatları sistemə daxil etmək lazımdır (**Şək. 95**):

Şək. 95. Komissiya üzvləri barədə məlumatlar

Sonra Tarix, Müəssisə/Bölmə, Hesab, Analitik qrup, Cavabdeh, Malın adı məlumatları üzrə seçim aparmaq lazımdır. Nəhayət, hesabatın alınması əməliyyatını yerinə yetirsək, aşağıdakı inventarizasiya cədvəlini ala bilərik (**Şək. 96**).



Cavabdeh | Hesab: 231.2.4.06 Hesablama texnili | Analitik qrup: Hesablama texnikası-1

Malın adı: Notebook: HP Pavilion | Miqdar | Məbləğ | Hesabatı al

Print | Save | Page 1 of 1 | 100% | One Page

"Aktivlərin və öhdəliklərin inventarizasiyası Qaydaları"na 5 nömrəli əlavə

Tarix	29.09.2017
Şöbə	Qeydiyyat idarəsi
Cavabdeh	

İnventarizasiya cədvəli

Aktivlər üzrə inventarizasiya cədvəli

Sıra №-si	Aktivin adı	Qeydiyyat tarixi	Istismara vermə tarixi	Qiyməti	Ölçü vahidi	Mühasibat uçotu sənədlərinə Uçota alınan miqdar	Uçota alınan məbləğ	İnventarizasiyanın nəticəsinə əsasən Faktiki miqdar	Faktiki məbləğ	əskikgəlmə miqdar	əskikgəlmə məbləğ	artıqgəlmə miqdar	artıqgəlmə məbləğ	Qeyd
231														
231.2.4.06														
1	Notebook: HP Pavilion	28.09.2017		900.00	ədəd	2	1,800.00000							
2	Notebook: HP Pavilion	15.07.2017	04.08.2017	970.97	ədəd	1	970.97143							
3	Notebook: HP Pavilion	31.07.2017	04.08.2017	826.97	ədəd	3	2,480.91429							
Cəmi-231.2.4.06														5,251.89
Cəmi-231														5,251.89
Yekun cəmi						6	5,251.89							

Komissiya tərkibi

Sədr: Mütəxəssis — vəzifə, S.A.A. Mustafayev Musa Asəf

Üzvlər: Məsləhətçi — vəzifə, S.A.A. Namazova Mətanət Nazim

vəzifə, S.A.A.

vəzifə, S.A.A.

vəzifə, S.A.A.

Şək. 96. İnventarizasiya cədvəli

Alınan hesabatda aparılan seçimlərə uyğun olan, həm istismarda olan, həm də istismarda olmayan əsas vəsaitlər əks olunur. Əgər yalnız istismarda olan əsas vəsaitləri əks etdirmək lazım gələrsə, bu halda hesabatı alarkən **ƏV partiya uçotu ilə istismara verilmiş** seçimini qeyd etmək lazımdır.

5.7.9. Əsas vəsaitlərin daxili yerdəyişməsi

Əsas vəsaitlərin daxili yerdəyişməsi hesabatını almaq üçün əvvəlcə Tarix, Hardan, Hara, Malın qrupu, Hesab analitikası və Sıralama məlumatları üzrə seçim etmək lazımdır. Sonra hesabatın alınması əməliyyatını yerinə yetirsək, seçilən struktur bölmələr arasında əsas vəsaitlərin yerdəyişməsini əks etdirən cədvəl alınacaqdır (**Şək. 97**):



/Maliyyə uçotu/Əsas vəsaitlər/Hesabatlar/Əsas vəsaitlərin daxili yerdəyişməsi

İstifadəçi rəyi; Adınız: test_tegdimat

Tarix 01.01.2017 01.10.2017 Hardan Anbar Hara Mərkəzi Aparat Alt bölmələr

Malın qrupu 231.5 Torpaq, tikili və avadanlıq Hesab analitikası Sıralama Sənədin tarixi Hesabatı al

Çap etmək Saxlamaq Səhifə 1 - 1 90% Bir səhifə

Bölmələr arasında yerdəyişmə

Tarix	Bölmələr
01.01.2017	Anbar
01.10.2017	Mərkəzi Aparat

Sənədin tarixi	Sənədin N-si	Hardan	Hara	Hesabdan	Hesaba	Təhvil verdi	Təhvil aldı	Malın adı	Vahid	Maya dəyəri	Miqdarı	Məbləğ
06.08.2017	26	Anbar	Qanunvericilik baş idarəsi	231.5-1	231.2.4.06-1	Tural Vəliyev Misir	Telman Babazadə Mustafa	Monitor Nexsus 23"	ədəd	556.96000	4.00	2,227.84000
06.08.2017	26	Anbar	Qanunvericilik baş idarəsi	231.5-1	231.2.4.06-1	Tural Vəliyev Misir	Telman Babazadə Mustafa	Notebook: HP Pavilion	ədəd	1,392.40000	3.00	4,177.20000
06.08.2017	26	Anbar	Qanunvericilik baş idarəsi	231.5-1	231.2.4.06-1	Tural Vəliyev Misir	Telman Babazadə Mustafa	CISCO Telefon IP PHON 7945G UNIFIED 79	ədəd	208.86000	3.00	626.58000
11.08.2017	101	Anbar	Rəhbərlik	231.5-1	231.4.3-1	Tural Vəliyev Misir	Maqsud Bəkirov Muxtar	SAMSUNG Kondisioneri	ədəd	500.00000	1.00	500.00000
15.08.2017	111	Anbar	Qanunvericilik baş idarəsi	231.5-1	231.2.4.06-1	Tural Vəliyev Misir	Əli Qulamov Həsən	Notebook: HP Pavilion	ədəd	1,392.40000	2.00	2,784.80000
15.08.2017	111	Anbar	Qanunvericilik baş idarəsi	231.5-1	231.2.4.06-1	Tural Vəliyev Misir	Əli Qulamov Həsən	Komputer	ədəd	2,000.00000	1.00	2,000.00000
15.08.2017	111	Anbar	Qanunvericilik baş idarəsi	231.5-1	231.2.4.06-1	Tural Vəliyev Misir	Əli Qulamov Həsən	Komputer	ədəd	2,000.00000	1.00	2,000.00000
15.08.2017	111	Anbar	Qanunvericilik baş idarəsi	231.5-1	231.2.4.06-1	Tural Vəliyev Misir	Əli Qulamov Həsən	Monitor Nexsus 23"	ədəd	556.96000	2.00	1,113.92000
15.08.2017	111	Anbar	Qanunvericilik baş idarəsi	231.5-1	231.2.4.06-1	Tural Vəliyev Misir	Əli Qulamov Həsən	CISCO Telefon IP PHON 7945G UNIFIED 79	ədəd	208.86000	2.00	417.72000
											19.00	15,848.06000

Şək. 97. Əsas vəsaitlərin daxili yerdəyişməsi

6. MATERİAL EHTİYATLARI KOMPONENTI

*Sənədin bu bölməsində **Sinam Müəssisə Resurslarının İdarə Edilməsi (SERP)** sisteminin proqram kompleksinə aid olan olan **Material ehtiyatları** komponentinin təyinatı, onun funksional imkanlarının təsviri verilmişdir.*

Bölmə müəssisə və təşkilatlarda material ehtiyatlarının uçotu və hərəkəti üzrə sənədləşmə və müvafiq hesabat formalarının alınması işlərini yerinə yetirən mühasibatlıq işçiləri üçün nəzərdə tutulmuşdur.

6.1. Komponentin təyinatı

Material ehtiyatları komponenti Maliyyə uçotunun proqram təminatının əsas tərkib hissələrindən biridir.

Hər bir müəssisə daxilində material ehtiyatlarının onun balansından çıxması (silinməsi), müəssisənin bölmələri və ya şöbələri, ya da müəssisənin anbarı ilə satış məntəqələri arasında daxili yerdəyişməsi və istismara verilməsi əməliyyatları baş verir. Sistemdə bu cür əməliyyatların yerinə yetirilməsi **Material ehtiyatları** komponenti vasitəsilə yerinə yetirilir. Material ehtiyatları komponenti aşağıdakı alt komponentlərdən təşkil olunmuşdur:

- **İstismara verilmə**
- **Silinmə**

Material ehtiyatları komponentində Kontragentlər, Cavabdehlər, Mal-qiymətli əşyalar, Əsas vəsaitlər və s. soraqçalardan istifadə olunur.

6.2. Material ehtiyatlarının istismara verilməsi

İstismara verilmə alt komponentinin köməyi ilə material ehtiyatlarının istismara verilməsinə dair istismar sənədləri yaradılır. Bu sənədlər istismar sənədlərinə dair cədvəldə saxlanılır. Bu cədvəldə istismar sənədlərinə dair aşağıdakı məlumatlar əks olunur: Sənədin nömrəsi, Blank№, Sənədin tarixi, Haradan, Məbləğ, Hara, Qeyd. (**Şək. 98**):



Sənədin nömrəsi	Blank №	Sənədin tarixi	Haradan	Məbləğ	Hara	Qeyd
14021		16.01.2019	Anbar	7,035.48	Neft Kimyası Və Kimya Texnologiyası Kafedrası	Rəhilə Hüseynova
14922		16.01.2019	Anbar	3,841.72	Nanomateriallarin Kimyəvi Fizikasi Kafedrası	Sevinc Nuriyeva
23123		16.01.2019	Anbar	23.60	Kimya Fakültəsi	Məmməd Məmmədov
23624		17.01.2019	Anbar	2,634.35	Nəşriyyat	Azadə İmanova
3103		04.01.2019	Anbar	26.87	1 Saylı Tədris Binası	Nizami Məhərrəmov
3118		07.01.2019	Anbar	340.00	2 Saylı Tədris Binası	Rasim Hüseynov
3129		07.01.2019	Anbar	79.30	2 Saylı Tədris Binası	Hüseyn Məmmədov
31310		07.01.2019	Anbar	631.21	Yeni Tədris Binası	Elnur Nağıyev
31411		10.01.2019	Anbar	3,063.74	Biokimya və Biotexnologiya Kafedrası	Nurlan Əmrahov
31513		10.01.2019	Anbar	1,070.00	Əsas Bina	Şakir Babayev
31620		16.01.2019	Anbar	2,910.44	Ümumi Və Qeyri-Üzvi Kimya Kafedrası	Yeqanə Quliyev
31725		18.01.2019	Anbar	19.50	Biologiya Fakültəsi	Səbinə Ömərova
31926		18.01.2019	Anbar	1,754.80	Yarımkeçiricilər Fizikası Kafedrası	Rövsən Məmmədov
3425		05.01.2019	Anbar	175.12	Əsas Bina	Şahlar Bəyaliyev
39635		30.01.2019	Anbar	38.09	Rektorluq	İradə Əliyeva
402		30.01.2019	Anbar	4,026.52	Fiziki Və Kolloid Kimya Kafedrası	Eldar Əhmədov
41327		22.01.2019	Anbar	5,379.82	Yüksək Molekullu Birləşmələr Kimyası Kafedrası	Rasim Alosmanov
41732		28.01.2019	Anbar	151.00	Əsas Bina	Şahlar Bayaliyev
41929		24.01.2019	Anbar	300.00	Əsas Bina	Şakir Babayev
42033		28.01.2019	Anbar	40.00	Yeni Tədris Binası	Əli Nəcəfov
42228		24.01.2019	Anbar	3,235.00	Təsərrüfat Şöbəsi	Kazım Əliyev
4234		04.01.2019	Anbar	823.33	Maddi-Texniki Təchizat Şöbəsi	Elvin Bunyatzadə
42431		25.01.2019	Anbar	35.40	Təsərrüfat Şöbəsi	Kazım Əliyev
Yazıların sayı					67	
Yekun məbləğ					256,074.27	

Şək. 98. İstismar sənədlərinə dair cədvəl

Cədvəlin axırıncı sətrində cədvəldəki istismar sənədlərinin yekun sayı və bütün sənədlər üzrə Məbləğ məlumatlarının yekun cəmi göstərilir.

Proqram təminatında istismar sənədləri üzərində aşağıdakı funksional əməliyyatların yerinə yetirilməsi təmin edilmişdir:

Yeni - yeni istismar sənədinin yaradılması;

Silinmə sənədi - istismara verilən malların silinməsinə dair silinmə sənədinin yaradılması;

Silmə- cədvəldə seçilmiş istismar sənədləriinin silinməsi;

Bərpa et- silinmiş istismar sənədlərinin bərpası;

- istismar sənədinə edilmiş düzəliş əməliyyatlarının tarixinə baxış;

- istismar sənədinin nüsxəsinin yaradılması.

6.2.1. Yeni istismar sənədi

Hər bir yeni yaradılan istismar sənədində əsas məlumatlar və istismara verilən material ehtiyatlarına dair cədvəl əks olunur.

İstismar sənədinə dair əsas məlumatlara aşağıdakılar aid edilir:

- Sənədin nömrəsi
- Blank nömrəsi
- Sənədin tarixi
- Tədarükçü
- Alan
- Təhvil verdi
- Təhvil aldı
- Qeyd.

İstismara verilən material ehtiyatlarına dair cədvəldə istismara verilən mallara dair aşağıdakı məlumatlar əks olunur: Hesab №, Malın kodu, Malın adı, Miqdar, Qiymət və Məbləğ, Seriya nömrəsi, Saxlama müddəti, Partiya sənədinin nömrəsi.

Yeni yaradılan istismar sənədini məlumat bazasına yazan zaman cədvəldəki sətirlərin sayı və istismara verilən mallar üzrə yekun məbləği avtomatik olaraq hesablanır və cədvəlin axırında əks olunur (**Şək. 99**).



Şək. 99. Yeni istismar sənədi

6.2.2. DAXİLİ QAİMƏ sənədi

İstismar sənədləri İxrac əməliyyatını yerinə yetirməklə istismar sənədini Excel tipli fayla ixrac etmək olar. Bu zaman **DAXİLİ QAİMƏ** sənədi yaradılır. Aşağıdakı şəkildə (**Şək.** 100) həm materialların (121 və 126 hesablarında olan), həm də Anbarda olan əsas vəsaitlərin (231.5 hesabında olan) istismara verilməsi üçün yaradılan istismar sənədlərinin ixracı zamanı alınan Daxili qaimə çıxış formaları əks olunmuşdur.

Müəssisə

DAXİLİ QAİMƏ № 51

04.08.2017

Kimdən: Anbar — Vəliyev Tural Misir

Kimə: Menecment İdarəsi — Əhmədov İsa Vahid

Əsas:

№	Mal-materialın adı	Ölçü vahidi	Miqdar	Qiymət	Məbləğ	Qeyd
1	Floumetr və nəmləndirici Dentsan(Türkiyə)	ədəd	2.00	80.00	160.00	
2	Mis boru d 12 2011-2	ədəd	2.00	3.00	6.00	
3	Telefon	ədəd	4.00	30.00	120.00	
4	Kalkulyator	ədəd	7.00	0.90	6.30	
5	Mexaniki tonometr	ədəd	5.00	6.00	30.00	
6	Ştativ	ədəd	7.00	9.00	63.00	
				Cəmi:	385.30	

Baş mühasib_____ Mühasib_____

(imza və tarix) (imza və tarix)

Təhvil verdi_____ Təhvil aldı_____

(imza və tarix) (imza və tarix)

Лист1

Müəssisə

DAXİLİ QAİMƏ № 7887

05.08.2017

Kimdən: Anbar — Vəliyev Tural Misir

Kimə: Beynəlxalq əməkdaşlıq idarəsi — Əliyev Elşən Elçin

Əsas:

№	Mal-materialın adı	Ölçü vahidi	Miqdar	Qiymət	Məbləğ	Qeyd
1	Monitor Nexsus 23"	ədəd	3.00	472.00	1 416.00	
2	CİSCO Telefon İP PHON 7945G UNİFİED 79	ədəd	2.00	177.00	354.00	
3	Notebook: HP Pavilion	ədəd	4.00	1 180.00	4 720.00	
				Cəmi:	6,490.00	

Baş mühasib_____ Mühasib_____

(imza və tarix) (imza və tarix)

Təhvil verdi_____ Təhvil aldı_____

(imza və tarix) (imza və tarix)

Лист1

Şək. 100. DAXİLİ QAİMƏ sənədləri

Proqram modulunda həmçinin istismar sənədlərinin cədvəlindəki malların silinməsi əməliyyatı, yəni balansdan çıxarılması əməliyyatı təmin olunmuşdur. Belə ki, istismara verilən mal-materiallar eyni zamanda silinə bilər. Bu əməliyyat komponentdə işlənilmiş **Silinmə sənədi** məntiqi əməliyyatı vasitəsilə yerinə yetirilir. Nəticədə istismara verilən

malların həm də silinməsinə dair sənəd varadılacaq və silinmə sənədlərinin siyahısında əks olunacaqdır.

Material ehtiyatlarının istismara verilməsi əməliyyatına dair sistemdə heç bir müxabirləşmə yaranmır.

6.3. Material ehtiyatlarının silinməsi

Material ehtiyatlarının silinməsi əməliyyatı **Silinmə** alt komponenti vasitəsilə yerinə yetirilir. **Silinmə** alt komponentinin köməyi ilə material ehtiyatlarının silinməsi barədə sənədlər yaradılır və bu sənədlər silinmə sənədlərinə dair cədvəldə saxlanılır (**Şək. 101**):

Sənədin nömrəsi	Blank №	Sənədin tarixi	Şöbə	Məbləğ	Silinmə hesabı	Qeyd
85		30.01.2019	Əsas Bina	12,834.76	İstifadə olunmuş materiallar	Bəyaliyev Şahlar
89		21.01.2019	Yeni Tədris Binası	631.21	İstifadə olunmuş materiallar	Nağıyev Elnur
161		21.01.2019	Həyətyani Sahəyə Xidmət Qrupu	2,050.00	İstifadə olunmuş materiallar	Hüseynov Şamxal
162		30.01.2019	Maddi-Texniki Təchizat Şöbəsi	823.33	İstifadə olunmuş materiallar	Bunyatzadə Elvin
195		29.01.2019	1 Saylı Tədris Binası	7,500.67	İstifadə olunmuş materiallar	Məhərrəmov Nizami
297		31.01.2019	4.Karyera, praktika və məzunlarla əlaqə mərkəz	400.00	İstifadə olunmuş materiallar	Əhmədov Əhməd-döş nişanı-100*4=400.00
298		22.02.2019	4.Karyera, praktika və məzunlarla əlaqə mərkəz	428.00	İstifadə olunmuş materiallar	Əhmədov Əhməd-107*4.00=428.00
309		31.01.2019	Təsərrüfat Şöbəsi	3,312.40	İstifadə olunmuş materiallar	Əliyev Kazım
326		27.02.2019	Təsərrüfat Şöbəsi	1,027.20	İstifadə olunmuş materiallar	Əliyev Kazım
327		11.01.2019	4.Karyera, praktika və məzunlarla əlaqə mərkəz	933.38	İstifadə olunmuş materiallar	Xasayev Adıl
348		28.02.2019	Təsərrüfat Şöbəsi	193.60	İstifadə olunmuş materiallar	Əliyev Kazım
404		30.01.2019	Təmir-Tikinti Sahəsi	568.85	İstifadə olunmuş materiallar	Novruzov Vəli-"sas bina Kimya fak d'hliz v' 2.4.9.10 sayl; otaq
405		30.01.2019	Təmir-Tikinti Sahəsi	1,398.09	İstifadə olunmuş materiallar	Novruzov Vəli-
2552		30.01.2019	Elmi Kitabxana	883.68	İstifadə olunmuş materiallar	Bağırova Firəngiz
2591		27.02.2019	Təsərrüfat Şöbəsi	260.00	İstifadə olunmuş materiallar	Əliyev Kazım

Şək. 101. Silinmə sənədlərinə dair cədvəl

Bu cədvəldə silinmə sənədlərinə dair aşağıdakı məlumatlar əks olunur: Sənədin nömrəsi, Blank№, Sənədin tarixi, Şöbə, Məbləğ, Silinmə hesabı, Qeyd.

Silinmə sənədlərinə dair cədvəlin sonunda silinmə sənədlərinin yekun sayı və bütün sənədlər üzrə Məbləğ məlumatlarının yekun cəmi göstərilir.

Komponentin köməyi ilə silinməyə dair sənədlər üzərində aşağıdakı əməliyyatları yerinə yetirmək mümkündür:

Yeni - yeni silinmə sənədinin yaradılması;

Silmə- material ehtiyatlarının silnməsinə dair sənədin cədvəldən silinməsi;;

Bərpa et- silinmə sənədlərinin bərpası;

- silinmə sənədinə edilmiş düzəliş əməliyyatlarının tarixinə baxış;

6.3.1. Yeni silinmə sənədi

Proqram təminatının köməyi ilə yeni yaradılan silinmə sənədində əsas məlumatlar və silinən material ehtiyatlarına dair cədvəl əks olunur (**Şək. 102**).

Silinmə sənədinə dair əsas məlumatlara aşağıdakılar aid edilir:

- Sənədin nömrəsi
- Sənədin tarixi
- Blank nömrəsi
- Tədarükçü
- Cavabdeh
- Fakturanın nömrəsi
- Büdcə
- Silinmə məqsədi
- Alan (bu sahədə mal-materialın məsrəf hesabının kodu və adı əks olunur)
- Qeyd.

Silinən material ehtiyatlarına dair cədvəldə silinən mallara dair aşağıdakı məlumatlar əks olunur: Hesab №, Malın kodu, Malın adı, Vahid, Miqdar, Maya dəyəri, Məbləğ, Seriya nömrəsi, Saxlama müddəti, Partiya sənədinin nömrəsi, Büdcə İqtisadı təsnifat kodu.

Cədvəlin axırında isə silinən malların yekun məbləği əks olunur.

Məlumatlar bazaya yazılan zaman silinmə əməliyyatına uyğun olan müxabirləşmələr yaranır və ayrıca cədvəldə əks olunur:

(D-T) 122.3- İstifadə olunmuş materiallar	(K-T) 121.2 – Materiallar
(D-T) 122.3- İstifadə olunmuş materiallar	(K-T) 126 – Digər ehtiyatlar



Şək. 102. Yeni silinmə sənədi

6.3.2. SİLİNMƏ AKT-ı

Komponentdə işlənilmiş İxrac əməliyyatı vasitəsilə silinmə sənədini Excel tipli fayla ixrac etmək olar. İxracın nəticəsi olaraq **Material ehtiyatların silinmə AKTı** adlı sənəd yaranır (**Şək. 103**) :

MATERİAL EHTİYATLARIN SİLİNMƏ

AKTI № 2211

05.08.2017

Kimdən: Menecment İdarəsi Əhmədov İsa Vahid

Qeyd:

Sıra №	Hesab №	Mal-materialın adı	Vahid	Miqdar	Qiymət	Məbləğ	Maddə	Büdcə
1	126-1	Floumetr və nəmləndirici Dentsan(Türkiyə)	ədəd	1.00	80.00	80.00	282100 Sair xərclər	Dövlət büdcəsi
2	126-1	Mis boru d 12 2011-2	ədəd	1.00	3.00	3.00	225412 Avadanlığın alınması	Dövlət büdcəsi
3	126-1	Telefon	ədəd	2.00	30.00	60.00	225412 Avadanlığın alınması	Dövlət büdcəsi
4	126-1	Mexaniki tonometr	ədəd	3.00	6.00	18.00	282100 Sair xərclər	Dövlət büdcəsi
5	126-1	Kalkulyator	ədəd	5.00	0.90	4.50	282100 Sair xərclər	Dövlət büdcəsi
6	126-1	Ştativ	ədəd	4.00	9.00	36.00	225412 Avadanlığın alınması	Dövlət büdcəsi
					Cəmi	201.50		

Baş mühasib: **Mühasib:**

Şək. 103. Material ehtiyatların silinmə AKT-ı

Sistemdə material ehtiyatlarının silinməsi əməliyyatını başqa yolla- **İstismara verilmə** alt komponentindən istifadə etməklə də yerinə yetirmək olar. Belə ki, material ehtiyatlarının istismara verilməsi sənədində göstərilən bütün malları eyni zamanda silmək lazım gələrsə, bu halda İstismara verilmə alt komponentində **Silinmə sənədi** əməliyyatını yerinə yetirmək lazımdır.

6.3.3. Cari təmir üçün silinmə sənədi

SERP sistemində həmçinin müəssisənin balansında olan əsas vəsitlərin cari və əsaslı təmiri zamanı istifadə olunan mal-materialların silinməsi əməliyyatı yerinə yetirilir. Bu halda da silinmə sənədi yaradılır. Bu silinmə sənədinin adi silinmə sənədindən fərqi ondan ibarətdir ki, bu sənəddə **Silinmə məqsədi** rekvizitinə **Cari təmir** məlumatını mənimsətmək lazımdır. Sonra təmir olunacaq əsas vəsaitin adını sitemə daxil etmək və əsas vəsaitlərin açılan siyahısından seçim etmək lazımdır (**Şək. 104**):



Şək. 104. Cari təmir üçün əsas vəsaitlərin seçimi

Seçimdən sonra əsas vəsaitlərə dair məlumatlar silinmə sənədinə ötürülür. Cari təmir üçün silinmə sənədinə nümunə aşağıdakı şəkildə əks olunmuşdur (**Şək. 105**):



Şək. 105. Cari təmir üçün silinmə sənədi

7. XİDMƏT SƏNƏDLƏRİ KOMPONENTI

*Sənədin bu bölməsində **Sinam Müəssisə Resurslarının İdarə Edilməsi (SERP)** sisteminin proqram kompleksinə aid olan olan **Xidmət sənədləri** komponentinin təyinatı, onun funksional imkanlarının təsviri verilmişdir.*

Bölmə müəssisənin satın aldığı, həmçinin gördüyü işlər və xidmətlər üzrə digər təşkilatlarla və podratçılarla apardığı əməliyyatlara dair sənədləşmələri yerinə yetirən mühasibat işçiləri üçün nəzərdə tutulmuşdur.

7.1.Komponentin təyinatı

Maliyyə uçotu üzrə proqram təminatının tərkib hissələrindən biri də **Xidmət sənədləri** komponentidir. Bu komponent müəssisənin gördüyü və satın aldığı işlər və xidmətlərə dair sənədləşmə əməliyyatlarının yerinə yetirilməsi üçün nəzərdə tutulmuşdur. Təyinatından asılı olaraq sənədləşmə əməliyyatı aşağıdakı iki istiqamət üzrə aparılır: Satın alınan işlər və xidmətlər, Görülmüş işlər və xidmətlər. Büdcə təşkilatlarında əsasən işlər və xidmətlərin satın alınması əməliyyatları yerinə yetirilir. Bu əməliyyatların uçotunun aparılması üçün sistemdə aşağıdakı alt komponentlər işlənib hazırlanmışdır:

- Satın alınan işlər və xidmətlər
- Görülmüş işlər və göstərilən xidmətlər

7.2. Satın alınan işlər və xidmətlər cədvəli

Satın alınan işlər və xidmətlər alt komponenti yüklənən zaman açılan baş interfeys pəncərəsində sistemdə yaradılmış xidməti sənədlərinə dair məlumatları əks etdirən cədvəl əks olunur (**Şək. 106**):



Şək. 106. Satın alınan işlər və xidmətlər cədvəli

Bu cədvəldə xidməti sənədlər barədə aşağıdakı məlumatlar əks olunur:

- Blankın nömrəsi
- Təşkilat
- Təsdiqedici sənədin tarixi
- Hesabın kodu
- Tədarükçü
- Məbləğ
- ƏDV
- Xidməti alan
- Ödənişin növü
- Qeyd

Cədvəlin axırıncı sətrində cədvəldəki xidmət sənədləri üzrə Yekun məbləğ, ƏDV və sətirlərin sayı əks olunur:

Paneldə yerləşən Hamısı , Cari və Silinmişlər radiobuttonları bütün, cari və silinmiş xidmət sənədlərinin siyahısını ekrana çıxarmaq üçün nəzərdə tutulmuşdur.

Komponentin köməyi ilə satın alınan işlər və xidmətlərə dair cədvəl üzərində aşağıdakı funksional əməliyyatların yerinə yetirilməsi təmin olunmuşdur:

Tarixi seçmək - konkret tarix intervalında yaradılan xidmət sənədlərinin ekranda əks etdirilməsi

Yeni - yeni xidmət sənədinin yaradılması

Filter - cədvəlin sütunlarındakı rekvizitlərə görə axtarış

Xidmətə görə Filter - xidmət növünün hesabı, adı və iqtisadi təsnifat üzrə axtarış

Sazlama - cədvəlin sütunlarının ekrana çıxarılması və ya gizlədilməsi

Silmə - bir və ya qrup şəklində seçilmiş xidmət sənədlərinin silinməsi

Bərpaetmə - silinmiş xidmət sənədlərinin bərpa edilməsi

Xidməti sənədlərə dair cədvəlin sətirləri üzərində həmçinin aşağıdakı funksional əməliyyatları yerinə yetirmək mümkündür:

- xidmət sənədinə edilmiş düzəliş əməliyyatlarının tarixinə baxış

- xidmət sənədinin nüsxəsinin çıxarılması
- seçilmiş xidmət sənədinin silinməsi

7.3.Satın alınan xidmət sənədinin yaradılması

Satın alınan işlər və xidmətlər üzrə yeni sənəd yaradan zaman sistemə xidmət sənədinə dair əsas məlumatlar və xidmətlərə dair cədvəlin məlumatları daxil edilməlidir.

Satın alınan işlər və xidmətlərə dair əsas məlumatlara aşağıdakı rekvizitlər aid edilir: *Sənədin nömrəsi, Blankın nömrəsi, Təsdiqedici sənədin növü, Bank, Sənədin başlanma tarixi, Sənədin bitmə tarixi, ƏDV, Valyuta, Məzənnə, Ödənişin növü, Menecer, Büdcə, Xərclər, Əməliyyatın növü, Tədarükçü, Alan, Müqavilə, Qeyd*

Satın alınan xidmət sənədinin əsas məlumatlarına dair ekran forması aşağıdakı şəkildə göstərilmişdir (**Şək. 107**):



Şək. 107. Satın alınan xidmət sənədinin əsas məlumatları

Yeni satın alınan xidmət sənədinin yaradılmasında ikinci mərhələ satın alınan xidmətlər cədvəlini doldurulması, daha doğrusu cədvələ yeni xidmətlərə dair məlumatların daxil edilməsidir. Bunun üçün ilk növbədə xidmət növlərinə dair siyahıdan seçim edilməlidir. Bu siyahıya məlumatlar **Satın alınan işlər və xidmətlər** soraqçasından ötürülür (**Şək. 108**):

Şək. 108. Satın alınan xidmətlərin siyahısı

Proqram komponentində siyahıya yeni satın alınan xidmət növünün əlavə edilməsi, siyahıda lazım olan xidmət növünün axtarışı imkanı vardır. Seçim zamanı əvvəlcə xidmət növünün hesabı, analitik hesabı, iqtisadi təsnifat, funksional təsnifat və büdcə proqramının kodu seçilməli, sonra siyahıdan xidmət növü seçilməlidir (**Şək. 109**):

Şək. 109. Satın alınan xidmət növünün seçilməsi

Seçimin təsdiqindən sonra seçilən xidmətə dair məlumatlar xidmətlər cədvəlinə ötürülür. Məlumatlar bazaya yazılan zaman cədvəlin digər sütunları, cədvəldəki sətirlərin sayı, onların yekun məbləği və yekun ƏDV məbləği avtomatik olaraq hesablanır və xidmətlər cədvəlinin axırında əks olunur. Həmçinin hər bir əməliyyata və avans ödənişinə dair müxabirləşmələr yaradılır və müxabirləşmələrə dair cədvəldə əks olunur (**Şək. 110**).



Şək. 110. Yeni satın alınan xidmət sənədi

7.4. Təmirə dair xidmət sənədi

Bəzən müəssisənin əsas vəsaitlərinin podrat üsulu ilə cari və əsaslı təmiri ilə əlaqədar podratçıların göstərdiyi təmir xidmətlərinə dair sənədlər yaradılır. Belə xidmət sənədlərini yaradan zaman **Əməliyyatın növü** rekviziti olaraq **Cari təmir** və **Əsaslı təmir** məlumatlarından biri seçilməlidir. Həmçinin təmir olunan əsas vəsaitə dair məlumatlar: əsas vəsaitin inventar nömrəsi və adı sistemə daxil edilməlidir. Əsas vəsaitin cari təmirinə dair yeni xidmət sənədinə nümunə aşağıdakı şəkildə əks olunmuşdur (**Şək. 111**):



Şək. 111. Cari təmirə dair xidmət sənədi

7.5. Xidmət sənədləri üzrə hesabat

Satın alınan işlər və xidmətlər komponentində **Xidmət sənədləri üzrə hesabat** formasının alınması da təmin olunmuşdur. Bu hesabatı alan zaman əvvəlcə **Tarix, Tədarükçü, Büdcə, İqtisadi təsnifat** sahələrinə görə seçim aparılır və sonra hesabatın alınması əməliyyatı yerinə yetirilir (**Şək. 112**).



№	Sənədin nömrəsi	Sənədin tarixi	Tədarükçü	Hesab	Xidmətin adı	Məbləğ	İqtisadi təsnifat	Büdcə	Təhvil aldı
	2000292073	31.01.2018							
1	2000292073	31.01.2018	AZERİŞIQ ASC(BDU)	122.9.06	el.enerji	20,058.01	224100	Büdcədən kənar maliyyələşmə	
Sənəd üzrə məbləğ:						20,058.01			
	2000292455	28.02.2018							
2	2000292455	28.02.2018	AZERİŞIQ ASC(BDU)	122.9.06	el.enerji	35,665.54	224100	Büdcədən kənar maliyyələşmə	
Sənəd üzrə məbləğ:						35,665.54			
	2000292521	31.03.2018							
3	2000292521	31.03.2018	AZERİŞIQ ASC(BDU)	122.9.06	el.enerji	21,972.91	224100	Büdcədən kənar maliyyələşmə	
Sənəd üzrə məbləğ:						21,972.91			
	2000292635	30.04.2018							
4	2000292635	30.04.2018	AZERİŞIQ ASC(BDU)	122.9.06	el.enerji	31,511.21	224100	Büdcədən kənar maliyyələşmə	
Sənəd üzrə məbləğ:						31,511.21			
	2000292717	31.05.2018							
5	2000292717	31.05.2018	AZERİŞIQ ASC(BDU)	122.9.06	el.enerji	20,321.80	224100	Büdcədən kənar maliyyələşmə	
Sənəd üzrə məbləğ:						20,321.80			
	2000293690	30.06.2018							
6	2000293690	30.06.2018	AZERİŞIQ ASC(BDU)	122.9.06	el.enerji	18,371.43	224100	Büdcədən kənar maliyyələşmə	
Sənəd üzrə məbləğ:						18,371.43			
	2000297112	31.07.2018							
7	2000297112	31.07.2018	AZERİŞIQ ASC(BDU)	122.9.06	el.enerji	12,365.82	224100	Büdcədən kənar maliyyələşmə	

Şək. 112. Satın alınan xidmət sənədləri üzrə hesabat

7.6. Görülmüş işlər və göstərilən xidmətlər

Görülmüş işlər və göstərilən xidmətlər alt komponenti müəssisə tərəfindən digər təşkilatlara xidmət göstərilən (satılan) zaman xidmət sənədlərinin uçotunu aparmaq üçün işlənib hazırlanmışdır. Bu komponentin köməyi ilə yaradılan xidmət sənədlərinə dair cədvəl aşağıdakı şəkildə əks olunmuşdur (**Şək. 113**):



Blankın nömrəsi	Təşkilat	Təsdiqedici sənədin tarixi	Hesabın kodu	Müştəri	Məbləğ	ƏDV	Yekun məbləğ	Xidmət göstərən	Ödənişin növü	Qeyd	İstifadəçi
1	Müəssisə	01.01.2017	301.2-2	TEXSERVİS	400	72	472	Təsərrüfat xidməti	Avans		TEST_TEQDIMAT
2	Müəssisə	01.06.2017	111.02.1-1	TEXSERVİS	300	54	354	Müəssisə	Avans		TEST_TEQDIMAT

Şək. 113. Görülmüş işlər və göstərilən xidmətlər cədvəli

Görülmüş işlər və göstərilən xidmətlər cədvəlində xidmətlərə dair aşağıdakı məlumatlar əks olunur:

- Blankın nömrəsi,
- Təşkilat
- Təsdiqedici sənədin tarixi
- Hesabın kodu
- Müştəri
- Məbləğ
- ƏDV
- Yekun məbləğ
- Xidmət göstərən
- Ödənişin növü
- Qeyd

Görülmüş işlər və göstərilən xidmətlər alt komponentinin baş interfeys səhifəsində istifadə olunan funksional düymələrin təyinatı **Satın alınan işlər və xidmətlər** alt komponentində istifadə olunan funksional düymələrin təyinatına tam analojidir.

7.7.Göstərilən xidmət üzrə yeni sənədin yaradılması

Görülmüş işlər və göstərilən xidmətlər üzrə yeni sənəd yaratmaq üçün xidmət sənədinə dair əsas məlumatlar və satılan xidmətlərə dair cədvəlin məlumatları sistemə daxil edilməlidir.

Görülmüş işlər və göstərilən xidmətlərə dair əsas məlumatlara aşağıdakılar aiddir: *Sənədin nömrəsi, Təsdiqedici sənədin nömrəsi, Təsdiqedici sənədin tarixi, Təsdiqedici sənədin növü, Bank, Sənədin başlanma tarixi, Sənədin bitmə tarixi, ƏDV, Valyuta, Məzənnə, Ödənişin növü, Menecer, Büdcə, Xərclər, Xidmətin statusu, Müştərinin qiyməti, Tədarükçü, Alan, Müqavilə, Qeyd.*

Görülmüş işlər və göstərilən xidmətlərə dair xidmət sənədinin əsas məlumatları aşağıdakı ekran formasında göstərilmişdir (**Şək. 114**):



Şək. 114. Göstərilən xidmətə dair yeni sənədin əsas məlumatları

Göstərilən xidmətlərə dair sənədin yaradılmasında ikinci mərhələ bu xidmətlərə dair cədvələ yeni xidmətlərin əlavə edilməsidir. Belə xidmətəri göstərilən xidmət növlərinə dair siyahıdan seçim etməklə əlavə etmək lazımdır. Bu siyahıya məlumatlar sistemin **Görülmüş işlər və göstərilən xidmətlər** soraqçasından ötürülür (**Şək. 115**):

Şək. 115. Göstərilən xidmət növünün seçilməsi

Seçim əməliyyatından sonra seçilən xidmətə dair məlumatlar yeni sənədin göstərilən xidmətlər cədvəlinə ötürülür. Məlumatlar yaddaşda saxlanılan zaman cədvəlin digər sütunları və cədvəl üzrə yekun məbləğlər avtomatik olaraq hesablanır və əməliyyata dair müxabirləşmələr yaranır (**Şək. 116**):



Şək. 116. Göstərilən xidmət üzrə yeni sənəd

Proqram təminatında göstərilən xidmət üzrə cədvəlin ixracı və çapı əməliyyatları da təmin olunmuşdur.

8. BAŞ KİTAB KOMPONENTI

*Sənədin bu bölməsində **Sinam Müəssisə Resurslarının İdarə Edilməsi (SERP)** sisteminin proqram kompleksinə aid olan olan **Baş Kitab** komponentinin təyinatı, onun funksional imkanlarının təsviri verilmişdir.*

Bölmə müəssisə və təşkilatlarda mühasibat uçotunda Baş Kitabın aparılması və uyğun maliyyə hesabatlarının alınması əməliyyatlarını yerinə yetirən mühasibat işçiləri üçün nəzərdə tutulmuşdur.

8.1. Komponentin təyinatı

Maliyyə uçotunun əsas tərkib hissələrindən biri olan "**Baş Kitab (sazlamalar)"** komponenti təşkilatın mühasibat uçotunda Baş Kitabın aparılması və uyğun maliyyə hesabatlarının alınması üçün nəzərdə tutulmuşdur.

"**Baş Kitab (sazlamalar)"** komponenti aşağıdakı alt komponentlərdən təşkil olunmuşdur:

- Dövrün bağlanması
- Hesabın növləri
- Malın maya dəyərinin redaktəsi
- Sistem Hesablar Planı
- Qeydiyyat kitabları
- Hesablar Planı
- Mühasibat modelləri
- Müxabirləşmələrin daxil edilməsi
- Məlumatların idxalı/ ixracı
- Sazlamalar

8.2. Dövrün bağlanması

Dövrün bağlanması komponentinin köməyi ilə maliyyə uçotunda aparılan əsas əməliyyatlardan biri olan hesabat dövrünün sonunda dövrün bağlanması əməliyyatıdır. Komponentin baş interfeys pəncərəsində aşağıdakı məlumatlar təsvir olunur (**Şək. 117**):

- Xəzinənin bağlanmasına dair məlumatlar
- Dövrün bağlanmasına dair məlumatlar
- Dövrün bağlanmasına dair müxabirləşmələr



Şək. 117. Dövrün bağlanması interfeys pəncərəsi

Proqram komponentində əvvəlcə xəzinənin bağlanması, sonra isə dövrün bağlanması əməliyyatları yerinə yetirilir. Bunun üçün Xəzinəni bağla və Dövrü bağla funksionallıqları

işlənilmişdir. Bu əməliyyatlardan sonra ekranda həm xəzinənin, həm də dövrün bağlanmasına dair məlumat sətirləri əks olunur (**Şək. 118**).



	Daxil olma	Tarix	Debet	Kredit	Məbləğ	Büdcə	Qeyd
	Manual	31.12.2018	621 Dövlət büdcəsindən alınmış vəsaitlər	801 Ümumi mənfəət (zərər)	1,886,684,261,121.79	MN	
	Manual	31.12.2018	801 Ümumi mənfəət (zərər)	535.1 Material ehtiyatları üzrə ehtiyat fond	1,886,684,261,121.79	MN	
	Manual	31.12.2018	535.1 Material ehtiyatları üzrə ehtiyat fond	621 Dövlət büdcəsindən alınmış vəsaitlər	1,965,882,175,377.64	MN	
	Manual	31.12.2018	621 Dövlət büdcəsindən alınmış vəsaitlər	801 Ümumi mənfəət (zərər)	1,448.16	MN	
	Manual	31.12.2018	801 Ümumi mənfəət (zərər)	535.2 Torpaq, tikili və avadanlıq üzrə ehtiyat fond	1,448.16	MN	
	Manual	31.12.2018	733 Göstərilmiş xidmətlərin dəyəri	122.9.03 Su məsrəfi	10.00	MN	
	Manual	31.12.2018	801 Ümumi mənfəət (zərər)	733 Göstərilmiş xidmətlərin dəyəri	10.00	MN	
	Manual	31.12.2018	733 Göstərilmiş xidmətlərin dəyəri	122.3 İstifadə olunmuş materiallar	10.00	MN	
	Manual	31.12.2018	535.1 Material ehtiyatları üzrə ehtiyat fond	801 Ümumi mənfəət (zərər)	10.00	MN	
	Manual	31.12.2018	703 Göstərilmiş xidmətlərin dəyəri	122.5 Aktivlərin amortizasiyası	3,730,917.36	Büdcədən kənar maliyyələşmə	
	Manual	31.12.2018	801 Ümumi mənfəət (zərər)	703 Göstərilmiş xidmətlərin dəyəri	3,730,917.36	Büdcədən kənar maliyyələşmə	
	Manual	31.12.2018	535.2 Torpaq, tikili və avadanlıq üzrə ehtiyat fond	801 Ümumi mənfəət (zərər)	3,730,917.36	Büdcədən kənar maliyyələşmə	
	Manual	31.12.2018	611.2 Xidmətlərin göstərilməsi üzrə gəlir	801 Ümumi mənfəət (zərər)	100.00	Büdcədən kənar maliyyələşmə	
	Manual	31.12.2018	801 Ümumi mənfəət (zərər)	535.5 Qeyri-maddi aktivlər üzrə ehtiyat fond	100.00	Büdcədən kənar maliyyələşmə	
	Manual	31.12.2018	703 Göstərilmiş xidmətlərin dəyəri	122.5 Aktivlərin amortizasiyası	0.00	Büdcədən kənar maliyyələşmə	
	Manual	31.12.2018	801 Ümumi mənfəət (zərər)	703 Göstərilmiş xidmətlərin dəyəri	0.00	Büdcədən kənar maliyyələşmə	
	Manual	31.12.2018	535.2 Torpaq, tikili və avadanlıq üzrə ehtiyat fond	801 Ümumi mənfəət (zərər)	0.00	Büdcədən kənar maliyyələşmə	

Şək. 118. Dövrün bağlanması əməliyyatının nəticələri

Dövrün bağlanması əməliyyatından sonra sistemdə həmin dövrə aid olan heç bir sənəd üzərində düzəliş etməyə icazə verilmir.

Əgər xəzinənin və dövrün bağlanması əməliyyatlarını ləğv etmək lazım gələrsə, bu halda bu əməliyyatlara dair məlumat sətirlərini silmək kifayətdir.

Komponentin köməyi ilə dövrün bağlanmasına aid olan, ancaq sistemdə dövrün bağlanması mühasibat modelində sazlanmayan hər hansı müxabirləşmənin cədvələ əlavə olunması da mümkündür.

8.3. Hesabın növləri

Hesabın növləri alt komponenti ilə işləmək yalnız inzibatçı səlahiyyətlərinə malik olan istifadəçilər üçün nəzərdə tutulmuşdur. Adi istifadəçilər üçün bu alt komponent deaktivdir.

Hesabın növləri alt komponentinin baş interfeys pəncərəsində hesab növlərinə dair cədvəl yerləşir (**Şək. 119**). Bu cədvəl üzərində aşağıdakıl əməliyyatlar yerinə yetirilə bilər:

Axtar - hesab növünün adına görə axtarışın aparılması

Yeni - cədvələ yeni hesab növünün əlavə edilməsi

Proqram komponentində həmçinin cədvəldəki hesab növləri üzərində aşağıdakı əməliyyatların yerinə yetirilməsi təmin edilir:

- siyahıda seçilmiş hesab növünə düzəliş edilməsi

- siyahıda seçilmiş hesab növünün silinməsi



Şək. 119. Hesabın növləri pəncərəsi

- bəzi hesab növləri üçün (məs: **Təhtəlhesab** və **Ödənişli tələbələr** adlı hesab növləri) **İşçi qrupu** və **Əmək müqaviləsi** rekvizitlərinin seçimini əks etdirmək. **Təhtəlhesab** hesab növü üçün rekvizitlərin seçimi aşağıdakı şəkildə təsvir olunmuşdur:

İşçi qrupu	Əmək müqaviləsi		
Professor müəllim heyəti	daimi iş		
Rəhbər İnzibati heyət	daimi iş		
Sair Xidmətedici heyət	daimi iş		
Tədris köməkçi heyət	daimi iş		
Ştatdankənar işçilər	daimi iş		
ETL	daimi iş		
Professor müəllim heyəti	müqavilə		
Rəhbər İnzibati heyət	müqavilə		
Sair Xidmətedici heyət	müqavilə		
Tədris köməkçi heyət	müqavilə		
ETL	müqavilə		

- seçilmiş hesab növünün iştirak etdiyi hesabatların siyahısına baxış. Aşağıdakı şəkildə **Müştərilər (CLİENTS)** hesab növündən istifadə olunan hesabatların siyahısı göstərilmişdir (**Şək. 120**):

Şək. 120. Müştərilər hesab növünün iştirak etdiyi hesabatlar

8.3.1. Yeni hesab növünün yaradılması

Yeni hesab növünü yaratmaq üçün nəzərdə tutulmuş ekran forması aşağıda təsvir olunmuşdur (**Şək. 121**).



Şək. 121. Yeni hesab növünün yaradılması

8.4. Malın maya dəyərinin redaktə edilməsi

Müəyyən tarix intervalında üzərində əməliyyat aparılmış mal-materialların uçotuna dair yaradılmış sənədlərdə (Mədaxil qaiməsi, Məxaric qaiməsi, İstismara verilmə sənədi və digər sənədlər) malın maya dəyərinə düzəliş etmək üçün menyuda **Baş kitab** moduluna daxil olan **Malın maya dəyərinə redaktə edilməsi** alt komponentindən istifadə olunur. Bu əməliyyatı yerinə yetirmək üçün əvvəlcə komponentin interfeys səhifəsində maya dəyəri dəyişdiriləcək mal-materiallar üzərində əməliyyat aparılan tarix intervalı daxil edilir. Tarix seçimindən sonra üzərində əməliyyat aparılmış malların siyahısı ekranda əks olunur (**Şək. 122**).

Hamısını seç	Malın adı	Mədaxil	Məxaric	Yerdəyişmə	İstismara Vermə	Qalıq	Maya dəyəri
	CİSCO Telefon İP PHON 7945G UNİFİED 79	10.00	0.00	0.00	0.00	10.00	240.290910
	Floumetr və nəmləndirici Dentsan(Türkiyə)	0.00	0.00	2.00	0.00	0.00	80
	Kalkulyator	0.00	0.00	7.00	0.00	0.00	0.90
	Kondisioner	2.00	0.00	0.00	0.00	2.00	1180
	Lampa neon	0.00	0.00	10.00	0.00	0.00	2.36
	Mexaniki tonometr	0.00	0.00	5.00	0.00	0.00	6
	Mis boru d 12 2011-2	0.00	0.00	2.00	0.00	0.00	3
	Mobil telefon	3.00	0.00	0.00	0.00	3.00	157.333330
	Monitor Nexsus 23"	10.00	0.00	0.00	0.00	10.00	600.727270
	Notebook: HP Pavilion	5.00	0.00	0.00	0.00	5.00	961.163640
	Server HP Proliant DL 120 G7 1U	1.00	0.00	0.00	0.00	1.00	1180

Şək. 122. Maya dəyəri redaktə ediləcək malların siyahısı

Sonra siyahıda redaktə ediləcək mala uyğun olan sətrin qarşısında qeyd işarəsi qoyulur və həmin malın maya dəyərinə düzəliş edilir və əməliyyat təsdiqlənir. (**Şək. 123**).

Hamısını seç	Malın adı	Mədaxil	Məxaric	Yerdəyişmə	İstismara Vermə	Qalıq	Maya dəyəri
☑	CİSCO Telefon İP PHON 7945G UNİFİED 79	10.00	0.00	0.00	0.00	10.00	300
☐	Floumetr və nəmləndirici Dentsan(Türkiyə)	0.00	0.00	2.00	0.00	0.00	80
☐	Kalkulyator	0.00	0.00	7.00	0.00	0.00	0.90
☑	Kondisioner	2.00	0.00	0.00	0.00	2.00	1000
☐	Lampa neon	0.00	0.00	10.00	0.00	0.00	2.36
☐	Mexaniki tonometr	0.00	0.00	5.00	0.00	0.00	6
☐	Mis boru d 12 2011-2	0.00	0.00	2.00	0.00	0.00	3
☑	Mobil telefon	3.00	0.00	0.00	0.00	3.00	200
☑	Monitor Nexsus 23"	10.00	0.00	0.00	0.00	10.00	450
☐	Notebook: HP Pavilion	5.00	0.00	0.00	0.00	5.00	961.163640
☐	Server HP Proliant DL 120 G7 1U	1.00	0.00	0.00	0.00	1.00	1180

Şək. 123. Seçilmiş malların maya dəyərinə redaktə edilməsi

8.5. Sistem Hesablar Planı

SERP sistemində mühasibatlıq və analitik müxabirləşmələrin yaradılması üçün hər şeydən əvvəl Sistem Hesablar Planı yaradılmalı və sazlanmalıdır. Bu əməliyyatlar **Sistem Hesablar Planı** alt komponenti vasitəsilə yerinə yetirilir.

Sistem Hesablar Planı alt komponenti ilə işləmək yalnız inzibatçı səlahiyyətlərinə malik olan istifadəçilər üçün nəzərdə tutulmuşdur. Adi istifadəçilər üçün bu komponent deaktivdir.

Sistem Hesablar Planı alt komponentinin əsas interfeys səhifəsində Sistem Hesablar Planına dair cədvəl yerləşir (**Şək. 124**):



Hesabın növü | Yeni | Dəyişiklikləri s

			Hesab	Əlaqəli hesab
			103.1.2 Bank hesabları-14026	6001 Bank hesabları-14026
			231.2 Tikili və avadanlıq	6002 Tikili və avadanlıq – dəyər
			143 Verilmiş qısamüddətli avanslar	6003 Verilmiş qısamüddətli avanslar
			231.4 Sair torpaq, tikili və avadanlıq	6005 Sair torpaq, tikili və avadanlıq – dəyər
			103.1.11 Bank hesabları-14014	6006 Bank hesabları-14014
			631.3 Əvəzsiz olaraq alınmış aktivlər	6007 Əvəzsiz olaraq alınmış aktivlər
			231.2.2.08 bağlayıcı tikinti materiallarından istifadə olunmaqla bərk torpaqdan, habelə bunlara oxşar üsullarla salınmış yollar, meydançalar, aerodromlar, uçuş-enmə zolaqları, dönmə dairələri	6008 bağlayıcı tikinti materiallarından istifadə olunmaqla bərk torpaqdan, habelə bunlara oxşar üsullarla salınmış yollar, meydançalar, aerodromlar, uçuş-enmə zolaqları, dönmə dairələri
				6009 Digər uzunmmüddətli debitor borcları
			231.2.4.06 Hesablama texnikası	6010 Hesablama texnikası
			103.1.1 Bank hesabları-14023	6011 Bank hesabları-14023
				6012 Ödənişli tələbələr
			308.1.8 ƏDV	6013 ƏDV
			232.2.1.01 İki mərtəbədən artıq çoxmərtəbəli binalar	6014 İki mərtəbədən artıq çoxmərtəbəli binalar
			231.3 Nəqliyyat vasitəsi	6015 Nəqliyyat vasitəsi – dəyər
			231.2.2.06 metal qırıntılarından istifadə olunmaqla dəmir-betondan salınmış yollar, meydançalar, uçuş-enmə zolaqları, dönmə dairələri	6017 metal qırıntılarından istifadə olunmaqla dəmir-betondan salınmış yollar, meydançalar, uçuş-enmə zolaqları, dönmə dairələri
			121 Material ehtiyatları	6018 Material ehtiyatları
			103.1.4 Bank hesabları-10014	6019 Bank hesabları-10014
			103.10 Kapital qoyuluşu üzrə dövlət büdcəsindən yerli xərclərinin ödənilməsi üçün pul vəsaitləri	6020 Kapital qoyuluşu üzrə dövlət büdcəsindən yerli xərclərinin ödənilməsi üçün pul vəsaitləri
			234.1 Bitkilər – Dəyər	6021 Bitkilər . Dəyər
			308.1.1 Ştatda olan işçilərdən Gəlir vergisi	6022 Gəlir vergisi
			233 Torpaq, tikili və avadanlıq – Kapitallaşdırma	6023 Torpaq, tikili və avadanlıq üzrə xərclərin kapitallaşdırılması
			232.2.1.03 Taxta binalar istisna olmaqla iki mərtəbəli binala	6024 Taxta binalar istisna olmaqla iki mərtəbəli binala
			232.2.1.04 Daşdoğranılma, üyüdülmə, kimyavi, habelə bu kimi analoji proseslər üzrə istehsal üçün nəzərdə tutulmuş xüsusi texnoloji təyinatlı çoxmərtəbəli binalar,	6025 Daşdoğranılma, üyüdülmə, kimyavi, habelə bu kimi analoji proseslər üzrə istehsal üçün nəzərdə tutulmuş xüsusi texnoloji təyinatlı çoxmərtəbəli binalar,
			232.2.1.05 Divarı daşdan, dəmir-beton və digər uzunmüddətli metal örtüklərdən iri blok və panellərdən tikilmiş dəmir-beton karkassız birmərtəbəli binalar	6026 Divarı daşdan, dəmir-beton və digər uzunmüddətli metal örtüklərdən iri blok və panellərdən tikilmiş dəmir-beton karkassız birmərtəbəli binalar
			234.1.16 Küçələrdə,meydanlarda və s. bu kimi yerlərdə əkilən yaşıllaşdırma və dekorativ çoxillik əkmələr	6027 Küçələrdə,meydanlarda və s. bu kimi yerlərdə əkilən yaşıllaşdırma və dekorativ çoxillik əkmələr
			122.5 Aktivlərin amortizasiyası	6028 Aktivlərin amortizasiyası masin və avadanlıqlar

Şək. 124. Sistem Hesablar Planı

Sistem Hesablar Planına daxil olan hər bir hesabın rekvizitləri cədvəlin **Hesab** və **Əlaqəli hesab** sütunlarında əks olunmuşdur. **Hesab** sütununda hesabın Hesablar planından götürülmüş kodu və adı əks olunur. **Əlaqəli hesab** sütununda isə bu hesaba analoji olaraq yaradılan sistem hesabının kodu və adı göstərilir.

Cədvəlin yuxarısında yerləşən **Hesabın növü** açılan siyahısından istifadə etməklə yalnız seçilən hesab növünə aid olan hesabların siyahısını ekrana çıxarmaq olar.

Komponentin köməyi ilə cədvəl üzərində aşağıdakı funksional əməliyyatların yerinə yetirilməsi təmin olunur:

Yeni - yeni sistem hesabının yaradılması

Dəyişiklikləri s- cədvəlin sətirlərində edilmiş dəyişiklikləri yaddaşda saxlanılması

- seçilmiş sistem hesabına Hesablar planından seçilmiş hesabın bağlanması

- seçilmiş sistem hesabının məlumatlarına düzəliş edilməsi

- seçilmiş sistem hesabının silinməsi

8.5.1. Yeni sistem hesabının yaradılması

Yeni sistem hesabının yaradılması üçün aşağıdakı əməliyyatlar yerinə yetirilir:

1. Yeni funksional düyməsi vasitəsilə açılan ekran formasının sahələrinə aşağıdakı məlumatlar daxil edilir (**Şək. 125**)



Şək. 125. Yeni sistem hesabına dair məlumatlar

Kod- yeni yaradılacaq sistem hesabının kodu

Adı - sistem hesabının adı

Aktiv - hesabın aktiv və ya passiv olduğunu göstərmək üçün nəzərdə tutulur. Bu sahəyə müvafiq olaraq **A**, **P**, **AP** qiymətlərindən biri daxil edilir. Hesablar aktiv və ya passiv ola bilər. Məsələn: Pul vəsaitləri və Əsas vəsaitlərə dair hesablar aktiv, Gəlirlər və Amortizasiya hesabları isə passiv hesablardır. Bəzi hesablar isə özlərini bəzən aktiv, bəzən də passiv kimi apara bilər. Mənfəət (Zərər) hesabı belə hesablara nümunə ola bilər.

Hesab - sistem hesabının aid olduğu hesabın növü açılan siyahıdan seçilməklə daxil edilir.

Yeni yaradılan sistem hesabına bağlanan Hesablar planı hesabının İqtisadi təsnifat maddələri üzrə soraqçada əks olunması lazımdırsa, bu halda **Maddələr soraqçasında görünsünmü?** çekboksuna işarə qoyulur.

Yaradılan sistem hesabı balansdankənar hesabdırsa, bu halda **Balansdankənar** çekboksuna işarə qoyulur.

Sonra yeni sistem hesabına dair məlumatlar yaddaşda saxlanılır.

2. Növbəti mərhələdə yeni yaradılan sistem hesabı ilə Hesablar Planında ona uyğun olan hesab arasında əlaqənin yaradılması əməliyyatı aparılır. Bunun üçün funksional əməliyyatından istifadə olunur və Hesablar Planında uyğun olan hesabın seçimi edilir:

Hesab	Əlaqəli hesab
	1002 Emissiya gəliri
712 Digər xərclər	6000 Digər xərclər
103.1.2 Bank hesabları-14026	6001 Bank hesabları-14026
231.2 Tikili və avadanlıq – dəyər	6002 Tikili və avadanlıq – dəyər
143 Verilmiş qısamüddətli avanslar	6003 Verilmiş qısamüddətli avanslar
231.4 Sair torpaq, tikili və avadanlıq – (	6005 Sair torpaq, tikili və avadanlıq – dəyər
103.1.11 Bank hesabları-14014	6006 Bank hesabları-14014
631.3 Əvəzsiz olaraq alınmış aktivlər	6007 Əvəzsiz olaraq alınmış aktivlər

3. Nəhayət, Dəyişiklikləri s funksional əməliyyatı vasitəsilə sistem hesabı ilə Hesablar planı hesabı arasında əlaqə yaranır.

			Hesab	Əlaqəli hesab
				1002 Emissiya gəliri
			712 Digər xərclər	6000 Digər xərclər
			103.1.2 Bank hesabları-14026	6001 Bank hesabları-14026
			231.2 Tikili və avadanlıq – dəyər	6002 Tikili və avadanlıq – dəyər
			143 Verilmiş qısamüddətli avanslar	6003 Verilmiş qısamüddətli avanslar
			231.4 Sair torpaq, tikili və avadanlıq – dəyər	6005 Sair torpaq, tikili və avadanlıq – dəyər
			103.1.11 Bank hesabları-14014	6006 Bank hesabları-14014
			631.3 Əvəzsiz olaraq alınmış aktivlər	6007 Əvəzsiz olaraq alınmış aktivlər

8.6. Qeydiyyat kitabları

Qeydiyyat kitabları alt komponenti mühasibat uçotunda istifadə olunan qeydiyyat kitablarının yaradılması üçün istifadə olunur. **Qeydiyyat kitabları** alt komponenti ilə işləmək yalnız inzibatçı səlahiyyətlərinə malik olan istifadəçilər üçün nəzərdə tutulmuşdur. Komponentin baş interfeys pəncərəsində qeydiyyat kitablarına dair cədvəl yerləşir (**Şək. 126**):

Axtar Yeni

Təşkilat	Kodu	Adı	Cari	Qeyd	Amortizasiya hesablanması üsulu	Uçotun növü	
Azərbaycan Respublikası	4	Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartları	☐	Kommersiya təşkilatları üçün Milli Mühasibat Uçotu Standartları	Xətti üsul	Maliyyə uçotu	
Azərbaycan Respublikası	8	Büdcə Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartları	☑	Büdcə Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartları	Xətti üsul	Maliyyə uçotu	
Azərbaycan Respublikası	9	Qeyri-hökumət Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartı	☐	Qeyri-hökumət Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartı	Xətti üsul	Maliyyə uçotu	

1-0 of 0 Ekrana çıxan səhifələrin sayı: 10

Şək. 126. Qeydiyyat kitabları pəncərəsi

Qeydiyyat kitablarına dair cədvəl üzərində aşağıdakı əməliyyatların yerinə yetirilməsi nəzərdə tutulur:

Yeni - yeni qeydiyyat kitabının yaradılması

Axtar - seçilmiş qeydiyyat kitabının axtarışı

- qeydiyyat kitabının məlumatlarına düzəliş edilməsi

- seçilən qeydiyyat kitabının cədvəldən silinməsi

8.6.1. Yeni qeydiyyat kitabının yaradılması

Yeni qeydiyyat kitabı yaradılan zaman sistemə qeydiyyat kitabına dair aşağıdakı məlumatlar daxil edilməlidir:

- *Təşkilat* – təşkilatın adı
- *Kodu* – avtomatik olaraq ötürülür.
- *Adı* – qeydiyyat kitabının adı klaviaturadan daxil edilir.

- *Cari* – təşkilatda cari vaxtda həmin kitabdan istifadə olunursa, bu sahəyə qeyd işarəsi qoymaq lazımdır.
- *Qeyd* – qeydiyyat kitabına dair qeydlər klaviaturadan daxil edilir.
- *Amortizasiya hesablanması üsulu* – təşkilatda əsas vəsaitlərin amortizasiyası üçün hansı üsuldan istifadə olunursa, açılan siyahıdan həmin amortizasiya növünün adı seçilərək daxil edilir.
- *Uçotun növü* – açılan siyahıdan seçilməklə daxil edilir.

Yeni qeydiyyat kitabına dair məlumatlar bazada saxlanılan zaman *Təşkilat* və *Kitabın kodu* sahələrinə məlumatlar sistem tərəfindən avtomatik olaraq ötürülür. (**Şək. 127**).



Təşkilat	Kodu	Adı	Cari	Qeyd	Amortizasiya hesablanması üsulu	Uçotun növü
Azərbaycan Respublikası	4	Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartları	☐	Kommersiya təşkilatları üçün Milli Mühasibat Uçotu Standartları	Xətti üsul	Maliyyə uçotu
Azərbaycan Respublikası	8	Büdcə Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartları	☑	Büdcə Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartları	Xətti üsul	Maliyyə uçotu
Azərbaycan Respublikası	9	Qeyri-hökumət Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartı	☐	Qeyri-hökumət Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartı	Xətti üsul	Maliyyə uçotu
Azərbaycan Respublikası	10	Büdcə Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartları	☐	Büdcə Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartları	Azalan qalıq üsulu	Maliyyə uçotu

Şək. 127. Yeni qeydiyyat kitabının cədvələ əlavə olunması

Proqram təminatında istənilən maliyyə sənədini yaradan zaman və ya maliyyə hesabatlarını alan zaman qeydiyyat kitablarının seçimi tələb olunur. Seçilən qeydiyyat kitabından asılı olaraq aparılan əməliyyatlara uyğun olan müxabirləşmələrin yaradılması üçün istifadə olunan Hesablar Planı avtomatik olaraq proqram tərəfindən sazlanır. Həmçinin maliyyə uçotunda əsas vəsaitlərin amortizasiyası hesablananda qeydiyyat kitabında sazlanmış amortizasiya hesablanması üsulu tətbiq olunur.

8.7. Hesablar Planı

Hesablar Planı - hesabların sayını, qruplaşmasını, uçot obyektləri və məqsədlərindən asılı olaraq rəqəmlə işarələməni nəzərdə tutan mühasibat hesabları sistemidir. **Hesablar Planı** alt komponenti Hesablar Planının sistemə daxil edilməsi və onun üzərində əməliyyatların aparılması üçün işlənilmişdir. Hesablar Planının baş pəncərəsində hesab qruplarının nömrələri və adları əks olunur (**Şək. 128**):

Şək. 128. Hesablar Planı pəncərəsi

Hesablar Planı iyerarxik struktura malikdir. Hər bir hesab qrupu öz növbəsində alt qruplara bölünür. Hər bir hesab qrupunun adının qarşısındakı ▶ işarəsi bu hesab qrupunun alt hesablarının siyahısı ekrana çıxarmaq üçün nəzərdə tutulur. İyerarxik strukturda bütün alt hesabları açılmış hesab qrupunun qarşısında ▼ işarəsi əks olunur. İerarxik strukturda ən axırıncı elementlər heç bir alt hesabı olmayan hesablar sayılır və onların adının qarşısında ▷ işarəsi görünür. Beləliklə, **Şək. 128**-dəki Hesablar planının açılmış iyerarxik strukturu aşağıda təsvir olunmuşdur (**Şək. 129**):



Şək. 129. Hesablar Planının iyerarxik strukturu

Komponentin köməyi ilə Hesablar Planı üzərində aşağıdakı funksional əməliyyatları yerinə yetirmək olar:

Yeni - Hesablar Planında 1-ci səviyyəli yeni hesab qrupunun yaradılması

Əlavə etmək - Hesab qrupuna yeni alt hesabın əlavə edilməsi

Redaktə etmək - Seçilmiş hesabın məlumatlarına düzəliş edilməsi

Silmək - Seçilmiş hesabın silinməsi

8.7.1. Yeni hesab qrupunun yaradılması

Hesablar Planında 1-ci səviyyəli yeni hesab qrupunu yaratmaq üçün nəzərdə tutulmuş ekran formasına aşağıdakı rekvizitlərin məlumatları daxil edilir (**Şək.** ***130***):

Kod – yeni hesab qrupunun kodu

Adı - yeni hesab qrupunun adı

Hesab – sistem hesablar planına daxil olan hesab seçilir və bununla da Hesablar planının yeni hesab qrupu ilə Sistem Hesablar Planı arasında bağlantı təmin olunur.



Şək. 130. Yeni hesab qrupuna dair məlumatlar

8.7.2. Yeni alt hesabın yaradılması

Hesablar Planında hər hansı hesab qrupuna aid olan yeni alt hesabın yaradılması zamanı sistemə aşağıdakı məlumatlar daxil edilir (**Şək. 131**):

Şək. 131. Yeni alt hesaba dair məlumatlar

Şək. 131-də **121 Material ehtiyatları** hesab qrupuna daxil olan **121.2. Materiallar** alt hesabının yaradılması göstərilmişdir. Yeni hesab və ya alt hesab yaradılan zaman mütləq

kodun unikallığı şərti ödənməlidir. Əks halda proqram komponentində kodun unikallığının pozulması barədə xəbərdarlıq çıxır.

8.8. Mühasibat modelləri

Mühasibat modelləri yaradılan bütün sənədlər və aparılan əməliyyatlar üzrə avtomatik müxabirləşlərin yaradılması və Baş Kitabda əks olunmasını təmin edir. **Mühasibat modelləri** alt komponenti ilə işləmək yalnız inzibatçı səlahiyyətlərinə malik olan istifadəçilər üçün nəzərdə tutulmuşdur. Adi istifadəçilər üçün bu komponent aktiv deyil. Mühasibat modelləri komponentinin baş pəncərəsində sistemdə mövcud olan mühasibat modellərinə dair cədvəl yerləşir (**Şək. 132**):

Generasiya | ƏV Silinme

	Kod	Qısa adı	Adı	Qeydlər
	1	MDQ	Mədaxil qaiməsi	
	2	MXQ	Məxaric qaiməsi	Empty
	3	YRD	Daxili yerdəyişmə	Empty
	4	XMD	Xəzinə mədaxili	
	5	XMX	Xəzinə məxarici	
	6	SRV	Göstərilən işlər, xidmətlər	IFRS
	7	MD	Müxabirləşmələrin daxili	IFRS
	8	BMD	Bank mədaxili	
	9	AVF	Alınan verqi hesab faktura	Empty
	10	YGB	Yük gömrük bəyannaməsi	Empty
	11	BMX	Bank məxarici	
	12	VVF	Verilən verqi hesab faktura	Empty
	13	ƏVS	Əsas vəsaitlərin istismara verilməsi	
	14	VA	Valyuta alınması	Empty
	15	TMR	Təmir	Empty
	16	SAX	Satın alınan iş və xidmətlər	
	17	AM	Amortizasiyanın hesablanması	

Şək. 132. Mühasibat modelləri cədvəli

Mühasibat modelləri cədvəlində aşağıdakı məlumatlar əks olunur:

Kod – mühasibat modelinin kodu

Qısa adı – mühasibat modelinin qısa adı

Adı - mühasibat modelinin adı

Qeydlər – mühasibat modelinə dair qeydlər

Cədvəldəki modellər üzərində aşağıdakı əməliyyatların yerinə yetirilməsi təmin olunur:

- cədvəldə seçilmiş mühasibat modelinə aid olan müxabirləşmələrə düzəliş etmək, həmçinin mühasibat modelinə yeni müxabirləşmələrin əlavə edilməsi

- cədvəldəki mühasibat modelinə uyğun əməliyyatdan sonra sistemdə hansı əməliyyatların yerinə yetirilməsinə icazə verilməsini sazlamaq

Generasiya - cədvəldə seçilmiş hər hansı mühasibat modelinə uyğun müəyyən tarix intervalında yaradılmış müxabirləşmələrin yenidən generasiya olunması. Hər hansı mühasibat modelində düzəliş edilərsə və bu düzəlişin əvvəllər bu model üzrə yaradılmış müxabirləşmələrə təsiri varsa, bu halda müxabirləşmələr yenidən generasiya olunmalıdır.

ƏV Silinme - Bəzən müəyyən tarix intervalında istismara verilən əsas vəsaitlərin sistemdən əsas vəsaitlərin siyahısından silinməsi zərurəti yarana bilər. Bu əməliyyatı yerinə yetirmək üçün ƏV Silinme funksionallığından istifadə olunur.

8.8.1. Mühasibat modeli üçün müxabirləşmələrin yaradılması

Mühasibat modelinə aid olan yeni müxabirləşməni əlavə etmək üçün aşağıdakı əməliyyatlar ardıcıllığı yerinə yetirilir:

1. Mühasibat modelləri cədvəlində lazım olan mühasibat modeli (Bank məxarici) redaktə rejimində açılır (**Şək. 133**):



Şək. 133. Müxabirləşmə əlavə ediləcək mühasibat modeli

Seçilən mühasibat modelinə dair interfeys səhifəsinin birinci hissəsində mühasibat modelini xarakterizə edən əsas məlumatlar, ikinci hissədəki cədvəldə isə mühasibat modelinə aid olan müxabirləşmələr yerləşir. Modelin əsas məlumatları aşağıdakı rekvizitləri göstərir:

- **Kod** – mühasibat modelinə sistem tərəfindən verilən kod
- **Adı** – mühasibat modelinin adı
- **Qısa adı** - mühasibat modelinin qısa adı
- **Qeydlər** – mühasibat modelinə dair qeydlər, məsələn, modeli yaradan istifadəçinin adı
- **Əməliyyatın növü** – bu məlumat ⊙+ və ⊙- radiobottonlarından birini göstərir. Belə ki, əməliyyatın nəticəsi gəlirə uyğun olarsa, ⊙+, əksinə xərclərə uyğun olarsa, ⊙- radiobottou aktiv olur.

Mühasibat modelinə aid olan müxabirləşmələri əks etdirən cədvəlin hər bir sətrində bir müxabirləşmə əməliyyatı göstərilir. Cədvəlin sütunlarında aşağıdakı məlumatlar əks olunur: Debet, Kredit, İqtisadi təsnifat kodu, Kitab, Ödənişin növü, Qeydlər.

Mühasibat modelinə dair yeni müxabirləşmənin yaradılması zamanı yeni müxabirləşməyə dair əsas məlumatları, bu müxabirləşmənin yaradılma düsturunu və şərtlərini daxil etmək üçün nəzərdə tutulmuş ekran formasından istifadə olunur. Yeni müxabirləşmə barədə əsas məlumatlara aşağıdakı rekvizitlər aid edilir: *Debet hesabı*, *Kredit hesabı*, *Hesabın növü*, *İqtisadi təsnifat*, *Ödənişin növü*, *Maliyyə mənbəyi*, *Qeyd* (**Şək. 134**):



Şək. 134. Yeni müxabirləşməyə dair əsas məlumatlar

Müxabirləşmənin yaradılması düsturuna və şərtlərinə dair məlumat sətrinə aşağıdakı məlumatlar daxil edilir: *Debet hesabı*, *Kredit hesabı, Düstur, Şərt*, *Qeyd*

Əgər eyni bir əməliyyat zamanı bir neçə müxabirləşmə yaradılarsa, bu halda növbəti müxabirləşmə düsturunu və şərtlərini əlavə etmək lazım gəlir (**Şək. 135**):



Şək. 135. Müxabirləşmə düsturu və şərtlərinin daxil edilməsi

Proqram komponentində modelin hər hansı müxabirləşməsini redaktə etmək və silmək imkanları təmin olunmuşdur

8.9. Məlumatların idxalı /ixracı

Baş Kitab komponentinin tərkib hissələrindən biri olan **Məlumatların idxalı /ixracı** alt komponenti Excel tipli fayl şəklində olan məlumatların sistemə idxal olunması və sistemdə bazada olan məlumatların Excel tipli fayl şəklində ixrac olunması üçün istifadə olunur.

8.9.1. Məlumatların idxalı

Məlimatların idxalı əməliyyatlarını yernə yetirmək üçün **Məlumatların idxalı** alt komponentindən istifadə olunur. Bunun üçün əvvəlcə idxal fayllarının siyahısında idxal faylının tipləri üzrə seçim edilir. Sonra **Fayl seçin** funksional əməliyyatı vasitəsilə açılan WINDOWS pəncərəsində idxal olunacaq Excel faylını yükləmək lazımdır.

ni se baş menyuda **Baş kitab** bəndinə daxil olan **Məlumatların idxalı** modulunu yükləmək lazımdır **(Maliyyə uçotu => Baş Kitab => Məlumatların idxalı /ixracı => Məlumatların idxalı** üzərində maus sıxılır). Nəticədə ekrana **Məlumatların idxalı** adlı aşağıdakı pəncərə açılacaqdır:

Yüklədiyimiz HR məlumatlarına dair Excel faylının strukturu aşağıdakı şəkillərdə təsvir olunmuşdur:



Bölmə(ID)	Vəzifə(Kod)	İş məlumatı	Ştatın açılma tarixi	Ştatların miqdarı	İşçi heyət(Kod)	Vəzifənin təsnifatı(Kod)	Ştat vahidinin aylıq vəzifə maaşı	Dövrün başlanğıcı
50056232	1054		27.03.1945	1	07	0	795	2015



Əsas məzuniyyət günlərinin sayı	Ştatın açılma əmrinin nömrəsi	Ştatın açılma əmrinin tarixi	Tabel nömrəsi	Soyadı	Adı	Atasının adı	Təvəllüdü	Anadan olduğu ölkə
56			1234567	Hacızadə	Azad	Yavər	01.09.1946	031



Anadan olduğu şəhər	Cinsi(K/Q)	Ailə vəziyyəti(Kod)	Pin Kod	İşə daxil olma tarixi	Əmək müqaviləsi(Kod)	Ştat vahidi	Əsas/Əvəzçi	Ödənişin növü	Əmək haqqının təyin olunma tarix	Dərəcə	Əmsalı
400	K	02		17.12.2015	04	1	0	01		19	1



Dərəcənin təyin olunma tarixi	Vəzifə maaşı	Elmi dərəcə tarix	Elmi dərəcə	Staja görə əlavə tarix	Staja görə əlavə	Maddi yardım	Maddi yardım tarix	Bank Hesab nömrəsi	SSN
01.03.2016		01.03.2016	100						0109194600178

Nəhayət əməliyyatı yerinə yetirilir. Məlumatlar müvəffəqiyyətlə idxal olunarsa, bu barədə mesaj çıxır:

8.9.2. Məlumatların ixracı

Məlimatların ixracı əməliyyatlarını yernə yetirmək üçün **Məlumatların ixracı** alt komponentindən istifadə olunur. Bu komponentin əsas interfeys pəncərəsində ixrac olunacaq məlumatlara dair açılan siyahı yerləşir. Bu siyahıdan ixrac olunacaq məlumatların adını seçilir.

Sonra funksionallığını yerinə yetirməklə seçilən məlumatlar Excel tipli fayla ixrac olunacaqdır. **Məlumatların ixracı** proqram komponentində aşağıdakı məlumatların ixracı təmin olunur:

- *Hesablar Planı*
- *Sistem Hesablar Planı*
- *Mühasibat modelləri*
- *Anbarda olan mal-materialların ixracı*

Aşağıdakı şəkillərdə SERP sistemindən məlumatların ixracına dair nümunələr göstərilmişdir (**Şək. 136**), (**Şək. 137**), (**Şək. 138**):

	A	B	C	D	E	F	G	H	I	J	K	L
1	ID	NAME	LANG_ID	CODE	PARENT_CODE	USER_ID	BOOK_CODE	DELETED	PLANT_ID	ACCOUNTS_CARD_CODE	COMMENTS	LAST_UPDATE
2	6604	İlkin qalıq	1	0		4140	8	0	40003002	6798		27.02.2012 16:18
3	5483	Qısamüddətli aktivlər	1	1		4140	8	0	40003002	1		26.02.2013 14:43
4	5484	Pul vəsaitləri və onların ekvivalentləri	1	10	1	4140	8	0	40003002	10		26.02.2013 14:44
5	5485	Kassa	1	101	10	1631	8	0	40003002	6770		27.02.2012 16:18
6	5486	Yolda olan pul köçürmələri	1	102	10	1631	8	0	40003002	6761		15.11.2012 10:06
7	5487	Bankda olan hesablaşma hesabları	1	103	10	1631	8	0	40003002	6498		27.02.2012 16:18
8	12545	Dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərinin ödənilməsi üçün pul vəsaitləri	1	103,01	103	1631	8	0	40003002	6038		24.08.2012 16:02
9	12586	Kapital qoyuluşu üzrə dövlət büdcəsindən mərkəzləşdirilmiş xərclərinin ödənilməsi üçün pul vəsaitlər	1	103,02	103	1631	8	0	40003002	6032		15.11.2012 10:15
10	13645	Tikinti quraşdırma işləri	1	103.02.01	103,02	3422	8	0	40003002	103021		08.07.2013 13:12
11	13646	Maddi texniki təminatın möhkəmləndirilməsi	1	103.02.02	103,02	4140	8	0	40003002	103022		08.07.2013 13:12
12	13648	Sair xərclər	1	103.02.03	103,02	3422	8	0	40003002	6514		08.07.2013 13:13
13	13612	Texniki nəzarətin xərcləri	1	103.02.04	103,02	4140	8	0	40003002	6500		19.06.2013 1:47
14	14276	Kapital ayırmaları kimi qeyd olunmamış xərclər	1	103.02.05	103,02	4140	8	0	40003002	103026	MN	23.11.2015 16:25
15	13647	Yenilaşma investisiya	1	103.02.06	103,02	3422	8	0	40003002	6513		08.07.2013 13:13
16	14282	Proqram təminatı	1	103.02.07	103,02	4140	8	0	40003002	1030311	MN	03.12.2015 12:35
17	12587	Başqa (sair) büdcələrin hesabına xərclərinin ödənilməsi üçün pul vəsaitləri	1	103,03	103	1631	8	0	40003002	6035		23.10.2012 10:29
18	14251	Ehtiyat fond	1	103.03.01	103,03	4140	8	0	40003002	6547		06.11.2015 11:17
19	14232	Beynəlxalq standartlar	1	103.03.02	103,03	4140	8	0	40003002	6586		23.10.2015 17:03
20	13649	Aksiz markaları	1	103.03.03	103,03	3422	8	0	40003002	6516		08.07.2013 13:14

Export (1)

Şək. 136. Hesablar Planına dair məlumatların ixracı

	A	B	C	D	E	F	G	H	I	J
1	PLANT_ID	CODE	NAME	RIGHT_TABLE_NAME	AMORTIZATION_PERCENT	ACTIVE	USER_ID	FIXED_ACCOUNTS_CARD_CODE	ACCOUNT_TYPE_CODE	IS_FOUNDATION
2	40003002	8009	Digər ehtiyatlar (86, 87)							0
3	40003002	8011	Amortizasiya	DEPRECIATION		P	3588		9	0
4	40003002	10021	Mənfəət vergisi	DEPRECIATION		P		10004	15	0
5	40003002	10033	Verilmiş qısamüddətli avanslar	STAFF			3422		1	0
6	40003002	9027	İdman maşınları, idman notosikllari,idman velosipedləri və bu kimi başqa idman nəqliyyatları Amortizasiya	DEPRECIATION			4140	6496	9	0
7	40003002	9034	Təhtəlhesab məbləğlər (digər bank hesabları)	CLIENTS					6	0
8	40003002	9036	Təhsil məzuniyyət	EXPENSE			3581		3	0
9	40003002	9039	231.2.4	DEPRECIATION				6834	9	0
10	40003002	9045	Qonorar 15 % tutulma	CLIENTS			4140		6	0
11	40003002	9053	Xidmətlərin göstərilməsi üzrə qısamüddətli debitor borcların	CLIENTS					6	0
12	40003002	9029	Heyvanlar-Amortizasiya	DEPRECIATION			4140	9015	9	0
13	40003002	10012	Torpaq, tikili və avadanlıq üzrə ehtiyat fond	START_BALANCE			4140		10	0
14	40003002	9005	Sair uzunmüddətli aktivlər	PROFIT			4140		11	0
15	40003002	10	Pul vəsaitləri və onların ekvivalentləri				4140			0
16	40003002	24104	Patentlər	FIXED_ASSETS		P	4140		4	0
17	40003002	10004	Müəllif hüquqları	FIXED_ASSETS			4140		4	0
18	40003002	1	Qısamüddətli aktivlər				4140			0
19	40003002	10010	Pul vəsaitləri üzrə ehtiyat fond	FIXED_ASSETS			3582		4	0
20	40003002	10023	Tikililər-dəyər	DEPRECIATION		A	4140	6901	9	0
21	40003002	10027	Digər məqsədlər üçün istifadə edilən aktivlər				4140			0

Export (2)

Şək. 137. Sistem Hesablar Planına dair məlumatların ixracı

	A	B	C	D	E	F	G	H	I	J	K	L
1	DOCUMENT_TYPE_CODE	CONDITION_DEBIT_ACCOUNT_CODE	CONDITION_CREDIT_ACCOUNT_CODE	DEBIT_ACCOUNT_CODE	CREDIT_ACCOUNT_CODE	ENTRIES_COMMENTS	PAYMENT_TYPE_CODE	FOUNDATION_CODE	FINANCE_SOURCE_CODE	FORMUL	CONDITION	TRANSACTION_COMMENTS
2	60	7431	9015	10029	9015					:A+:AM		
3	60	743002	9015	10029	9015					:A+:AM		
4	60	6000	9015	10029	9015					:A+:AM		
5	60	7432	9015	10029	9015					:A+:AM		
6	36	6069	6109	6826	9018	Kənar			1	:A		
7	36	6069	7001	6826	9018	Kənar			1	:A		
8	36	6069	6013	6826	9018	Kənar			1	:A		
9	1	6688	6798	6688	10011					:A		
10	1	6688	6798	6688	10011					:A		
11	1	6071	6798	6071	10011					:A		
12	1	12103	6798	12103	10011					:A		
13	36	6688	30101	6040	10011	yeni			2	:A		
14	36	6776	30101	6040	10011	yeni			2	:A		
15	36	12103	30101	6040	10011	yeni			2	:A		
16	36	6776	30101	6040	10011	yeni B/K			1	:A		
17	36	12103	30101	6040	10011	yeni B/K			1	:A		
18	36	6688	30101	6040	10011	yeni B/K			1	:A		
19	36	6071	30101	6040	10011	yeni B/K			1	:A		
20	36	6018	6080	6040	10011	yeni			2	:A		
21	36	6071	6080	6040	10011	yeni B/K			1	:A		
22	36	6071	6539	6040	10011	yeni B/K			1	:A		
23	36	6018	6539	6040	10011	yeni B/K			1	:A		
24	36	12103	6539	6040	10011	yeni B/K			1	:A		

Şək. 138. Mühasibat modellərinə dair məlumatların ixracı

8.10. Sazlamalar

SERP sisteminin proqram komponentlərində bəzi əməliyyatların yerinə yetirilməsi zamanı müəssisə üçün xarakterik olan sazlamaların aparılması lazım gəlir. Hazırkı proqram komponentində aşağıdakı sazlamalar aparılır:

1. Müəssisənin ümumi sazlamaları
2. Bəyannamələrin sazlanması
3. Hesabatların yaradılması

8.10.1. Müəssisənin ümumi sazlamaları

Müəssisənin ümumi sazlamaları komponentinin köməyi ilə müəssisənin ümumi sazlamalarına dair cədvəl yaradılır. Cədvəlin sütunlarında sazlamanın adı, qiyməti və istifadəçi adı əks olunur (**Şək. 139**).

Şək. 139. Müəssisənin ümumi sazlamaları

Sazlamalar cədvəlinə yeni sazlama əlavə etmək və sazlamalar üzrə axtarış aparmaq mümkündür.

Aşağıdakı şəkildə yeni sazlamanın (**USEBUSİNESSTRİPS**) əlavə edilməsi təsvir olunur (**Şək. 140**):

USEBUSİNESSTRİPS parametri ezamiyyət haqqı üçün sazlanır. Bu parametrin təyinatı aşağıdakı qaydada aparılır:

USEBUSİNESSTRİPS =1 olarsa, ay daxilində ezamiyyət haqqı və qalan günlərin əmək haqları ayrı-ayrı hesablanır.

USEBUSİNESSTRİPS parametri 1-dən fərqli olarsa və ya belə bir sazlama daxil edilməyibsə, bu halda ezamiyyət günləri də adi iş günü sayılır və ezamiyyət haqqı qalan günlərin əmək haqqı ilə bir yerdə hesablanır.

Şək. 140. Yeni sazlamanın əlavə edilməsi

Müəssisənin ümumi sazlamarının əksəriyyəti əmək haqqı ilə bağlı olduğu üçün onların ətraflı izahı **Əmək haqqı** barədə sənəddə verilmişdir.

8.10.2. Bəyannamələrin sazlamaları

Bəyannamələrin sazlanmaları komponenti Azərbaycan Respublikası Vergilər Nazirliyinin İnternet Vergi İdarəsinə təqdim olunan aşağıdakı vergi bəyannamələrinin sazlanması üçün nəzərdə tutulur (**Şək. 141**):



Şək. 141. Bəyannamələrin sazlanması

Siyahıdakı hər hansı bəyannaməni sazlamaq üçün Yüklə funksionallığının köməyi ilə açılan WINDOWS pəncərəsində bəyannaməyə dair faylı kompüterdən yükləyirik.

Əgər artıq sistemdə sazlanmış bəyannamədə düzəliş etmək lazım gələrsə, bu halda Faylı endir funksionallığının köməyi ilə bəyannaməyə uyğun olan XML faylını kompüterdə saxlamaq lazımdır. Sonra bu XML faylında lazımi düzəlişlər edilir və yenidən yuxarıda şərh etdiyimiz qaydada bəyannamənin sazlanması əməliyyatı yerinə yetirilir.

Bəyannamənin sazlanmasından sonra **SERP** sisteminin **Məlumat mübadiləsi** alt komponentinin köməyi ilə bu bəyannamənin XML faylının məzmunu avtomatik olaraq alınır. Sonra bəyannamə faylı Vergilər Nazirliyinə məxsus olan **Bəyannamə Tərtibi Proqramı (BTP)** vasitəsilə açılır, emal edilir, paketlənir və İnternet Vergi İdarəsi saytından vergi orqanına göndərilir.

8.10.3. Hesabatların yaradılması

Hesabatların yaradılması alt komponenti maliyyə hesabatlarına dair şablon fayllarının yaradılması və sistemə əlavə edilməsi, həmçinin mövcud olan hesabatlara dair şablonların endirilməsi üçün nəzərdə tutulmuşdur. Adi istifadəçi üçün **Hesabatların yaradılması** əməliyyatlarının aparılması mümkün deyil, deaktivdir. Çünki bu əməliyyatlar yalnız yuxarı səlahiyyətləri olan istifadəçilər- inzibatçılar üçün aktivdir.

Hesabatların yaradılması komponentinin sazlanan hesabatların siyahısı aşağıdakı şəkildə verilmişdir (**Şək. 142**):

Şək. 142. Hesabatların yaradılması pəncərəsi

Siyahıda yaradılan hesabatların adı və onların endirilməsi üçün **Endir** adlı istinad göstərilir. Həmçinin yeni hesabat yaratmaq, hesabata düzəliş etmək və hesabatı silmək əməliyyatları da təmin olunmuşdur.

Sistemdə mövcud olan hesabatlara dair şablonları endirmək üçün **Endir** istinadı aktivləşdirilir. Nəticədə hesabata dair şablon faylı Excel tipli fayla ixrac olunur. Aşağıdakı şəkillərdə maliyyə hesabatlarının şablon formalarına dair nümunələr göstərilir (**Şək. 143**), (**Şək.** ***144***), (**Şək. 145**).

MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT **ƏLAVƏ 1**

«31» «dekabr» #yer il tarixə

VÖEN #tpn

Müəssisə, təşkilat #ent

(Nümunə)

Sahə(fəaliyyət növü) #pan

Mülkiyyətin növü

Ölçü vahidi: manat

Bölmə/ maddə	Bölmə/Maddələrin adı	Qeydlər	Hesabat dövrü üzrə		Əvvəlki dövr üzrə	
1	2	3	4	5	6	7
	AKTİVLƏR					
1	**Qısamüddətli aktivlər**					
10	Pul vəsaitləri və onların ekvivalentləri		#getdebitend(10)-getcreditend(10)		#getdebitbegin(10)-getcreditbegin(10)	
11	Qısamüddətli debitor borcları		#getdebitend(11)-getcreditend(11)		#getdebitbegin(11)-getcreditbegin(11)	
12	Ehtiyatlar		#getdebitend(12)-getcreditend(12)		#getdebitbegin(12)-getcreditbegin(12)	
13	Sair qısamüddətli maliyyə aktivləri		#getdebitend(13)-getcreditend(13)		#getdebitbegin(13)-getcreditbegin(13)	
14	Sair qısamüddətli aktivlər		#getdebitend(14)-getcreditend(14)		#getdebitbegin(14)-getcreditbegin(14)	
	Cəmi qısamüddətli aktivlər			#ЗНАЧ!		#ЗНАЧ!
2	**Uzunmüddətli aktivlər**					

Şək. 143. Maliyyə vəziyyəti haqqında hesabatın şablonu

MALİYYƏ FƏALİYYƏTİNİN NƏTİCƏLƏRİ HAQQINDA HESABAT (xərclərin xüsusiyyəti üzrə) ƏLAVƏ 2

«31» #ye il

M#ent

ölçü vahidi: manat

Bölmə/ maddə	Bölmə/Maddələrin adı	Qeydlərə istinad	Hesabat dövrü üzrə	Hesabat dövrü üzrə	Əvvəlki dövr üzrə	Əvvəlki dövr üzrə
1	2	3	4	5	6	7
1	**Gəlirlər**					
	Qeyri-birja əməliyyatlarından gəlir		#ЗНАЧ!		#getsaldobegin(334,62)+getsaldobegin(111,62)+getsaldobegin(332,62)-getsaldobegin(62,334)+getsaldobegin(62,111)+getsaldobegin(62,332)	
	Birja əməliyyatlarından gəlir		#ЗНАЧ!		#getsaldobegin(111,611)-getsaldobegin(111,612)-getsaldobegin(111,613)-getsaldobegin(611,111)-getsaldobegin(612,111)-getsaldobegin(613,111)	
	Sair əməliyyat gəliri		#ЗНАЧ!		#getsaldobegin(334,63)+getsaldobegin(111,63)+getsaldobegin(332,63)-getsaldobegin(63,334)+getsaldobegin(63,111)+getsaldobegin(63,332)	
	Cəmi gəlirlər			#ЗНАЧ!		#ЗНАЧ!
2	**Xərclər**					
	Əmək haqqı, maaş və işçilərin mükafatlandırılması		#ЗНАЧ!		#getsaldobegin(73,122.4)+getsaldobegin(70,122.4)+getsaldobegin(74,122.4)	
	Maliyyə yardımları və sair transfer ödənişləri		0,00			
	Təchizat və istehsal prosesində sərf edilən xammal və materiallar		#ЗНАЧ!		#getsaldobegin(73,122.3)+getsaldobegin(70,122.3)+getsaldobegin(74,122.3)+getsaldobegin(73,122.1)+getsaldobegin(70,122.1)+getsaldobegin(74,122.1)+getsaldobegin(73,122.2)+getsaldobegin(70,122.2)+getsaldo	

Şək. 144. Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabatın şablonu



İDARƏLƏRİN (MÜƏSSİSƏ VƏ TƏŞKİLATLARIN) XƏRCLƏR SMETASININ İCRASI HAQQINDA HESABAT

2 №-li forma

Kodlar

İdarə, müəssisə, təşkilat #ent

Dövriliyi: 01 iyul, 01 oktyabr və illik #yer ci il

Ölçü vahidi: manatla

Göstəricilər	Maddə	Sətir	Hesabat dövrü üçün smeta üzrə təsdiq edilib	Hesabat dövründə maliyyələşmə	Kassa xərcləri	Faktiki xərclər
1	2	3	4	5	6	7
Əməyin ödənişi	*210000*	*10*	#ЗНАЧ!	#ЗНАЧ!	#ЗНАЧ!	#ЗНАЧ!
Əmək haqqı	*211000*	*11*	#ЗНАЧ!	#ЗНАЧ!	#ЗНАЧ!	#ЗНАЧ!
Ştatda olan işçilərin əmək haqqı	211100	12	#getbudgetcost(211100)	#getsaldo(103,111,OTHER_EXPENSES,211100,) getsaldo(111,103,OTHER_EXPENSES,211100,)	#getcredit(103,OTHER_EXPENSES,211100) - getsaldo(103,307,OTHER_EXPENSES,211100,) - getsaldo(111,103,OTHER_EXPENSES,211100,)	#getdebit(122,OTHER_EXPENSES,211100)- getsaldo(307,122,OTHER_EXPENSES,211100,)
Ştatdankənar işçilərin əmək haqqı	211200	13	#getbudgetcost(211200)	#getsaldo(103,111,OTHER_EXPENSES,211200,) getsaldo(111,103,OTHER_EXPENSES,211200,)	#getcredit(103,OTHER_EXPENSES,211200)- getsaldo(103,307,OTHER_EXPENSES,211200,) - getsaldo(111,103,OTHER_EXPENSES,211200,)	#getdebit(122,OTHER_EXPENSES,211200)

Şək. 145. Xərclər smetasının icrası haqqında hesabatın şablonu

9. MALİYYƏ SORAQÇALARI KOMPONENTI

*Sənədin bu bölməsində **Sinam Müəssisə Resurslarının İdarə Edilməsi (SERP)** sisteminin proqram kompleksinə aid olan **Maliyyə soraqçaları** komponentinin təyinatı, onun funksional imkanlarının təsviri verilmişdir.*

Bölmə müəssisə və təşkilatlarda maliyyə uçotuna dair əməliyyatları yerinə yetirən mühasibat işçiləri üçün nəzərdə tutulmuşdur.

9.1. Komponentin təyinatı

SERP avtomatlaşdırılmış idarəetmə sisteminin əsas tərkib hissəsi olan **Maliyyə uçotu** alt sisteminin əsas komponentlərindən biri də **Maliyyə soraqçaları** alt komponentidir. Bu komponent ümumi normativ məlumatların saxlanılması və emalı üçün nəzərdə tutulmuşdur.

İstifadəçi müvafiq səlahiyyətə malik olduqda, soraqçalardakı məlumatlara baxa və onları redaktə edə bilər. Bütün soraqçalar vahid dizaynda hazırlanmışdır və əlavə etmək, redaktə

etmək, silmək və axtarış imkanlarına malikdir. Soraqçalar informasiyanı vahid şəklə salmağa və verilənlərin sürətlə daxil edilməsini təmin etməyə kömək edir.

SERP sistemində maliyyə uçotuna dair 20 soraqça yaradılmışdır. Adi səlahiyyətlərə malik olan istifadəçilər üçün adətən aşağıdakı soraqçalarla işləmək hüququ verilir:

- ✓ Cavabdehlər
- ✓ Təhtəlhesab
- ✓ Xarici banklar
- ✓ Kontragentlər
- ✓ Müəssisənin bank hesabları
- ✓ Mal-qiymətli əşyalar
- ✓ Əsas vəsaitlər
- ✓ Satın alınan işlər və xidmətlər
- ✓ Büdcə növləri
- ✓ İqtisadi təsnifat
- ✓ Görülmüş işlər və göstərilən xidmətlər

Adi istifadəçilər bu soraqçalara yazı əlavə etmək, redaktə etmək, silmək hüquqlarına malikdir. Sistemdə elə soraqçalar mövcuddur ki, yalnız inzibatçı səlahiyyətli istifadəçilər bu soraqçalarla işləmək səlahiyyətlərinə malikdir. Belə soraqçalara aşağıdakıları aid etmək olar:

- ✓ Banklar
- ✓ Valyutalar
- ✓ Valyuta məzənnəsi
- ✓ Amortizasiya dərəcələri
- ✓ ƏDV növləri
- ✓ Vahidlər
- ✓ Təsdiqedici sənədlər
- ✓ Təbii itki normaları
- ✓ Dəyərli əşyalar

Aşağıdakı cədvəldə **Maliyyə uçotu** modulunun soraqçaları və onların təyinatları əks olunmuşdur (**Şək. 146**):

Müəssisə Resurslarının İdarə Edilməsi Sistemi

№	Adı	Təsviri
1.	Banklar	Bu soraqçada banklar haqqında əsas məlumatlar saxlanılır. Bütün banklar və onların rekvizitləri daxil edilə bilər.
2.	Xarici banklar	Bu soraqçada xarici banklar haqqında əsas məlumatlar: kodu, adı, müxbir hesab, SWIFT, VÖEN, Ünvan, Ölkə, Şəhər, Filial məlumatları saxlanılır.
3.	Kontragentlər	Soraqçada kontragentlərə dair əsas məlumatlar saxlanılır. Məsələn, Hesabın kodu, Müştərinin adı, VÖEN, bank hesab nömrələri, əlaqə məlumatları
4.	Valyutalar	Soraqçada təşkilatın fəaliyyəti zamanı istifadə olunan əsas valyutalar haqqında informasiya saxlanılır.
5.	Valyuta məzənnəsi	Soraqçada təşkilatın istifadə etdiyi valyutalara aid olan məzənnələr haqqında informasiya saxlanılır. Valyuta məzənnələrinin gündəlik qaydada Milli bankın və təşkilata lazım olan başqa bankların saytlarından avtomatik rejimdə idxal edilməsi imkanı mövcuddur.
6.	Müəssisənin bank hesabları	Soraqçada təşkilatın maliyyə fəaliyyəti ilə bağlı olan bank hesabları haqqında informasiya saxlanılır. İnformasiya müəssisənin bütün banklarda açılan hesabları və bank hesablarına aid olan bütün valyutalar üzrə saxlanılır.
7.	Əsas vəsaitlər	Soraqça ierarxik quruluşa malikdir və soraqçada müəssisənin əsas vəsaitləri, onların kodları və bağlandığı hesab qruplarının kodları, satış qiymətləri, vahidi, istehsal olduğu ölkə, ştrux- kod və s. əks olunmuşdur.
8.	Mal-qiymətli əşyalar	İyerarxik quruluşlu bu soraqça müəssisənin mal-qiymətli əşyaların adları, ölçü vahidləri, istehsalçı ölkələri, ştrix-kodları, anbarda qalmasına imkan verilən minimal miqdarları, realizasiya faizləri haqqında informasiyanın saxlanılması üçün nəzərdə tutulmuşdur.
9.	Satın alınan işlər və xidmətlər	Soraqçada təşkilatın satın aldığı xidmətlər haqqında informasiya- xidmətin adı, vahidi, məbləğ və s. saxlanılır.
10.	Görülmüş işlər və göstərilən xidmətlər	Soraqçada təşkilatın görülmüş işlər və xidmətlər haqqında məlumatlar- xidmətin adı, vahidi, məbləğ və s. saxlanılır.

11.	Büdcə növləri	Soraqçada təşkilata aid olan bütün və açıq büdcə növlərinə dair əsas məlumatlar: büdcənin adı, maliyyə mənbəyi, Xəzinə Hesab kitabının kodu, fond, funksional təsnifat kodu, bitmə tarixi və büdcə barədə digər qeydlər saxlanılır.
12.	Amortizasiya dərəcələri	Bu soraqça əsas vəsait qrupları və qeyri-maddi aktivlər üçün amortizasiyanın hesablanması ilə bağlı faiz tariflərinin saxlanılması üçün nəzərdə tutulmuşdur.
13.	İqtisadi təsnifat	İqtisadi təsnifat soraqçası pul vəsaitlərinin hərəkəti ilə bağlı əməliyyatların təsnifatı üçün nəzərdə tutulmuşdur. Ödəniş sənədlərinin (ödəniş tapşırıqları, xəzinə sənədləri və s.) hazırlanması zamanı pul vəsaitlərinin hərəkəti ilə bağlı müvafiq iqtisadi təsnifat maddəsini göstərmək lazımdır.
14.	Təsdiqedici sənədlər	Bu soraqçada müəssisənin apardığı maliyyə əməliyyatları zamanı yaradılan təsdiqedici sənədlərin siyahısı əks olunmuşdur.
15.	ƏDV növləri	Bu soraqçada ƏDV növləri və onlara uyğun olan ƏDV faizləri əks olunur.
16.	Təhtəlhesab	Bu soraqçada sistemdə yaradılan təhtəlhesab hesabların kodları və uyğun kontragentlərin adları saxlanılır.
17.	Vahidlər	Soraqçada sistemdə istifadə olunan mal və xidmətlərə uyğun ölçü vahidlərinin kodları və adları saxlanılır.
18.	Dəyərli əşyalar	Bu soraqçada avtonəqliyyat vasitələrinin ləğvi zamanı onun ehtiyat hissələrinin tərkibindən çıxan qiymətli metallar və s. barədə məlumatlar əks olunur.
19.	Cavabdehlər	Soraqça müəssisənin əsas vəsaitləri və mal-material üzrə cavabdehlər barədə məlumatları özündə saxlayır.

20.	Təbii itki normaları	Bir sıra məhsullar, toz və maye halında olan, səpələnən, dağılan və digər bu qəbildən olan mallar onların saxlanılması, yüklənməsi, boşaldılması, daşınması, satışı zamanı təbii olaraq müəyyən qədər itkilərə məruz qalırlar. "Mühasibat uçotu haqqında" Qanunun müddəalarına uyğun olaraq müəssisələr tərəfindən və digər müvafiq sahəvi normativ aktlara əsasən hər bir müəssisənin və sahənin xüsusiyyətləri nəzərə alınaraq bu itkilərin normaları təsdiq edilir ki, bunlar da "Təbii itki normaları" adlanırlar. Sistemdə yaradılan bu soraqça Təbii itki normalarını əks etdirir.

Şək. 146. Soraqçaların təyinatı

Soraqçalarla iş prosesini konkret soraqçalar üzərində geniş şərh edək.

9.2. Kontragentlər soraqçası

Kontragentlər soraqçası müəssisə və təşkilatların təchizatçıları və alıcıları haqqında məlumatların daxil edilməsi üçün nəzərdə tutulmuşdur (**Şək. 147**):



Şək. 147. Kontragentlər soraqçası

Kontragentlər soraqçasında mövcud olan kontragentlərin aid olduğu hesablar planının uçot hesablarının əks etdirən struktur və hər bir hesaba aid olan kontragentlərə dair aşağıdakı məlumatlardan ibarət cədvəl yerləşir:

- Hesab kodu

- Müştərinin kodu
- Müştərinin adı
- VÖEN
- Telefon
- E-mail
- Ünvan

Kontragentlərin bağlandığı hesablar üzərində aşağıdakı əməliyyatların yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

Yeni- hesablara dair struktura yeni subhesabın əlavə edilməsi;

Düzəliş– hesaba düzəliş edilməsi;

Silmək- hesabın strukturdan silinməsi;

Yerdəyişmə- hesabın strukturda yerinin dəyişdirilməsi.

Həmçinin kontagentlərə dair cədvəlin məlumatları üzərində aşağıdakı əməliyyatların aparılması təmin olunmuşdur:

Axtarış- kontragentin adına görə axtarış;

Yerdəyişmə- kontragentin hesablara dair strukturda bir hesabdan digərinə keçirilməsi;

Nüsxəsini çıxarmaq- kontragentin məlumatlarının nüsxəsini strukturda digər hesaba əlavə etmək;

Yeni- cədvələ yeni kontragentin əlavə edilməsi;

Merge- cədvəldə eyni bir kontragentə aid olan və kodu və adı ilə fərqlənən məlumatların birləşdirilməsi;

Çap- kontragentlərə dair cədvəlin Excel tipli fayla ixrac edilməsi və çap edilməs;

- kontragentin məlumatlarına düzəliş edilməsi;

- kontragentin məlumatlarının silinməsi;

- kontragentin məlumatları ilə bağlı kontragent vərəqəsinin alınması.

9.2.1. Yeni kontragentin yaradılması

Yeni kontragentli yaradan zaman əvvəlcə onun hesablara dair strukturdakı hansı analitik hesaba bağlanacağı müəyyən edilir. Bunun üçün hesablara dair strukturda hesablar planının analitik hesabı seçilməlidir. Sonra yeni kontragentə dair məlumatlar aşağıdakı üç qrup üzrə sistemə daxil edilməlidir:

- Kontragentə dair əsas məlumatlar – bu məlumatlara aşağıdakılar aid edilir: Adı, VOEN, ƏDV, Menecer, Pasport №, Qısa adı, Ünvan, Telefon, Faks, E-mail, Əlaqəli şəxs, Passiv, Ödəniş növünün tipi.
- Bank hesablarına dair məlumatlar- kontragentin bank hesablarına dair məlumatlara Bankın kodu, Bankın adı, Hesab nömrəsi, S.W.I.F.T, Müxbir hesabı və VÖEN aiddir.
- Güzəştlər - Mal-material qiymətlilərə görə güzəşt şərtlərinə dair aşağıdakı məlumatları sistemə daxil etmək lazımdır: Mal/ Malın qrupu, Faiz, Məbləğ, Tarix.

Yeni yaradılmış kontragentə dair əyani nümunə aşağıdakı şəkildə əks olunmuşdur (**Şək. 148**):



Şək. 148. Yeni kontragentə dair məlumatlar

SERP proqram modulunda yeni kontragent barədə məlumatları şablon faylları vasitəsilə soraqçaya idxal etmək funksionalı da işlənilmişdir. Bunun üçün **Baş Kitab** komponentinə aid olan **Məlumatların idxalı** alt komponentinin köməyi ilə şablon faylını kompüterin yaddaşından yükləmək lazımdır.

Kontragentlər soraqçasına yüklənən şablon faylı aşağıdakı qaydada doldurulmalıdır (**Şək. 149**):

	A	B	C	D	E
1	Hesab-analitika	Kontragentin adı	Kontragentin VÖEN-i	Bankın kodu	Hesablaşma hesabı
2	301.1	ŞİRVAN ŞƏHƏRİ ÜZRƏ MALİYYƏ İDARƏ	2100090341	210005	AZ40CTRE00000000000002113031
3					
4					

Лист1

Şək. 149. Kontragentlər soraqçası üçün şablon faylı

9.3. Cavabdehlər soraqçası

Cavabdehlər soraqçası müəssisənin əsas vəsaitləri və mal-material üzrə cavabdehlər barədə məlumatlardan təşkil olunmuşdur. Bu soraqçaya dair cədvəldə cavabdehlərə dair aşağıdakı məlumatlar əks olunur (**Şək. 150**):

- Soyadı
- Adı
- Atasının adı
- Xərc maddəsi
- Bitmə tarixi
- İstifadəçi



Soyadı	Adı	Atasının adı	Xərc mərkəzi	Bitmə tarixi	İstifadəçi	Sonuncu düzəliş
Abasov	Oqtay	Məsim	Rəhbərlik	20.07.2017	TEST_TEQDIMAT	20.07.2017 4:13:58 PM
Abdurazaqov	Rauf	Şəgürə	İcra Baş İdarəsi		TEST_TEQDIMAT	12.04.2017 10:19:29 AM
Bəkirov	Maqsud	Muxtar	Rəhbərlik		TEST_TEQDIMAT	20.07.2017 4:13:58 PM
Feyzullayev	Nəcəf	Qəzənfər	Rəhbərlik		TEST_TEQDIMAT	12.04.2017 10:18:08 AM
Kazımov	Müslim	Məcid	Təşkilat-nəzarət baş idarəsi		TEST_TEQDIMAT	12.04.2017 10:18:46 AM
Musayev	Dəyanət	Himalay	Maliyyə və təminat idarəsi		TEST_TEQDIMAT	12.04.2017 10:04:29 AM
Məmmədov	Nazir	Feyruz	Təsərrüfat xidməti		TEST_TEQDIMAT	11.04.2017 10:12:45 AM
Məsimova	Sədaqət	Nurəddin	Katiblik		TEST_TEQDIMAT	11.04.2017 10:20:08 AM
Namazova	Mətanət	Nazim	Rəhbərlik	23.07.2017	TEST_TEQDIMAT	20.07.2017 4:13:58 PM
Qasımov	Niyazi	Nəsib	İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsi		TEST_TEQDIMAT	11.04.2017 10:06:58 AM
Qasımova	Yeganə	Manaf	Texniki təminat idarəsi		TEST_TEQDIMAT	11.04.2017 10:08:36 AM
Qulamov	Əli	Həsən	Qanunvericilik baş idarəsi		TEST_TEQDIMAT	10.04.2017 6:58:02 PM
Qəhrəmanova	Əntiqə	Cabbar	Kadrlar idarəsi		TEST_TEQDIMAT	11.04.2017 10:10:45 AM
Rizayeva	Günel	Balabəy	İdarə Heyəti		TEST_TEQDIMAT	20.07.2017 4:39:40 PM
Vəliyev	Tural	Misir	Anbar		TEST_TEQDIMAT	10.04.2017 7:38:31 PM

Şək. 150. Cavabdehlər soraqçası

Cavabdehlər soraqçasına yeni cavabdeh əlavə etmək, **Xərc mərkəzi** sahəsinə görə axtarış aparmaq, yalnız aktiv olan cavabdehlərin və ştatdan kənar cavabdehlərin siyahısını ekrana çıxarmaq olar.

9.3.1. Yeni cavabdehin əlavə edilməsi

Cavabdehlər soraqçasına yeni cavabdeh əlavə etmək üçün aşağıdakı seçim əməliyyatlarını yerinə yetirmək lazımdır: **Xərc mərkəzi** rekvizitü üçün cavabdehin təhkim olunduğu şöbə, cavabdehin işlədiyi şöbə, cavabdehin adı (**Şək. 151**).



Şək. 151. Cavabdehin seçilməsi

Cavabdehi deaktiv ermək lazım gələrsə, bu halda soraqçaya həmin cavabdehə aid olan **Bitmə tarixi** rekvizitinə cavabdehin fəaliyyətinin dayandırıldığı tarixi əlavə etmək lazımdır.

9.4. Mal-qiymətli əşyalar soraqçası

Mal-qiymətli əşyalar soraqçası müəssisənin balansında olan mal-materiallar haqqında məlumatların daxil edilməsi üçün nəzərdə tutulmuşdur. Bu soraqçanın interfeys pəncərəsində solda mal-qiymətli əşyaların aid olduğu hesablar planının uçot hesablarının adlarını göstərən struktur, sağda işə sol tərəfdə seçilmiş hər bir hesaba uyğun olan mal-qiymətli əşyalara dair aşağıdakı məlumatlardan ibarət cədvəl yerləşir (**Şək. 152**):

- Hesabın kodu
- Malın kodu
- Malın adı



Şək. 152. Mal-qiymətli əşyalar soraqçası

Mal-qiymətli əşyalar soraqçasında hesablara dair struktur üzərində aşağıdakı əməliyyatların yerinə yetirilməsi təmin olunur:

Yeni alt bənd- struktura yeni subhesabın əlavə edilməsi;

Düzəliş- hesaba düzəliş edilməsi;

Silmək- hesabın strukturdan silinməsi;

Yerdəyişmə- hesabın strukturda yerinin dəyişdirilməsi.

Həmçinin mal-qiymətli əşyalara dair cədvəlin məlumatları üzərində aşağıdakı əməliyyatların aparılması nəzərdə tutulur:

Axtarış- malın adına görə axtarış;

Yerdəyişmə- cədvəldə seçilmiş hər hansı malın hesablara dair strukturda bir hesabdan digərinə keçirilməsi;

Yeni- soraqçaya yeni mal-qiymətli əşyanın əlavə edilməsi;

Seçilmişləri sil- cədvəldə seçilmiş malların silinməsi;

Merge- cədvəldə eyni bir mala aid olan və kodu və adı ilə fərqlənən məlumatların birləşdirilməsi.

- seçilmiş mal -qiymətli əşya üçün **Məhsul üzrə hərəkət** hesabatının alınması;

- seçilmiş mal-qiymətli əşyanın digər hesaba əlavə edilməsi.

9.4.1. Yeni mal-qiymətli əşyanın əlavə edilməsi

Yeni mal-qiymətli əşyanı soraqçaya əlavə etmək üçün əvvəlcə strukturda malın bağlanacağı uçot hesabını və analitik hesabı seçirik. Sonra mal-qiymətli əşyanın rekvizitlərinə dair məlumatları sistemə daxil edirik (**Şək. 153**).



Şək. 153. Yeni mal-qiymətli əşyanın məlumatları

9.4.2. Axtarış

Mal-qiymətli əşyalara görə axtarış aparmaq üçün interfeysdə **Malın adı** axtarış sahəsinə malın adını daxil edərək axtarış əməliyyatını yerinə yetirmək lazımdır (**Şək. 154**):

Şək. 154. Mal-qiymətli əşyalar üzrə axtarış

9.4.3. Yerdəyişmə

Mal-qiymətli əşyalara dair cədvəldə seçilmiş malın yerdəyişməsi əməliyyatını yerinə yetirən zaman mütləq hesablara dair strukturda yeni hesabı və analitik hesabı seçmək lazımdır (**Şək. 155**):



Şək. 155. Yerdəyişmə ediləcək hesabın seçilməsi

9.4.4. Məhsulun hərəkəti hesabatı

Mal-qiymətli əşyalar soraqçasında hər hansı analitik hesaba daxil olan mal-materiala aid **Məhsulun hərəkəti** hesabatında seçilmiş tarix intervalında həmin malın üzərində aparılan əməliyyatlar ətraflı təsvir olunur (**Şək. 156**):



Sənəd		Məxaric	Mədaxil	Miqdar (Mədaxil)	Miqdar (Məxaric)	1 ədədin maya dəyəri (AZN)	Vahidin Qiyməti (Manatla)	Təchizatçı Qiyməti	Mədaxil tarixi
Tarix	№								
02.08.2017	Daxili yerdəyişmə/537499/15	Anbar	Qeydiyyat idarəsi	2.00		157.3333	157.3333	157.3333	30.07.2017
04.08.2017	Daxili yerdəyişmə/537500/21	İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsi	Qeydiyyat idarəsi		1.00	157.3333	157.3333	157.3333	
05.08.2017	Mal materialın silinməsi/1500015362/15	122.3 İstifadə olunmuş materiallar	Qeydiyyat idarəsi		2.00	157.3333	157.3333	157.3333	30.07.2017
				2.00	3.00				

Sənədin növü	Kimdən	Kimə	Miqdar	Məbləğ
Daxili yerdəyişmə	Anbar	Qeydiyyat idarəsi	2.00	314.67
Daxili yerdəyişmə	Qeydiyyat idarəsi	İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsi	1.00	157.33
Mal materialın silinməsi	Qeydiyyat idarəsi	İstifadə olunmuş əsas materiallar	2.00	314.67

Şək. 156. Məhsulun hərəkəti hesabatı (mal-qiymətli əşya üçün)

9.4.5. Merge əməliyyatı

Müxtəlif kodlu və eyni adlı malların birləşdirilməsi (Merge) əməliyyatını yerinə yetirən zaman saxlanılacaq koda uyğun olan yazını seçmək lazımdır (**Şək. 157**).

Şək. 157. Merge əməliyyatı

Merge əməliyyatından sonra müxtəlif kodlu və eyni adlı mallara aid soraqçada yalnız bir bir məlumat sətri yaranacaqdır.

9.5. Müəssisənin bank hesabları soraqçası

Müəssisənin bank hesabları soraqçasında müəssisənin bank hesablarına dair aşağıdakı məlumatlar saxlanılır (**Şək. 158**).

- Kodu
- Adı
- Müxbir hesab
- Hesab nömrəsi
- Valyuta
- SWIFT
- VÖEN
- Qeyd
- Bağlanma tarixi



Şək. 158. Müəssisənin bank hesabları soraqçası

Komponentdə yaradılan funksionallıqlar vasitəsilə müəssisənin bank hesablarına dair aşağıdakı əməliyyatların yerinə yetirilməsi nəzərdə tutulur:

Yeni - soraqçaya yeni yeni bank hesabının əlavə edilməsi;

Axtar- müəssisənin bank hesabları üzrə axtarış;

Yerdəyişmə- cədvəldə seçilmiş müəssisənin hər hansı bank hesabının hesablara dair strukturda bir hesabdan digərinə keçirilməsi;

Nüsxəsini çıxarmaq- seçilmiş bank hesabı məlumatlarının nüsxəsini strukturda digər hesaba əlavə etmək;

Merge- cədvəldə kodu və adı ilə fərqlənən bank hesabları məlumatlarının birləşdirilməsi.

9.6. Valyutalar soraqçası

Valyutalar soraqçası müəssisə və təşkilatların istifadə etdiyi valyutalar barədə məlumatlardan təşkil olunmuşdur. Bu soraqçada sistemdə mövcud olan valyutalara aid aşağıdakı məlumatlardan ibarət cədvəl yerləşir (**Şək. 159**):

- Kodu
- Adı
- Tam adı
- Carilik

Şək. 159. Valyutalar soraqçası

Açılan pəncərədə mövcud olan valyutalara aid aşağıdakı məlumatlardan ibarət cədvəl yerləşir:

- Kodu

- Adı
- Tam adı
- Carilik

Proqram təminatında soraqçaya yeni valyuta əlavə etmək və valyutanın adına görə axtarış aparmaq təmin olunmuşdur.

9.6.1. Yeni valyutanın əlavə edilməsi

Valyutalar soraqçasına yeni valyuta barədə məlumatların əlavə edilməsi əməliyyatını yalnız yuxarı səlahiyyətli istifadəçilər- inzibatçılar yerinə yetirə bilər. Belə istifadəçilər tərəfindən **Valyutalar** soraqçasına yeni valyuta əlavə edilən zaman **Yeni** funksional əməliyyatından istifadə olunur.

9.7. Valyuta məzənnəsi soraqçası

Valyuta məzənnəsi soraqçası valyuta məzənnələri haqqında məlumatların daxil edilməsi üçün nəzərdə tutulmuşdur. Bu soraqçada istifadə olunan valyutalara aid aşağıdakı məlumatlardan ibarət cədvəl yerləşir (**Şək. 160**):

- Tarix
- Valyuta
- Alış məzənnəsi
- Satış məzənnəsi
- Bank



Tarix	Valyuta	Alış məzənnəsi	Satış məzənnəsi	Bank
15.01.2018	USD	1.7001	1.7001	Azərbaycan Respublikası Mərkəzi Bankı
15.01.2018	Rub	0.03	0.03	Azərbaycan Respublikası Mərkəzi Bankı
15.01.2018	GBP	2.3359	2.3359	Azərbaycan Respublikası Mərkəzi Bankı
15.01.2018	EUR	2.0761	2.0761	Azərbaycan Respublikası Mərkəzi Bankı
15.01.2018	AED	0.4629	0.4629	Azərbaycan Respublikası Mərkəzi Bankı
08.01.2018	USD	1.7001	1.7001	Azərbaycan Respublikası Mərkəzi Bankı
08.01.2018	Rub	0.0299	0.0299	Azərbaycan Respublikası Mərkəzi Bankı
08.01.2018	GBP	2.3053	2.3053	Azərbaycan Respublikası Mərkəzi Bankı
08.01.2018	EUR	2.0445	2.0445	Azərbaycan Respublikası Mərkəzi Bankı
08.01.2018	AED	0.4629	0.4629	Azərbaycan Respublikası Mərkəzi Bankı

Şək. 160. Valyuta məzənnəsi soraqçası

- Müəyyən tarix intervalına düşən məzənnələrin ekranda əks etdirilməsi;
- Yalnız konkret bir valyutaya aid olan məzənnələrin ekrana çıxarılması.

Həmçinin valyuta məzənnələrinə düzəliş etmək, onları soraqçadan silmək əməliyyatları da təmin olunmuşdur.

9.7.1. Yeni valyuta məzənnəsinin əlavə edilməsi

Valyuta məzənnəsi soraqçasına yeni valyuta məzənnəsi barədə məlumatların əlavə edilməsi üçün yalnız yuxarı səlahiyyətli istifadəçilərə- inzibatçılara icazə verilir. Belə istifadəçilər tərəfindən yeni valyuta məzənnəsini soraqçaya əlavə edən zaman yeni məzənnə haqqında aşağıdakı məlumatların daxil edilməsi tələb olunur: Tarix, Valyuta, Alış məzənnəsi, Satış məzənnəsi, Bank

9.8. Amortizasiya dərəcələri soraqçası

Amortizasiya dərəcələri soraqçası əsas vəsaitlərin və qeyri-maddi aktivlərin amortizasiyası hesablanan zaman istifadə olunan faiz dərəcələrinin daxil edilməsi üçün nəzərdə tutulmuşdur. **Amortizasiya dərəcələri** soraqçasında hər bir əsas vəsait hesabı və ya subhesabı üçün amortizasiya faizlərini əks etdirən cədvəl mövcuddur. Bu cədvəldə aşağıdakı rekvizitlərə uyğun sütunlar yerləşir (**Şək. 161**):

- Tarix
- Faiz
- Hesab
- Amortizasiya hesablanması üsulu
- Qeyd
- İstifadəçi

/Maliyyə uçotu/Soraqçalar/Amortizasiya dərəcələri İstifadəçi rəyi; Adınız: avrasiya

Axtarış Yeni

100 Səhifə 1 - 4 1 2 3 4 >

Tarix	Faiz	Hesab	Amortizasiya hesablanması üsulu	Qeyd	İstifadəçi	Sonuncu düzəliş
01.01.1900	1.70	231.2.1.01 İki mərtəbədən artıq çoxmərtəbəli binalar	Xətti üsulu		B A	05.06.2013 10:51:27
01.01.1900	1.70	231.2.1.02 Divarı daşdan, dəmir-beton və digər uzunmüddətli metal örtüklərdən, iri blok və panellərdən tikilmiş dəmir-beton karkaslı birmərtəbəli binalar	Xətti üsulu		ELNUR ABBASOV	05.06.2013 11:01:12
01.01.1900	1.70	231.2.1.03 Taxta binalar istisna olmaqla iki mərtəbəli binalar	Xətti üsulu		ELNUR ABBASOV	05.06.2013 11:04:15
01.01.1900	3.40	231.2.1.04 Daşdoğranılma, üyüdülmə, kimyavi, habelə bu kimi analoji proseslər üzrə istehsal üçün nəzərdə tutulmuş xüsusi texnoloji təyinatlı çoxmərtəbəli binalar,	Xətti üsulu		ELNUR ABBASOV	05.06.2013 11:10:08
01.01.1900	3.40	231.2.1.05 Divarı daşdan, dəmir-beton və digər uzunmüddətli metal örtüklərdən iri blok və panellərdən tikilmiş dəmir-beton karkassız birmərtəbəli binalar	Xətti üsulu		ELNUR ABBASOV	05.06.2013 11:19:38
01.01.1900	3.40	231.2.1.06 Divarı daşdan, iri blok və panellərdən, habelə digər dəmir-beton, metal, taxta örtüklərdən və kərpic sütunlardan tikilmiş dəmir-beton karkassız birmərtəbəli binalar	Xətti üsulu		ELNUR ABBASOV	05.06.2013 11:20:19
01.01.1900	5.30	231.2.1.07 Yüngülləşdirilmiş hörgü ilə divarı daşdan, iri blok və panellərdən, habelə digər dəmir-beton, metal, taxta örtüklərdən və kərpic sütunlardan tikilmiş dəmir-beton karkassız birmərtəbəli binalar	Xətti üsulu		ELNUR ABBASOV	05.06.2013 11:20:54

Şək. 161. Amortizasiya dərəcələri soraqçası

Həmçinin **Axtarış** əməliyyatı vasitəsilə soraqçada axtarılan amortizasiya faizlərinə uyğun olan məlumat sətirlərini ekrana çıxarmaq olar.

9.8.1. Yeni amortizasiya faizinin daxil edilməsi

Proqram modulunda amortizasiyanın həm xətti, həm də azalan qalıq üsulu ilə hesablanması imkanı vardır. Ona görə də amortizasiya dərəcələri soraqçasında həm xətti üsul, həm də azalan qalıq üsuluna aid olan amortizasiya faizləri daxil edilə bilər.

Soraqçaya yeni amortizasiya faizini əlavə edən zaman yeni amortizasiya faizi barədə aşağıdakı rekvizitlərin məlumatlarını daxil etmək tələb olunur: Tarix, Faiz, Hesab, Amortizasiya hesablanması üsulu, Qeyd, İstifadəçi (**Şək. 162**):



Şək. 162. Yeni amortizasiya faizinin əlavə edilməsi

SERP sistemində digər maliyyə soraqçalarının yaradılması və onların üzərində aparılan əməliyyatlar hazırkı sənəddə təsvir olunan soraqçalara analoji olduğundan onları şərh etməyə ehtiyac yoxdur.

10. MALİYYƏ HESABATLARI KOMPONENTI

*Sənədin bu bölməsində **Sinam Müəssisə Resurslarının İdarə Edilməsi (SERP)** sisteminin proqram kompleksinə aid olan **Maliyyə hesabatları** komponentinin təyinatı, onun funksional imkanlarının təsviri verilmişdir.*

Bölmə müəssisə və təşkilatlarda maliyyə uçotuna dair əməliyyatları yerinə yetirən və hesabatlar tərtib edən mühasibat işçiləri üçün nəzərdə tutulmuşdur.

10.1. Komponentin təyinatı

Maliyyə uçotu komponentində təhlil və qərar qəbuletmə üçün inkişaf etmiş hesabat sistemi mövcuddur. Bu sistem müxtəlif parametrlər əsasında alına bilən standart hesabatları, eləcə də əlavə təhlil üçün istifadəçilər tərəfindən dinamik qaydada yaradılan xüsusi hesabatları əhatə edən böyük bir siyahıdan ibarətdir. Hesabat sisteminin yaradılması **Hesabatlar** alt komponentinin köməyi ilə təmin olunur.

Hesabatlar alt komponenti **Malliyyə uçotu** komponentinin əsas tərkib hissələrindən biridir. Bu hesabatlar maliyyə uçotuna daxil olan digər komponentlərdə yaradılan sənədlərin məlumatlarına əsasən tərtib olunur. Proqram kompleksinin köməyi ilə istifadəçi maliyyə və analitik hesabatlara baxmaq imkanına malik olur. Hesabatların tam və düzgün alınması üçün sistemdə digər komponentlərdə aparılan bütün sənədləşmələrin səhvsiz və düzgün aparılması zəruridir.

Hesabatlar komponenti yüklənən zaman ilk növbədə ekrana komponentin köməyi ilə realizə olunan və təyinatlarına uyğun olaraq birləşdirilən aşağıdakı hesabat qruplarının siyahısı çıxır:

- Əsas hesabatlar
- Debitor və kreditorlar
- Memorial-order

10.2. Əsas hesabatlar

Hesabatlar komponentinin əsas tərkib hissələrindən biri **Əsas hesabatlar** sayılır. Əsas hesabatlara aşağıdakı hesabatlar aiddir:

- Maliyyə hesabatları
- Baş Kitab
- T dəftəri
- Maddə üzrə hesabat
- Hesab vərəqəsi
- Hesab analizi
- İstifadəçi müxabirləşmələri
- Sistem müxabirləşmələri

Əyani nümunə olaraq, yuxarıda adları çəkilən hesabatlardan bəzilərinin alınmasını ətraflı şərh edək.

10.2.1. Maliyyə hesabatları

Müəssisənin maliyyə hesabatlarına aşağıdakı hesabatlar aid edilir:

- Maliyyə vəziyyəti haqqında hesabat
- Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabat
- Xalis aktivlərdə (kapitalda) dəyişikliklər haqqında hesabat
- Pul vəsaitlərinin hərəkəti haqqında hesabat
- Debitor və kreditor borcları barədə hesabat (Büdcə)
- Debitor və kreditor borcları barədə hesabat (Büdcədənkənar)
- Xərclər smetasının icrası haqqında hesabat (Büdcə)

- Xərclər smetasının icrası haqqında hesabat (Büdcədənkənar)

10.2.1.1. Maliyyə vəziyyəti haqqında hesabat

Maliyyə vəziyyəti haqqında hesabatda müəssisənin seçilmiş tarix intervalında, əksər hallarda seçilmiş hesabat ilində vəziyyəti, daha doğrusu, müəssisənin Aktivləri, Öhdəlikləri və Xalis Aktivlər və Kapitalı haqqında məlumatlar əks olunur (**Şək. 163**):

MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT — **ƏLAVƏ 1**

«31» «dekabr» 2017 il tarixə

VÖEN 1601206212

Müəssisə, təşkilat: Nazirlik

Sahə(fəaliyyət növü)

Mülkiyyətin növü

Ölçü vahidi: manat

Bölmə/maddə	Bölmə/Maddələrin adı	Qeydlər	Hesabat dövrü üzrə		Əvvəlki dövr üzrə	
1	2	3	4	5	6	7
	AKTİVLƏR					
1	**Qısamüddətli aktivlər**					
10	Pul vəsaitləri və onların ekvivalentləri		12684540.28		815693.24	
11	Qısamüddətli debitor borcları		15380		10000	
12	Ehtiyatlar		14239981.91969		14092026.2896	
13	Sair qısamüddətli maliyyə aktivləri		0		0	
14	Sair qısamüddətli aktivlər		-2718		237	
	Cəmi qisamüddətli aktivlər			**26 937 184.20**		**14 917 956.53**
2	**Uzunmüddətli aktivlər**					
22	Sair uzunmüddətli maliyyə aktivləri		0		0	
23	Torpaq, tikili və avadanlıq və digər uzunmüddətli aktivlər		1542159.7385		1410542.4204	
24	Qeyri-maddi aktivlər		0		0	
25	Sair uzunmüddətli qeyri-maliyyə aktivləri		0		0	
	Cəmi uzunmüddətli aktivlər			**1 542 159.74**		**1 410 542.42**
	CƏMİ AKTİVLƏR			**28 479 343.94**		**16 328 498.95**
	ÖHDƏLİKLƏR					
3	**Qisamüddətli öhdəliklər**					
30	Qısamüddətli kreditor borcları		-922514.339990001		691.200000001118	
31	Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər		0		0	
32	Qısamüddətli qiymətləndirilmiş öhdəliklər		0		0	
33	Sair qısamüddətli öhdəliklər		27796868.61		14725991.01	
	Cəmi qisamüddətli öhdəliklər			**26 874 354.27**		**14 726 682.21**
4	Uzunmüddətli öhdəliklər					
40	Uzunmüddətli kreditor borcları		0		0	
41	Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər		0		0	
42	Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər		0		0	
	Cəmi uzunmüddətli öhdəliklər			**0.00**		**0.00**
	Cəmi öhdəliklər			**26 874 354.27**		**14 726 682.21**
5	**Xalis Aktivlər və Kapital**					
50	Ödənilmiş (nizamnamə) kapitalı		0		0	
52	Geri alınmış kapital		0		0	
53	Kapital ehtiyatları		1515304.82772		1514879.74	
54	Bölüşdürülməmiş mənfəət		-1300		-1300	
	Cəmi xalis aktivlər (kapital)			**1 514 004.83**		**1 513 579.74**
	Cəmi xalis aktivlər (kapital) və öhdəliklər			**28 388 359.10**		**16 240 261.95**

Şək. 163. Maliyyə vəziyyəti haqqında hesabat

10.2.1.2. Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabat

Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabatda müəssisənin hesabat dövrü üzrə və əvvəlki dövr üzrə Gəlirlər, Xərclər, Ümumi mənfəət/ zərər, həmçinin hesabat dövrü üzrə Xalis mənfəət / Zərər məlumatları əks olunur (**Şək. 164**):

MALİYYƏ FƏALİYYƏTİNİN NƏTİCƏLƏRİ HAQQINDA HESABAT (xərclərin xüsusiyyəti üzrə) ƏLAVƏ 2

«31» «dekabr» 2017 il tarixə

Nazirlik

ölçü vahidi: manat

Bəzən hər hansı büdcə növünə aid olan alt büdcə növünü yaratmaq lazım gəlir. Yeni alt büdcə növünün yaradılması qaydası yeni büdcə növünün yaradılmasına tam analojidir.

Həmçinin xəzinədarlıq sisteminə aid olan digər soraqçaların yaradılması və onların üzərində aparılan əməliyyatlar **Büdcə növləri** soraqçasına analoji olduğundan onları da şərh etməyə ehtiyac yoxdur.

14.4. Müqavilə sənədləri

Müqavilə sənədi büdcə təşkilatları tərəfindən Xəzinədarlıq sisteminə təqdim olunan ilkin sənəd hesab olunur. Bu sənəd təşkilatın digər təşkilatlarla bağladığı müqavilələrə əsasən yaradılır. Bu müqavilələr SERP sisteminin **Müqavilələr** modulunun köməyi ilə yaradılır və sistemdə saxlanılır. Müqavilə sənədləri yalnız 1, 1Y, 3 və 3Y fondlar qrupu üzrə qəbul olunur. Xəzinədarlığa təqdim edilən bütün sənədlər kimi müqavilə sənədləri də **Xəzinədarlıq sənədləri** baş interfeys pəncərəsində yerləşən **Müqavilə sənədinin yaradılması** adlı tab-vərəq vasitəsilə ekranda görünür **(Şək. 268):**



Təşkilatın adı	Təşkilatın VÖEN-i	Müqavilənin nömrəsi	Müqavilənin tarixi	Büdcə	Adı	Ölçü vahidi	Miqdarı	Vahidin dəyəri	Məbləğ	ƏDV	ƏDV daxil	Yekun məbləğ	Funksional təsnifat	İqtisadi təsnifat	Büdcə proqramının kodu
VİT MMC	1700847151	1	01.01.2017	Dövlət büdcəsi	221300 Idarənin digər xərcləri	ədəd	1	1210	1,210.00	217.80		1,427.80	0113	221300	
İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ	1402057301	12	01.02.2017	Dövlət büdcəsi	Soyuducu Dnepr	ədəd	7	1500	10,500.00	1,890.00		12,390.00	0113	225411	
İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ	1402057301	12	01.02.2017	Dövlət büdcəsi	Proektor	ədəd	3	500	1,500.00	270.00		1,770.00	0113	225411	
İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ	1402057301	12	01.02.2017	Dövlət büdcəsi	Televizor Samsung	ədəd	6	1000	6,000.00	1,080.00		7,080.00	0113	225411	
İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ	1402057301	121	01.01.2017	Dövlət büdcəsi	225413 Digər alışlar və xidmətlər	ədəd	1	15000	15,000.00	2,700.00		17,700.00	0113	225413	
GÜNƏŞLİ ASC	9900069391	4321	01.08.2017	Dövlət büdcəsi	Mühafizə xidməti	ədəd	1	2000	1,694.92	305.08	✓	2,000.00	0113	221330	
VİT MMC	1700847151	77	01.08.2017	Dövlət büdcəsi	Notebook: HP Pavilion	ədəd	7	800	5,600.00	1,008.00		6,608.00	0113	225412	
VİT MMC	1700847151	77	01.08.2017	Dövlət büdcəsi	Monitor Nexsus 23"	ədəd	10	500	5,000.00	900.00		5,900.00	0113	225412	
VİT MMC	1700847151	77	01.08.2017	Dövlət büdcəsi	CISCO Telefon IP PHON 7945G UNİFİED 79	ədəd	10	200	2,000.00	360.00		2,360.00	0113	225412	

Şək. 268. Müqavilə sənədlərinin yaradılması tab-vərəqi

14.4.1.Müqavilə sənədinin yaradılması

Müqavilə sənədlərinin yaradılması tab-vərəqində müqavilələrin tərkibini əks etdirən cədvəl yerləşir. Bu cədvəlin sütunlarında müqavilə sənədlərinə dair aşağıdakı məlumatlar yerləşir:

- Təşkilatın adı
- Təşkilatın VÖEN-i
- Müqavilənin nömrəsi
- Müqavilənin tarixi

- Büdcə
- Adı
- Ölçü vahidi
- Miqdarı
- Vahidin dəyəri
- Məbləğ
- ƏDV
- ƏDV daxil
- Yekun məbləğ
- Funksional təsnifat
- İqtisadi təsnifat
- Büdcə proqramının kodu

Müqavilə sənədinin yaradılması zamanı aşağıdakı əməliyyatlar yerinə yetirilir:

1. **Müqavilə sənədlərinin yaradılması** tab-vərəqində **Tarix və Büdcə** sahələrinə görə seçim aparılır. Nəticədə seçilən büdcəyə uyğun olaraq **XHK kodu, Unikal XHK kodu** və **Fond** sahələrinə məlumatlar sistem tərəfindən avtomatik olaraq ötürülür

2. Cədvəldən yeni yaradılacaq müqavilə sənədinə daxil ediləcək məlumat sətirlərinin seçimi aparılır. Sonra bu sətirlərdə *Miqdarı, Vahidi, Avans məbləği* sahələrinə düzəliş edilir, digər sahələr isə avtomatik olaraq hesablanır. Sonda *Müqavilə sənədinin yaradılması* funksional əməliyyatı yerinə yetirilir (**Şək. 269**):

Forma

Təşkilatın adı	Təşkilatın VÖEN-i	Müqavilənin nömrəsi	Müqavilənin tarixi	Layihə	Adı	Ölçü vahidi	Miqdarı	Vahidin dəyəri	Məbləğ	ƏDV	ƏDV daxil	Yekun məbləğ	Avans məbləğ	Funksional təsnifat	İqtisadi təsnifat	Büdcə proqramının kodu
İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ	1402057301	12	01.02.2017	Dövlət büdcəsi	Soyuducu Dnepr	ədəd	3	1500	10,500.00	1,890.00	☐	12,390.00	1500	0113	225411	
İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ	1402057301	12	01.02.2017	Dövlət büdcəsi	Proektor	ədəd	2	500	1,500.00	270.00	☐	1,770.00	500	0113	225411	
GÜNƏŞLİ ASC	9900069391	4321	01.08.2017	Dövlət büdcəsi	Mühafizə xidməti	ədəd	1	1000	1,694.92	305.08	☑	2,000.00		0113	221330	
VİT MMC	1700847151	77	01.08.2017	Dövlət büdcəsi	CİSCO Telefon İP PHON 7945G UNİFİED 79	ədəd	5	200	2,000.00	360.00	☐	2,360.00		0113	225412	

Müqavilə sənədini yarat | İmtina

Şək. 269. Yeni müqavilə sənədinin məlumatları

14.4.2. Müqavilə sənədləri cədvəli

Yeni yaradılmış müqavilə sənədi **Müqavilə sənədləri** tab-vərəqində açılan cədvəldə əks olunur. Cədvəldəki istənilən müqavilə sənədinin nömrəsi üzərindəki hiperistinad vasitəsilə keçid etməklə sənədin məzmununa baxmaq mümkündür (**Şək. 270**):

Seçilmişlərdən yarat | 01.08.2017 - 22.08.2017 | Tarixi seçmək | Seçilmişləri Silmək | Ixrac

Sənədin Nömrəsi	Sənədin tarixi
1	21.08.2017

Təşkilatın adı	Təşkilatın VÖEN-i	Müqavilənin nömrəsi	Müqavilənin tarixi	Büdcə	Adı	Ölçü vahidi	Miqdarı	Vahidin dəyəri	Məbləğ	ƏDV daxil	Yekun məbləğ	Avans məbləğ	Funksional təsnifat	İqtisadi təsnifat	Büdcə proqramının kodu	Sistem nömrəsi	Sistem mövqeyi
İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ	1402057301	12	01.02.2017	Dövlət büdcəsi	Soyuducu Dnepr	ədəd	3	1500	4,500.00	☐	5,310.00	1,500.00	0113	225411			
İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ	1402057301	12	01.02.2017	Dövlət büdcəsi	ƏDV				810.00	☐		270.00	0113	225411			
İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ	1402057301	12	01.02.2017	Dövlət büdcəsi	Proektor	ədəd	2	500	1,000.00	☐	1,180.00	500.00	0113	225411			
İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ	1402057301	12	01.02.2017	Dövlət büdcəsi	ƏDV				180.00	☐		90.00	0113	225411			
GÜNƏŞLİ ASC	9900069391	4321	01.08.2017	Dövlət büdcəsi	Mühafizə xidməti	ədəd	1	1000	847.46	☑	1,000.00	0.00	0113	221330			
GÜNƏŞLİ ASC	9900069391	4321	01.08.2017	Dövlət büdcəsi	ƏDV				152.54	☐			0113	221330			
VİT MMC	1700847151	77	01.08.2017	Dövlət büdcəsi	CİSCO Telefon İP PHON 7945G UNİFİED 79	ədəd	5	200	1,000.00	☐	1,180.00	0.00	0113	225412			
VİT MMC	1700847151	77	01.08.2017	Dövlət büdcəsi	ƏDV				180.00	☐			0113	225412			

Şək. 270. Yeni müqavilə sənədi

Yeni yaradılan müqavilə sənədində hər bir mala uyğun olan sətirdən sonrakı sətirdə ona uyğun olan **ƏDV** sətri (əgər müqavilədə ƏDV məlumatı daxil edilmişdirsə) yaranır.

Müqavilə sənədləri xəzinədarlıq orqanına təqdim edildikdən sonra sistemə daxil edilir. Yoxlanıldıqdan sonra təsdiq edilir və onun hər bir sətrindəki xərc maddəsinə sistem nömrəsi və mövqeyi mənimsədilir.

Proqram komponentində müqavilə sənədinin Excel faylına ixracı təmin edilmişdir (**Şək. 271**):



Müqavilə sənədi № 1

Forma 12

Maliyyə orqanının adı: 12 saylı Xəzinədarlıq İdarəsi

Təşkilatın adı: Nazirlik

Təşkilatın XHK-nın kodu: 2081598

21-AUG-17

Təchizatçının VÖEN-i	Müqavilənin №-si	Müqavilənin tarixi	Müqavilə predmetinin Adı	Müqavilə predmetinin Ölçü vahidi	Müqavilə predmetinin Miqdar, həcm	Müqavilə predmetinin Vahidin qiyməti	Müqavilə predmetinin Cəmi məbləğ	Təsnifat Fond	Təsnifat Funksional	Təsnifat İqtisadi	BP-nın kodu
1	2	3	4	5	6	7	8	9	10	11	12
1402057301	12	01.02.2017	Soyuducu Dnepr	ədəd	3.00	1 500.00	4 500.00	1	0113	225411	
1402057301	12	01.02.2017	ƏDV				810.00	1	0113	225411	
1402057301	12	01.02.2017	Proektor	ədəd	2.00	500.00	1 000.00	1	0113	225411	
1402057301	12	01.02.2017	ƏDV				180.00	1	0113	225411	
9900069391	4321	01.08.2017	Mühafizə xidməti	ədəd	1.00	1 000.00	847.46	1	0113	221330	
9900069391	4321	01.08.2017	ƏDV				152.54	1	0113	221330	

Şək. 271. Müqavilə sənədi (Forma 12)

14.5. Uzunmüddətli öhdəliklər

14.5.1.Uzunmüddətli öhdəlik sənədinin yaradılması

Uzunmüddətli öhdəlik sənədi müqavilə sənədinə istinadən yaradılır. Uzunmüddətli öhdəlik sənədini yaradılması zamanı aşağıdakı əməliyyatlar ardıcıllığı yerinə yetirilir:

1. Əvvəlcə **Xəzinədarlıq sənədləri** komponentinin baş pəncərəsində **Müqavilə sənədləri** tab-vərəqi aktivləşdirilir və təşkilatın seçilmiş tarix intervalında yaratdığı müqavilə sənədləri ekranda əks olunur.
2. Müqavilə sənədləri siyahısında istinad olunacaq müqavilə sənədi seçilir və bu sənədin tərkib hissələrini əks etdirən cədvəl açılır.
3. Bu cədvəldən yeni yaradılacaq uzunmüddətli öhdəlik sənədinə daxil ediləcək məlumat sətirləri seçilir və seçilmişlərdən uzunmüddətli öhdəlik sənədinin yaradılması funksional əməliyyatı yerinə yetirilir (**Şək. 272**).



Şək. 272. Uzunmüddətli öhdəliyin yaradılması

Bu zaman açılan **Maddələr üzrə Qalıqlar** ekran formasında seçilən məlumat sətirləri əks olunur (**Şək. 273**):

Şək. 273. Maddələr üzrə qalıqlar ekran forması

4. Hər bir məlumat sətrində malın və xidmətin uzunmüddətli öhdəlik sənədinə aid ediləcək miqdarı və avans məbləğinin qiymətləri sistemə daxil edilir, *Məbləğ* rekviziti avtomatik olaraq proqram tərəfindən hesablanır (**Şək. 274**) .

Forma- Maddələr üzrə Qalıqlar

Təşkilatın adı	Təşkilatın VÖEN-i	Layihə	Adı	Ölçü vahidi	Miqdarı	Vahidin dəyəri	Məbləğ	ƏDV daxil	Yekun məbləğ	Avans məbləğ	Funksional təsnifat	İqtisadi təsnifat	Büdcə proqramının kodu
İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ	1402057301	Dövlət büdcəsi	Soyuducu Dnepr	ədəd	2	1500	4,500.00		5,310.00	1,500.0	0113	225411	
İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ	1402057301	Dövlət büdcəsi	ƏDV				810.00				0113	225411	
İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ	1402057301	Dövlət büdcəsi	Proektor	ədəd	2	500	1,000.00		1,180.00	500.00	0113	225411	
İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ	1402057301	Dövlət büdcəsi	ƏDV				180.00				0113	225411	
GÜNƏŞLİ ASC	9900069391	Dövlət büdcəsi	Mühafizə xidməti	ədəd	1	1000	847.46	✓	1,000.00	0.00	0113	221330	
GÜNƏŞLİ ASC	9900069391	Dövlət büdcəsi	ƏDV				152.54				0113	221330	
VİT MMC	1700847151	Dövlət büdcəsi	CİSCO Telefon İP PHON 7945G UNİFİED 79	ədəd	3	200	1,000.00		1,180.00	0.00	0113	225412	
VİT MMC	1700847151	Dövlət büdcəsi	ƏDV				180.00				0113	225412	

Sənədi yarat | Imtina

Şək. 274. Yeni uzunmüddətli öhdəliyin məlumatları

5. Nəhayət, sənədin yaradılması əməliyyatından sonra seçilən məlumat sətirlərinə istinadən uzunmüddətli öhdəlik sənədi yaradılır.

QEYD: *Uzunmüddətli öhdəlik sənədini yaradan zaman malın və xidmətin miqdarını seçərkən bu mallara və xidmətlərə uyğun olan hər maddə üzrə məbləğ bu maddə üzrə smeta qalığını aşa bilməz. Əgər belə hal aşkar olunarsa, bu halda ekrana aşağıdakı bildiriş çıxır:*

Ranglanmiş sətirlərdə məbləğ büdcədə planlaşdırılan məbləğdən kiçik bərabər olmalıdır

14.5.2.Uzunmüddətli öhdəlik sənədləri cədvəli

Sistemdə mövcud olan uzunmüddətli öhdəlik sənədləri **Uzunmüddətli öhdəlik sənədləri** tab-vərəqində əks olunur. (**Şək. 275**).



Şək. 275. Uzunmüddətli öhdəlik sənədləri cədvəli

Uzunmüddətli öhdəlik sənədləri xəzinədarlıq orqanına təqdim edildikdən sonra sistemə daxil edilir. Sonra sənədlər təsdiq edilir və onun hər bir sətrindəki xərc maddəsinə sistem nömrəsi və mövqeyi mənimsədilir.

Proqram komponentinin köməyi ilə uzunmüddətli öhdəlik sənədinin Excelə ixrac faylını (**Forma13**) almaq mümkündür (**Şək. 276**).



Uzunmüddətli öhdəlik sənədi № 1

Forma 13

Maliyyə orqanının adı: 12 saylı Xəzinədarlıq İdarəsi — tarix: 21-AUG-17

Təşkilatın adı: Nazirlik

Təşkilatın XHK-nın kodu: 2081598

		İstinad olunan müqavilənin sistem		Mal (iş və xidmətin)						Təsnifat				Büdcə proqramının kodu
	Təchizatçının VÖEN-i	№	mövqeyi	Adı	Ölçü vahidi	Miqdar, həcm	Vahidin qiyməti	Məbləğ	*Qabaqcadan ödənişin məbləği*	Fond	Inzibati	Funksional	İqtisadi	
	1	2	3	4	5	6	7	8	9	10	11	12	13	14
10	1402057301			Soyuducu Dnepr	ədəd	2.00	1 500.00	3 000.00	1 500.00	1	1208	0113	225411	
11	1402057301			ƏDV				540.00	270.00	1	1208	0113	225411	
12	1402057301			Proektor	ədəd	2.00	500.00	1 000.00	500.00	1	1208	0113	225411	
13	1402057301			ƏDV				180.00	90.00	1	1208	0113	225411	
14	9900069391			Mühafizə xidməti	ədəd	1.00	1 000.00	847.46	0.00	1	1208	0113	221330	
15	9900069391			ƏDV				152.54	0.00	1	1208	0113	221330	
	1700847151			CİSCO Telefon İP PHON 7945G UNİFİED 79	ədəd	3.00	200.00	600.00	0.00	1	1208	0113	225412	

Şək. 276. Uzunmüddətli öhdəlik sənədi (Forma13)

14.6. Qabaqcadan ödənişlər üzrə qısamüddətli öhdəliklər

Qabaqcadan ödənişlər üzrə qısamüddətli öhdəlik sənədi (QMÖS) 1, 1Y, 3 və 3Y fondlar qrupu üzrə qəbul olunur. Qabaqcadan ödənişlər üzrə qısamüddətli öhdəliklər bütün xərc

maddələri üzrə qəbul edilə bilər və açılmış maliyyələşmə qalığı həcmindən çox qəbul edilə bilməz.

Uzunmüddətli öhdəlik sənədi yaradılmış xərclər üzrə Qabaqcadan ödənişlər üzrə QMÖS mütləq uzunmüddətli öhdəlik sənədinə istinadən yaradılmalıdır. Uzunmüddətli öhdəlik sənədi yaradılmayan xərclər üzrə Qabaqcadan ödənişlər üzrə QMÖS birbaşa yaradılır.

Uzunmüddətli öhdəlik sənədində qabaqcadan ödəniş (avans) məbləği əks olunarsa, bu halda həmin uzunmüddətli öhdəlik sənədinə istinad edərək əvvəlcə Qabaqcadan ödənişlər üzrə QMÖS və sonra Qısamüddətli öhdəlik sənədi yaradılmalıdır. Əks halda proqram modulunda Qısamüddətli öhdəlik sənədinin yaradılmasına imkan verilmir.

14.6.1.Qabaqcadan ödənişlər üzrə QMÖS yaradılması

Proqram komponentində Qabaqcadan ödənişlər üzrə QMÖS yaratmaq üçün aşağıdakı əməliyyatlar ardıcıllığı yerinə yetirilir:

1. **Xəzinədarlıq sənədləri** pəncərəsində **Uzunmüddətli öhdəlik sənədləri** tab-vərəqi aktivləşdirilir. Bu tab-vərəqdə seçilmiş tarix intervalında yaradılmış uzunmüddətli öhdəlik sənədləri əks olunur.
2. Uzunmüddətli öhdəlik sənədləri içərisində istinad olunacaq sənəd seçilir və onun tərkib hissələrini əks etdirən cədvəl açılır.
3. Bu cədvəldən Qabaqcadan ödənişlər üzrə QMÖS-ə daxil ediləcək məlumat sətirləri seçilir və menyudan **Qabaqcadan ödənişlər üzrə QMÖS** əməliyyatı yerinə yetirilir (**Şək. 277**).



Şək. 277. Qabaqcadan ödənişlər üzrə QMÖS yaradılması

4. Açılan **Maddələr və qalıqlar** ekran formasında seçilən məlumat sətirləri əks olunur. Sonra mal-materiala aid olan sətirlərdə **Miqdarı** sahəsinə, satın alınan iş və xidmətlərə aid olan sətirlərdə isə **Vahidin dəyəri** sahəsinə düzəliş edilir, **Avans məvbləği** sütunu isə sıfırlanır. Həmçinin hər bir sətrin əks etdirdiyi xərcə aid olan **Təsdiqedici sənəd** barədə məlumatlar da sistemə daxil edilir (**Şək. 278**) :

Şək. 278. Yeni Qabaqcadan ödənişlər üzrə QMÖS

Proqram komponentində xərc maddəsi üçün bir neçə təsdiqedici sənəd barədə məlumatları daxil etmək imkanı təmin edilmişdir.

5. Son mərhələdə sənədin yaradılması əməliyyatından sonra seçilən məlumat sətirlərinə istinadən qabaqcadan ödənişlər üzrə QMÖS yaradılır.

Əgər uzunmüddətli öhdəlik sənədində əks olunan avans məbləğləri qurtardıqdan sonra yeni bir QMÖS yaratmaq üçün cəhd edilərsə, bu halda açılan ekran formasında heç bir məlumat sətirləri olmayacaq:

Qeyd: *Qabaqcadan ödənişlər üzrə QMÖS yaradılan zaman hər bir xərc maddəsi üzrə bankda olan maliyyələşmə qalığı öhdəlik sənədində göstərilən məbləğdən kiçik olarsa,bu halda aşağıdakı məlumat çıxır və öhdəlik sənədi yaratmaq mümkün olmur.*

14.6.2. Qabaqcadan ödənişlər üzrə QMÖS cədvəli

Proqram komponenti tərəfindən yaradılan qabaqcadan ödənişlər üzrə qısamüddətli öhdəlik sənədləri **Qabaqcadan ödənişlər üzrə QMÖS** tab-vərəqində əks olunur.

Digər xəzinədarlıq sənədləri kimi Qabaqcadan ödənişlər üzrə QMÖS də xəzinədarlıq orqanına təqdim edildikdən sonra sistemə daxil edilir. Sonra sənədlər təsdiq edilir və onun hər bir sətrindəki xərc maddəsinə sistem nömrəsi və mövqeyi mənimsədilir.

Qabaqcadan ödənişlər üzrə QMOS sənədini ixrac etməklə bu sənədə uyğun Excel faylı **(Forma 15)** alınır (**Şək. 279**):

Qabaqcadan ödənişlər üzrə Qısamüddətli öhdəlik sənədi № 1

Forma 15

Maliyyə orqanının adı: 12 saylı Xəzinədarlıq İdarəsi — tarix: 21-AUG-17

Təşkilatın adı: Nazirlik

Təşkilatın XHK-nın kodu:

Təchizatçının VÖEN-i	Təchizatçının adı	İstinad olunan müqavilənin sistem		İstinad olunan uzunmüddətli öhdəliyin sistem		Təsdiqedeci sənədin (qaime, hesab/faktura, ştat cədvəli, akt və s.)			Mal (iş və xidmətin)						Təsnifat			
		№	mövqe	№	mövqe	adı	№	tarixi	adı	Ölçü vahidi	Miqdar, həcm	Vahidin qiyməti	Məbləğ	Valyuta	Fond	F.T.	İqtisadi təsnifat	BP-nın kodu
1	2	3	4	5	6	7	8	9	10	11	12	13	14	15	16	17	18	19
1402057301	İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ					VHF	12	01.02.2017	Soyuducu Dnepr	ədəd	1.00	1 500.00	1 500.00		1	0113	225411	
1402057301	İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ					VHF	12	01.02.2017	ƏDV				270.00		1	0113	225411	
1402057301	İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ					VHF	12	01.02.2017	Proektor	ədəd	1.00	500.00	500.00		1	0113	225411	
	İNFORMASİYA																	

Лист1 Лист2 Лист3

Şək. 279. Qabaqcadan ödənişlər üzrə QMÖS (Forma 15)

14.7. Qabaqcadan ödənişlər üzrə sifariş sənədi

Qabaqcadan ödənişlər üzrə sifariş sənədi büdcə təşkilatlarının qabaqcadan ödəniləcək xərclər üçün Maliyyə (Xəzinədarlıq) orqanına təqdim etdiyi sənəd formasıdır. Bu sənəd qabaqcadan ödənişlər üzrə QMÖS-ə istinad edilərək tərtib olunur. Qabaqcadan ödəniləcək xərc əməliyyatlarının məbləği qəbul olunmuş qabaqcadan ödənişlər üzrə QMÖS məbləğini aşa bilməz.

14.7.1.Qabaqcadan ödənişlər üzrə sifarişin yaradılması

Proqram komponentində Qabaqcadan ödənişlər üzrə sifariş sənədini yaratmaq üçün aşağıdakı əməliyyatlar ardıcıllığı yerinə yetirilir:

1. Komponentin **Xəzinə sənədləri** baş pəncərəsində **Qabaqcadan ödənişlər üzrə QMÖS** tab-vərəqi aktivləşdirilir. Açılan tab-vərəqdə seçilmiş tarix intervalında yaradılmış qabaqcadan ödənişlər üzrə QMÖS sənədləri əks olunur.

2. İstinad olunacaq sənəd seçilir və onun tərkib hissələrini əks etdirən cədvəl açılır.

3. Açılan cədvəldə yeni yaradılacaq Qabaqcadan ödənişlər üzrə sifariş sənədinə daxil ediləcək məlumat sətirləri seçilir və menyudan **Qabaqcadan ödənişlər üzrə sifariş** əməliyyatı yerinə yetirilir. Bu zaman açılan ekran formasında sifariş üçün seçilən məlumat sətirləri əks olunur (**Şək. 280**) :



Şək. 280. Yeni sifariş üçün maddələr üzrə qalıqlar

4. Cədvəlin hər bir sətri üçün aşağıdakı məlumatlar daxil edilir:

- Ödəyən bank
- Alan bank

5. Sonda sənədin yaradılması əməliyyatı yerinə yetirilir və nəticədə seçilən məlumat sətirlərini əks etdirən QMÖS üzrə sifariş sənədi yaradılır (**Şək. 281**).



Şək. 281. Qabaqcadan ödənişlər üzrə sifariş sənədi

14.7.2.Qabaqcadan ödənişlər üzrə sifariş cədvəli

XİİS-lə mübadilə komponentində yaradılan qabaqcadan ödənişlər üzrə sifariş sənədləri **Qabaqcadan ödənişlər üzrə sifariş** tab-vərəqində əks olunur.

Qabaqcadan ödəniş üçün sifarış sənədi xəzinədarlıq orqanında təsdiq edildikdən sonra sənədin hər bir sətrindəki xərc maddəsinə sistem nömrəsi və mövqeyi mənimsədilir.

Yeni yaradılan sifariş sənədini ixrac etməklə sifariş sənədinə uyğun olan Excel faylı **(Forma 17)** alınır (**Şək. 282**):



Qabaqcadan ödənişlər üzrə sifariş sənədi № 1

Forma 17

Maliyyə orqanının adı: 12 saylı Xəzinədarlıq İdarəsi — Tarix: 21 avgust 2017

Təşkilatın adı: Nazirlik

Təşkilatın XHK-nın kodu: 2081598 7118

Təchizatçının VÖEN-i	Təchizatçının adı	İstinad olunan qısamüddətli öhdəliyin sistem №-si	İstinad olunan qısamüddətli öhdəliyin sistem mövqeyi	Təsdiqedici sənədin (qaimə, qaimə faktura, akt və s.) Adı	№-si	tarixi	Qabaqcadan ödəniləcək mal (iş və xidmətin) Adı	Ölçü vahidi	Miqdar, həcm	Vahidin qiyməti	Məbləğ	Valyuta	Təsnifat Fond	F.T.	İqtisadi təsnifat	Bankın kodu	H/H
1	2	3	4	5		6	7	8	9	10	11	12	13	14	15	16	17
1402057301	İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ			VHF	12	01.02.2017	Soyuducu Dnepr	ədəd	1 500.00	1.00	1 500.00		1	0113	225411	501554	AZ40BBTB40060944002529500105
1402057301	İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ			VHF	12	01.02.2017	ƏDV				270.00		1	0113	225411	210027	AZ48CTRE00000000000000014001
1402057301	İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ				12	01.02.2017	Proektor	ədəd	500.00	1.00	500.00		1	0113	225411	501554	AZ40BBTB40060944002529500105
	İNFORMASİYA																

Şək. 282. Qabaqcadan ödənişlər üzrə sifarış (Forma 17)

XİİS-lə mübadilə komponentində qabaqcadan ödəniş üçün sifariş sənədləri yaranan zaman avtomatik olaraq ödəniş tapşırıqları da yaranır. Bu ödəniş tapşırıqlarına baxış sistemin Maliyyə uçotuna aid olan **Pul vəsaitləri** komponentinin **Ödəniş tapşırığı** alt komponenti vasitəsilə yerinə yetirilir. Proqram komponentində bu ödəniş tapşırıqları yaradılan zaman iki müxtəlif hal nəzərə alınır:

- ✓ Sifariş sənədinin **ƏDV daxil** halı üçün ƏDV-yə uyğun məlumat sətirləri üçün ayrıca ödəniş tapşırığı yaranmır. Belə sətirlərin məbləği mal və ya xidmətin məbləği ilə toplanır və yekun cəm məbləği üçün bir ədəd ödəniş tapşırığı yaranır.
- ✓ Sifariş sənədininin **ƏDV daxil** halı üçün ƏDV-yə uyğun hər bir sətir üçün (həm mal, xidmət, həm də ƏDV sətri üçün) ayrıca ödəniş tapşırığı yaranır.

14.8. Qısamüddətli öhdəliklər

Qısamüddətli öhdəlik sənədləri (QMÖS) uzunmüddətli öhdəlik sənədinə əsasən və ya birbaşa yaradıla bilər. Bu öhdəlik sənədləri 1, 1Y, 3 və 3Y fondlar üzrə qəbul olunur və hər bir xərc maddəsi üzrə açılmış maliyyələşmə qalığı həcmindən çox qəbul edilə bilməz.

14.8.1. QMÖS yaradılması

Uzunmüddətli öhdəlik sənədinə əsasən QMÖS yaratmaq üçün aşağıdakı əməliyyatlar ardıcıllığını yerinə yetirilir:

1. **Xəzinə sənədləri** baş pəncərəsində **Uzunmüddətli öhdəlik sənədləri** tab-vərəqi aktivləşdirilir.
2. Uzunmüddətli öhdəlik sənədlərinin siyahısında istinad olunacaq sənədin tərkib hissələrini əks etdirən cədvəl açılır.
3. Açılan cədvəldə yeni yaradılacaq QMÖS-ə daxil ediləcək məlumat sətirləri seçilir və menyudan **Qısamüddətli öhdəlik sənədi** əməliyyatı yerinə yetirilir (**Şək. 283**) .



Şək. 283. QMÖS yaradılması pəncərəsi

4. Nəticədə seçilmiş məlumat sətirlərini əks etdirən ekran formasında mallar və xidmətlərə dair aşağıdakı məlumatlar əks olunur:

- Mal və xidmətlərə dair məlumat sətrində hər bir mal və xidmət üzrə uzunmüddətli öhdəlik sənədindəki məbləğdən Qabaqcadan ödənişlər üzrə QMÖS-də həmin mal və xidmət üzrə əks olunan avans məbləğləri çıxıldıqdan sonra qalan məbləğ əks olunur.

- Mallar və eləcə də xidmətlər üçün ƏDV-yə dair məlumat sətrində uzunmüddətli öhdəlik sənədindəki ƏDV məbləğindən Qabaqcadan ödənişlər üzrə QMÖS-də əks olunan avans ƏDV məbləğlərini çıxdıqdan sonra qalan fərq əks olunur. (**Şək. 284**):

Forma- Maddələr üzrə Qalıqlar

Təşkilatın adı	Təşkilatın VÖEN-i	Layihə	Adı	Ölçü vahidi	Miqdarı	Vahidin dəyəri	Məbləğ	ƏDV daxil	Yekun məbləğ	Funksional təsnifat	İqtisadi təsnifat	Büdcə proqramının kodu
İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ	1402057301	Dövlət büdcəsi	Soyuducu Dnepr	ədəd	1	1500	1,500.00		1,770.00	0113	225411	
İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ	1402057301	Dövlət büdcəsi	ƏDV				270.00			0113	225411	
İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ	1402057301	Dövlət büdcəsi	Proektor	ədəd	1	500	500.00		590.00	0113	225411	
İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ	1402057301	Dövlət büdcəsi	ƏDV				90.00			0113	225411	
GÜNƏŞLİ ASC	9900069391	Dövlət büdcəsi	Mühafizə xidmeti	ədəd	1	1000	847.46	✓	1,000.00	0113	221330	
GÜNƏŞLİ ASC	9900069391	Dövlət büdcəsi	ƏDV				152.54			0113	221330	
VİT MMC	1700847151	Dövlət büdcəsi	CİSCO Telefon İP PHON 7945G UNİFİED 79	ədəd	3	200	600.00		708.00	0113	225412	
VİT MMC	1700847151	Dövlət büdcəsi	ƏDV				108.00			0113	225412	

Sənədi yarat | Imtina

Şək. 284. QMÖS üçün maddələr üzrə qalıqlar

5. Məlumat sətirlərindəki **Miqdar** və **Məbləğ** sahələrinə, lazım gələrsə, düzəliş edilir, sənədin yaradılması əməliyyatı yerinə yetirilir və qısamüddətli öhdəlik sənədi yaranır.

14.8.2. QMÖS cədvəli

XİİS-lə mübadilə komponentində yaradılan QMÖS sənədləri qısamüddətli öhdəliklərə dair cədvəldə əks olunur. QMÖS xəzinədarlıq orqanında təsdiq edildikdən sonra sənədin hər bir sətrindəki xərc maddəsinə sistem nömrəsi və mövqeyi məlumatları daxil edilir .

Yaradılan QMÖS-i ixrac etmək üçün ixrac əməliyyatı yerinə yetirilir. Alınan QMÖS (**Forma 14**) çıxış forması aşağıdakı şəkildə əks olunmuşdur (**Şək. 285**):

Qısamüddətli öhdəlik sənədi № 1

Forma 14

Maliyyə orqanının adı: 12 saylı Xəzinədarlıq İdarəsi — tarix: 21-AUG-17

Təşkilatın adı: Nazirlik

Təşkilatın XHK-nın kodu: 2081598

		İstinad olunan uzunmüddətli öhdəliyin sistem		Təsdiqedeci sənədin (qaimə, hesab/faktura, ştat cədvəli, akt və s.)			Mal (iş və xidmətin)						Təsnifat				
Təchizatçının VÖEN-i	Təchizatçının adı	№	mövqe	adı	№	tarixi	adı	Ölçü vahidi	Miqdar, həcm	Vahidin qiyməti	Məbləğ	Valyuta	Fond	F.T.	İqtisadi təsnifat	BP-nın kodu	BP-nın adı
1	2	3	4	5	6	7	8	9	10	11	12	13	14	15	16	17	18
1402057301	İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ			VHF	12	01.02.2017	Soyuducu Dnepr	ədəd	1.00	1 500.00	1 500.00		1	0113	225411		
1402057301	İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ			VHF	12	01.02.2017	ƏDV				270.00		1	0113	225411		
1402057301	İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ			VHF	12	01.02.2017	Proektor	ədəd	1.00	500.00	500.00		1	0113	225411		
1402057301	İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ			VHF	12	01.02.2017	ƏDV				90.00		1	0113	225411		

Şək. 285. QMÖS (Forma 14)

14.9. Birbaşa yaradılan qabaqcadan ödənişlər üzrə QMÖS

QMÖS və qabaqcadan ödənişlər üzrə QMÖS heç bir əvvəlki sənədlərə istinad etmədən birbaşa da yaradıla bilər. Birbaşa yaradılan xəzinədarlıq sənədləri SERP sistemində yaradılan Mədaxil qaiməsi və Xidmət sənədlərindən ötürülən məlumatlar əsasında formalaşdırılır.

Əgər müqaviləsiz aparılan mal alışı və xidmət zamanı avans ödənişi əməliyyatı aparılırsa, bu zaman xəzinədarlığa Qabaqcadan ödənişlər üzrə QMÖS təqdim edilməlidir. Bu sənəd mal alınmamışdan və ya xidmət göstərilməmişdən əvvəl yaradılır. Bu sənədi yaratmaq üçün əvvəlcə avans ödənişinə uyğun mal üçün Mal mədaxil qaiməsi, xidmət üçün Xidmət sənədi yaratmaq lazımdır. Belə sənədlər yaradılan zaman sistemdə hələlik müxabirləşmə yaranmamalı, daha doğrusu müxabirləşmə məbləği 0-a bərabər olmalıdır, çünki mal və ya xidmət hələ satın alınmayıb. Bu şərti təmin etmək üçün ilk növbədə Mal mədaxil qaiməsi formasında və ya Xidmət sənədi formasında **Ödənişin növü** sahəsində **Avans** yazısı əks olunmalıdır. Həmçinin mal və xidmətə dair cədvəldə isə mal və xidmət üçün **Qiymət** sahəsinə 0 (sıfır) daxil etmək lazımdır.

14.9.1. Birbaşa yaradılan qabaqcadan ödənişlər üzrə QMOS

Mədaxil qaiməsi və xidmət sənədi əsasında birbaşa qabaqcadan ödənişlər üzrə QMÖS

sənədini yaratmaq üçün aşağıdakı əməliyyatlar ardıcıllığı yerinə yetirilir:

1. **Xəzinədarlıq sənədləri** interfeys pəncərəsində **Kassa xərclərinin və Qısamüddətli öhdəlik sənədlərinin birbaşa yaradılması** tab-vərəqi aktivləşdirilir. Açılan cədvəldən birbaşa yaradılacaq **Qabaqcadan ödənişlər üzrə QMÖS**-ə daxil ediləcək məlumat sətirləri seçilir. Sonra menyuda **Qabaqcadan ödənişlər üzrə QMÖS sənədi** əməliyyatı yerinə yetirilir (**Şək. 286**).



Şək. 286. Qabaqcadan ödənişlər üzrə QMÖS sənədinin yaradılması

2. Seçilən məlumat sətirlərini əks etdirən cədvəl üzərində aşağıdakı əməliyyatlar yerinə yetirilir:

- Məlumat sətirlərində **Vahidin dəyəri, Miqdarı** və **Məbləğ** sahələrinə düzəliş edilir.
- **Avans məbləği** sütunu sıfırlanır və hər bir sətrə aid Təsdiqedici sənəd barədə məlumatlar daxil edilir.

3. Nəhayət, sənədin yaradılması əməliyyatı yerinə yetirilməndən sonra avans məbləğinə uyğun qabaqcadan ödənişlər üzrə QMÖS yaradılır və cədvələ əlavə olunur (**Şək. 287**):



Şək. 287. Birbaşa yaradılan qabaqcadan ödənişlər üzrə QMÖS

4. Birbaşa yaradılan qabaqcadan ödənişlər üzrə QMÖS sənədinin Excel faylına ixracı zamanı alınan forma (**Forma 15**) aşağıdakı şəkildə təsvir olunur (**Şək. 288**).

Qabaqcadan ödənişlər üzrə Qısamüddətli öhdəlik sənədi № 2

Forma 15

Maliyyə orqanının adı: 12 saylı Xəzinədarlıq İdarəsi — tarix: 22-AUG-17

Təşkilatın adı: Nazirlik

Təşkilatın XHK-nın kodu: Formul Error

Təchizatçının VÖEN-i	Təchizatçının adı	İstinad olunan müqavilənin sistem №	İstinad olunan müqavilənin sistem mövqe	İstinad olunan uzunmüddətli öhdəliyin sistem №	İstinad olunan uzunmüddətli öhdəliyin sistem mövqe	Təsdiqedeci sənədin (qaimə, hesab/faktura, ştat cədvəli, akt və s.) adı	Təsdiqedeci sənədin №	Təsdiqedeci sənədin tarixi	Mal (iş və xidmətin) adı	Ölçü vahidi	Miqdar, həcm	Vahidin qiyməti	Məbləğ	Valyuta	Təsnifat Fond	F.T.	İqtisadi təsnifat	BP-nın kodu	BP-nın adı
1	2	3	4	5	6	7	8	9	10	11	12	13	14	15	16	17	18	19	20
1600019501	GÖYGÖL- TİCARƏT MMC						22	20.08.2017	Lampa neon	ədəd	70.00	10.00	700.00		1	0113	225411		
1600019501	GÖYGÖL- TİCARƏT MMC						22	20.08.2017	ƏDV				126.00		1	0113	225411		
9900001751	TEXSERVİS					Akt	18	20.08.2017	Kompüter avadanlığının təmiri	ədəd	1.00	300.00	300.00		1	0113	221300		
9900001751	TEXSERVİS					Akt	18	20.08.2017	ƏDV				54.00		1	0113	221300		

Şək. 288. Birbaşa yaradılan qabaqcadan ödənişlər üzrə QMÖS (Forma 15)

14.10. Birbaşa yaradılan QMÖS

XİİS-lə mübadilə komponentində birbaşa yaradılan QMÖS sənədləri mədaxil qaimələrinə və xidmət sənədlərinə əsasən formalaşdırılır. Burada iki hal nəzərdən keçirilir:

- Mal alışı və xidmət əməliyyatına dair qabaqcadan ödənişlər üzrə QMÖS sənədləri yaradılmış olarsa, bu halda həmin sənəd üçün istifadə olunan və müxabirləşmə yaratmayan mədaxil qaiməsi və ya xidmət sənədi redaktə rejimində açılır və üzərində düzəliş aparılır. Belə ki, redaktə üçün açılan mədaxil qaiməsində və ya xidmət sənədində **Ödənişin növü** sahəsi üçün **Avans** yazısı çıxarılır. Mallara dair cədvəldə **Qiymət** sahəsinə malların qiyməti daxil edilir. Xidmət sənədində isə **Məbləğ** sahəsinə xidmətin avansla birlikdə ümumi məbləği daxil edilir.
- Mal alışı və xidmət əməliyyatına dair qabaqcadan ödənişlər üzrə QMÖS sənədləri mövcud deyil, yəni avans ödənişi aparılmayıb. Bu halda QMÖS sənədində əks olunacaq mallara və ya xidmətlərə uyğun yeni mədaxil qaiməsi və ya xidmət sənədi yaradılır. Bu sənədlərdə əsas cədvəldə **Avans məbləği** sütunu boş olmalıdır.

Birbaşa QMÖS yaratmaq üçün **Xəzinədarlıq sənədləri** pəncərəsində **Kassa xərclərinin və Qısamüddətli öhdəlik sənədlərinin birbaşa yaradılması** tab-vərəqi aktivləşdirilir və menyuda **Qısamüddətli öhdəlik sənədi** bəndi yerinə yetirilir (**Şək. 289**):



Şək. 289. Birbaşa QMÖS yaradılması əməliyyatı

Sonra seçilən məlumat sətirlərinə uyğun olan **Miqdar** və **Vahidin dəyəri** sahələrinə lazım gələrsə, düzəliş etməklə QMÖS-in tərkibi müəyyənləşdirilir və sənədin yaradılması əməliyyatı yerinə yetirilir (**Şək. 290**).



Şək. 290. Birbaşa yaradılan QMÖS

14.11. Malların (iş və xidmətlərin) alışı sənədləri (MAS)

14.11.1. MAS sənədinin yaradılması

Malların (iş və xidmətlərin) alışı **(MAS)** sənədi büdcə təşkilatları tərəfindən mövcud normativ-hüquqi sənədlərin tələblərinə uyğun olaraq və bununla əlaqədar dövlət öhdəliyinin əsasında həyata keçirilir.

Malların (iş və xidmətlərin) alışı sənədi **(MAS)** büdcə təşkilatları tərəfindən QMÖS-ə istinad edilərək yaradılır və Maliyyə (Xəzinədarlıq) orqanına təqdim edilir.

MAS və QMÖS-in rekvizitlərinin əksəriyyəti eyni olduğundan MAS sənədinə bu rekvizitlərin qiymətləri istinad olunan QMÖS-dən avtomatik olaraq ötürülür.

MAS sənədini yaratmaq üçün aşağıdakı əməliyyatlar ardıcıllığı yerinə yetirilir:

1. **Xəzinə sənədləri** interfeys pəncərəsində **Qısamüddətli öhdəliklər** tab-vərəqi aktivləşdirilir.

2. İstinad olunacaq QMÖS sənədinin tərkib hissələrini əks etdirən cədvəldə yeni yaradılacaq MAS-a daxil ediləcək məlumat sətirləri seçilir və menyuda **Mal (İş və xidmətlərin alışı) sənədi** əməliyyatı yerinə yetirilir (**Şək. 291**)



Şək. 291. MAS yaradılması

3. Əməliyyat nəticəsində açılmış ekran formasının daxiletmə üçün nəzərdə tutulmuş sahələrinə məlumatlar daxil edilir və lazım gələrsə, məlumat sətirlərinə lazımi düzəlişlər elilir. MAS sənədinə dair ekran forması aşağıda təsvir olunmuşdur (**Şək. 292**):



Təşkilatın adı	Təşkilatın VÖEN-i	Layihə	Adı	Ölçü vahidi	Miqdarı	Vahidin dəyəri	Məbləğ	ƏDV daxil	Yekun məbləğ	Funksional təsnifat	İqtisadi təsnifat	Büdcə proqramının kodu	Ödəyən bank	Alan bank	Ödəniş təyinatı və əsası	Ödənişlə əlaqədar əlavə informasiya
İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ	1402057301	Dövlət büdcəsi	Soyuducu Dnepr	ədəd	1	1500	1,500.00		1,770.00	0113	225411		103.01	Bank E	Soyuducu Dnepr	225411 (7118)
İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ	1402057301	Dövlət büdcəsi	ƏDV				270.00			0113	225411					
İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ	1402057301	Dövlət büdcəsi	Proektor	ədəd	1	500	500.00		590.00	0113	225411		103.01	Bank E	Proektor	225411 (7118)
İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ	1402057301	Dövlət büdcəsi	ƏDV				90.00			0113	225411					
GÜNƏŞLİ ASC	9900069391	Dövlət büdcəsi	Mühafizə xidməti	ədəd	1	1000	847.46	✓	1,000.00	0113	221330		103.01	"Kapita	Mühafizə xidməti	221330 (7118)
GÜNƏŞLİ ASC	9900069391	Dövlət büdcəsi	ƏDV				152.54			0113	221330					
VİT MMC	1700847151	Dövlət büdcəsi	CİSCO Telefon İP PHON 7945G UNİFİED 79	ədəd	3	200	600.00		708.00	0113	225412		103.0	Muğar	CİSCO Telefon İP	225412 (7118)
VİT MMC	1700847151	Dövlət büdcəsi	ƏDV				108.00			0113	225412					

Şək. 292. MAS sənədinə dair ekran forması

Sənədin yaradılması əməliyyatı icra olunduqdan sonra istinad olunan QMÖS-ə əsasən MAS sənədi yaradılır.

14.11.2. MAS cədvəli

Proqram komponenti vasitəsilə yaradılan MAS-lar **MAS sənədləri** cədvəlinə ötürülür. Bu cədvəldə hər hansı MAS sənədinə baxış imkanı təmin edilmişdir. Baxış zamanı ekranda həmin MAS sənədinin tərkibini əks etdirən cədvəl görünür (**Şək. 293**):

01.08.2017 - 23.08.2017 | Tarixi seçmək | Seçilmişləri Silmək | İxrac

	Sənədin Nömrəsi	Sənədin tarixi
☑	1	22.08.2017

Təşkilatın adı	Təşkilatın VÖEN-i	İstinad olunan sənədin sistem nömrəsi	İstinad olunan sənədin sistem mövqeyi	Büdcə	Adı	Ölçü vahidi	Miqdarı	Vahidin dəyəri	Məbləğ	ƏDV daxil	Yekun məbləğ	Funksional təsnifat	İqtisadi təsnifat	Büdcə proqramının kodu	Sistem nömrəsi	Sistem mövqeyi
İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ	1402057301			Dövlət büdcəsi	Soyuducu Dnepr	ədəd	1	1500	1,500.00	☐	1,770.00	0113	225411			
İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ	1402057301			Dövlət büdcəsi	ƏDV				270.00	☐		0113	225411			
İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ	1402057301			Dövlət büdcəsi	Proektor	ədəd	1	500	500.00	☐	590.00	0113	225411			
İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ	1402057301			Dövlət büdcəsi	ƏDV				90.00	☐		0113	225411			
GÜNƏŞLİ ASC	9900069391			Dövlət büdcəsi	Mühafizə xidməti	ədəd	1	1000	847.46	☑	1,000.00	0113	221330			
GÜNƏŞLİ ASC	9900069391			Dövlət büdcəsi	ƏDV				152.54	☐		0113	221330			
VİT MMC	1700847151			Dövlət büdcəsi	CİSCO Telefon IP PHON 7945G UNİFİED 79	ədəd	3	200	600.00	☐	708.00	0113	225412			
VİT MMC	1700847151			Dövlət büdcəsi	ƏDV				108.00	☐		0113	225412			

Şək. 293. MAS cədvəli

MAS-ı ixrac etmək üçün MAS-ların siyahısında bu sənəd seçilir və ixrac əməliyyatı yerinə yetirilir. Nəticədə MAS-a uyğun olan Excel faylı (**Forma 16**) alınır (**Şək. 294**).

Forma_16__22082017 11-38-37 PM [Защищенный просмотр]

Mal (iş və xidmətlərin) alışı sənədi № 1

Forma 16

Maliyyə orqanının adı: 12 saylı Xəzinədarlıq İdarəsi — tarix: 22-AUG-17

Təşkilatın adı: Nazirlik

Təşkilatın XHK-nın kodu: 2081598

Təchizatçının VÖEN-i	Təchizatçının adı	İstinad olunan qısamüddətli öhdəliyin sistem №	İstinad olunan qısamüddətli öhdəliyin sistem mövqeyi	Ödəniş tapşırığı №	Ödəniş tapşırığı tarixi	Mal (iş və xidmətin) Adı	Ölçü vahidi	Miqdar, həcm	Vahidin qiyməti	Ödəniləcək məbləğ	Avansı bağlayacaq məbləğ	Valyuta	Təsnifat Fond	Təsnifat F.T.	Təsnifat İqtisadi təsnifat	Bankın kodu	H/H
1	2	3	4	5	6	7	8	9	10	11	12	13	14	15	16	17	18
1402057301	İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ					Soyuducu Dnepr		1.00	1 500.00	1 500.00	1 500.00		1	0113	225411	501554	
1402057301	İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ					ƏDV				270.00	270.00		1	0113	225411	210027	
1402057301	İNFORMASİYA TELEKOMMUNİKASİYA BİRLİYİ					Proektor		1.00	500.00	500.00	500.00		1	0113	225411	501554	
1402057301	İNFORMASİYA					ƏDV				90.00	90.00		1	0113	225411	210027	

Лист1 Лист2 Лист3

Şək. 294. MAS-ın ixracı (Forma 16)

Əgər eyni bir uzunmüddətli öhdəlik sənədinin hər bir sətrinə uyğun həm Qabaqcadan ödənişlər üzrə QMÖS-də, həm də QMÖS-də məlumatlar əks olunmuşdursa, bu halda QMÖS sənədinə əsasən yaradılan MAS sənədində Avansı bağlayacaq məbləğ sütununda hər bir sətirdə bütün Qabaqcadan ödənişlər üzrə QMÖS sənədlərindəki uyğun sətirlərdə göstərilən ödənilmiş avans məbləğlərinin cəmi əks olunur.

14.12. Kassa xərclərinin sifarişi

Büdcədənkənar Fondlar, depozit və tapşırıqlar üzrə xərc əməliyyatları kassa xərclərinin sifarişi sənədi əsasında aparılır. **Kassa xərclərinin sifarışı** sənədi 7-ci fond qrupu üzrə qəbul edilir və 1, 1Y, 3 və 3Y fondlarından fərqli olaraq öhdəlik və mal alışı sənədləri qəbul edilmədən yaradılır. 7-ci fond üzrə xərc əməliyyatları xərc smetalarının qalıq həcminə uyğun aparılır.

Kassa xərclərinin sifarişi sənədinin yaradılması zamanı aşağıdakı əməliyyatlar yerinə yetirilir:

1. **Xəzinədarlıq sənədləri** baş pəncərəsində **Kassa xərclərinin və Qısamüddətli öhdəlik sənədinin birbaşa yaradılması** tab-vərəqi aktivləşdirilir. Bu zaman açılan cədvəldə seçilən tarix intervalında 7-ci fond üzrə mal alışı və xidmətlərə dair mədaxil qaimələrindən və xidmət sənədlərindən ötürülən məlumatlar əks olunur.
2. Bu cədvəldən **Kassa xərclərinin sifarışı** sənədinə daxil ediləcək məlumat sətirləri seçilir və menyudan **Kassa xərcləri sənədi** əməliyyatı yerinə yetirilir (**Şək. 295**).



Şək. 295. Kassa xərcləri sifarişi sənədinin yaradılması

3. Açılan ekran formasında seçilən məlumat sətirləri əks olunur. **Kassa xərclərinin sifarişi** sənədinə aid ediləcək mallar və xidmətlərə dair sətirlərdəki **Miqdar, Vahidin dəyəri** və **Məbləğ** sahələrinə, lazım gələrsə, düzəliş etməklə yaradılacaq sənədin tərkibi müəyyənləşdirilir. Həmçinin **Ödəyən bank**, **Alan bank** və **Ödənişin təyinatı və əsası** rekvizitlərinin də məlumatları sistemə daxil edilir (**Şək. 296**):



Şək. 296. Kassa xərclərinin sifarişinə dair məlumatlar

4. Sonra sənədin yaradılması əməliyyatı yerinə yetirilir və **Kassa xərclərinin sifarişi** sənədi alınır **Şək. 297**).



Şək. 297. Kassa xərclərinin sifarişi sənədi

5. Kassa xərclərinin sifarişi sənədini ixrac etmək üçün siyahıda bu sənəd seçilir və ixrac əməliyyatı icra olunur. Nəticədə sənədə uyğun Excel faylı (Forma N FB60) alınır (**Şək. 298**):

Forma N FB60

KASSA XƏRCLƏRİNİN SİFARİŞİ № 1

Tarix 23 avgust 2017

Maliyyə orqanının adı: 12 saylı Xəzinədarlıq İdarəsi

Sərəncamçı: Nazirlik

kodu: 2081598 7118

(manat)

Təchizatçı təşkilatın VÖEN-i	Təsdiqedici sənədin adı	Təsdiqedici sənədin №-si	Təsdiqedici sənədin tarixi	Cəmi məbləğ	Təsnifat: Fond	Təsnifat: İnzibati	Təsnifat: Funksional	Təsnifat: İqtisadi	Bankın kodu	H/H	QEYD
1	2	3	4	5	6	7	8	9	10	11	12
1600019501	QF	38	01.06.2017	2 400.00	7	1208	0113	225412	200093	AZ17AIIB33010019443900214109	
1600019501	QF	38	01.06.2017	432.00	7	1208	0113	225412	210027	AZ48CTRE00000000000000014001	
1600019501	QF	38	01.06.2017	3 000.00	7	1208	0113	225412	200093	AZ17AIIB33010019443900214109	
1600019501	QF	38	01.06.2017	540.00	7	1208	0113	225412	210027	AZ48CTRE00000000000000014001	
1301158021	VHF	74	03.06.2017	1 800.00	7	1208	0113	282100	503176	AZ06NICB01502022000001A40060	
1301158021	VHF	74	03.06.2017	324.00	7	1208	0113	282100	210027	AZ48CTRE00000000000000014001	
1301158021	VHF	74	03.06.2017	2 000.00	7	1208	0113	282100	503176	AZ06NICB01502022000001A40060	
1301158021	VHF	74	03.06.2017	360.00	7	1208	0113	282100	210027	AZ48CTRE00000000000000014001	
		CƏMİ:		10856.00							

Məbləğ yazı ilə: on min səkkiz yüz əlli altı manat 00 qəpik

Şək. 298. Kassa xərclərinin sifarişi (Forma N FB60)

Qeyd: *Proqram komponentində Kassa xərclərinin sifarişi sənədi yaradılan zaman həyata keçirilən xərc məbləği seçilən büdcə (7-ci fonddan maliyyələşən) üzrə bankda mövcud olan maliyyələşmə qalığını aşa bilməz. Əks halda ekrana aşağıdakı bildiriş çıxır:*



14.13. Üzləşmə aktı

XİİS-lə mübadilə komponentində aparılan bütün xəzinə əməliyyatlarından sonra yaradılan xəzinə sənədlərinə əsasən yekunda **Üzləşmə aktı** çıxış forması formalaşdırılır. Üzləşmə

aktını almaq üçün proqramın tərkibində **Üzləşmə aktı** alt komponenti yaradılmışdır. Bu komponentin yüklənməsi nəticəsində ekrana **Üzləşmə aktı** interfeys pəncərəsi açılır (**Şək. 299**).



Şək. 299. Üzləşmə aktı interfeys pəncərəsi

Açılan pəncərədə üzləşmə aktının aid olduğu tarix intervalı təqvimdən seçir. Üzləşmə aktı çıxış forması konkret tarix intervalı üçün alınır. Bəzən üzləşmə aktını konkret büdcə üzrə almaq zərurəti olduğu halda büdcə üzrə seçim edilir. Komponentin köməyi ilə seçilən büdcəyə uyğun olan funksional təsnifat məlumatı avtomatik olaraq ötürülür. Lazım gələrsə, iqtisadi təsnifat üzrə seçim də aparıla bilər. Seçimlərdən sonra *Hesabatın alınması* əməliyyatı yerinə yetirilir və üzləşmə aktı çıxış forması alınır (**Şək. 300**):

ÜZLƏŞMƏ AKTI 7569063542
Hesabat dövrü baş 01.01.2017 - 23.08.2017

Baş kredit sərəncamçısı: İqtisadiyyat Nazirliyi
Xəzinədarlıq orqanının adı: 12 saylı Xəzinədarlıq İdarəsi
Müəssisə: Nazirlik
Büdcə: Dövlət büdcəsi

Tarix: 23.08.2017

Funksional təsnifat	İqtisadi təsnifat	Dürüstləşdirilmiş büdcə	Öhdəlik	MAS	Qabaqcadan ödəniş üzrə qalıq	Dövrün əvvəlinə ilkin qalıq	Açılmış maliyyələşmə (limitlər)	Xərc	Üzləşmə dövrünə son qalıq	Hesabat dövrünə limit qalığı
0113 Mərkəzi icra hakimiyyəti orqanları	121100 İşəgötürənlərin əməyin ödənişi fonduna hesablanan sosial ayırmaları	80,000.00	0.00	0.00	0.00	0.00	36,000.00	0.00	36,000.00	36,000.00
0113 Mərkəzi icra hakimiyyəti orqanları	121200 Muzdla işləyənlərin əmək haqlarından sosial ayırmalar	10,000.00	0.00	0.00	0.00	0.00	4,500.00	0.00	4,500.00	4,500.00
0113 Mərkəzi icra hakimiyyəti orqanları	211100 Ştatda olan işçilərin əmək haqqı	2,000,000.00	0.00	0.00	0.00	11,207,496.00	6,901,000.00	0.00	18,108,496.00	6,901,000.00
0113 Mərkəzi icra hakimiyyəti orqanları	211200 Ştatdan kənar işçilərin əmək haqqı	1,000,000.00	0.00	0.00	0.00	1,240.00	450,000.00	0.00	451,240.00	450,000.00
0113 Mərkəzi icra hakimiyyəti orqanları	221100 DƏFTƏRXANA VƏ TƏSƏRRÜFAT XƏRCLƏRİ	500,000.00	0.00	0.00	0.00	58,441.16	225,000.00	900.00	282,541.16	225,000.00
0113 Mərkəzi icra hakimiyyəti orqanları	221300 İdarənin digər xərcləri	50,000.00	236.00	0.00	354.00	0.00	20,000.00	0.00	20,000.00	19,410.00
0113 Mərkəzi icra hakimiyyəti orqanları	222100 Ölkədaxili ezamiyyətlər	200,000.00	0.00	0.00	0.00	0.00	90,000.00	0.00	90,000.00	90,000.00
0113 Mərkəzi icra hakimiyyəti orqanları	222200 Xarici ezamiyyətlər	100,000.00	0.00	0.00	0.00	0.00	35,000.00	0.00	35,000.00	35,000.00
0113 Mərkəzi icra hakimiyyəti orqanları	224100 Elektrik enerjisi haqqının ödənilməsi	40,000.00	0.00	0.00	0.00	0.00	18,000.00	0.00	18,000.00	18,000.00
0113 Mərkəzi icra hakimiyyəti orqanları	224200 QAZ HAQQININ ÖDƏNİLMƏSİ	45,000.00	0.00	0.00	0.00	0.00	20,250.00	0.00	20,250.00	20,250.00

Şək. 300. Üzləşmə akı

Lazım gələrsə, üzləşmə aktını Word, Excel, PDF tipli fayllara ixrac etmək və çap etmək olar.